АРХИВ
1929
556

Чобанзадә, ф. Ағазадә

Түрк грамери

Илк сөз

19010

BAŞLANGЬC.

„Turq grameri“ adь ilə duzəltdiqimiz вy əsərin mundəricəsindən yzyn-yzadьja bəhs etməqə hacət qərməjiriz. Okycy qitabьn musbət cihətlərini —təbii вyyndygy nisbətdə —qeniş вir mutaləə ilə də ajьrd edə вiləcəqdir.

Indijə kədər jazьlan osmanlь və azəri sərf qitablarьnda olmajan şe'bələrdən „**sevtijjat**“ bəhsi əsərimizdə tamamilə jenidir. Qitabьn şe'bələrə təksimində. əvvəlcə Devləti Elmi Şyra tərəfindən təsdik edilmiş plan əsas dytylmyşdyr. O вiri tərəfdən „**imla**“, „**dyrgy işarələri**“ qiвi dil tədrisində вəjuq əməli və nəzəri əhəmijjəti olan bəhslər də oldykca mufəssəl syrətdə təşrih olynmyşdyr.

Nəhv və mə na bəhsləri qitabьn, əvvəldən tə'jin olynan həcmini вəjutməməq uçun istər-istəməz, muxtəsər syrətdə qeçilmişdir. Ejni syrətdə əcnəвi sözlərin və kajdalarьn ajdьnlaşdьrьlmasьna da dikkət veriləməmişdir.

By əsərin tərtiвində Žan Deni, professor Samojloviçin turq sərflərindən jer-jer istifadə edildiqini də ajrьca kejd etməlijiz.

„Imla“, „dyrgy işarələri“ bəhsləri F. Ağazadə, kalan: „mukəddəmə“, „sevtijjat“, „şəqlijjat“, „nəhv“ və „mə'na“ bəhsləri və вiвliografija profes. B. Çoванzadə tərəfindən tərtiв edilmişdir.

1929

03266
АРХИВ

Əsərimizin bu birinci kьsmь muəllim joldaşlara ithaf olynmakla barabar, iqinci və başka kьsьmlara dogrydan dogryja məqtəb sərfi olarak, canlь mətnlər uzərində kyrylacakdьr.

Professor: *B. Çobanzadə.*
Agazadə Fərh.

Baqь, 13 iyn, 1928.

I. Azəri ləhcəsinin mənşəi.

1

Azəri ləhcəsi, turq-tatar dilinin bir parçasь, tə'bir cajizsə, bir bydagьdьr. By bydagьn nə vakt, necə və nə qibi xusysijjətlərlə əmələ qəldiqindən bəhsə qirişmədən əvvəl turq-tatar dili hakkьnda bir neçə səz səjləməq lazьmdьr.

Turq-tatar dilinin bizə kədər qələn ən əsqi jazьlь abidələri, mə'lym oldygy uzrə VII və VIII miladi əsrlərə ajid Orxon və Jenisej qitabələri, bunlarь jazan turqlərin tə'birincə, „Bitiq taşlarь" dьr. By zamanlardən, jə'ni VIII miladi əsrdən XI- kədər, uç juz illiq bir zaman içində, bəlli-başlь bir əsərə, abidəjə rast qəlməjiriz. Nihajət XI əsrdə „Kytadgy-Biliq" adilə mə'lym olyb, „yjgyr" və ja „karlyk" turqlərinə ajid olan əsərdən sonra artьk, qərəq Orta və qərəqsə Qiçiq Asjada jerləşən turq-tatar xalklarьnьn ajrь-ajrь ədəbi, jazьlь əsərləri mejdana qəlir. Byndan sonraqь əsərləri, dil e'tibarilə, umymi əsərlər sьrasьnda sajmak mumqun dejildir.

2

XI əsrə kədər rast qəldiqimiz „Orxon qitabələri", „Kytadgy-Biliq" qibi „umymi" əsərlərin də muəjjən, ajrь ləhcələrdə jaradьlmьş ədəbi məhsyllar oldygyna şubhə jokdyr. Məsələn: miladi-lsadan təkribən iqi əsr əvvəl tarix mejdanьna çьkmьş olan „Hijyng-ny" turqlərində oldygy qibi, V-VI miladi əsrlərə dogry „tyqjy" turqlərinin də „Şimali" və „Cənubi" olmak uzrə iqi kьsma ajrьldьklarьnь qəruruq qi „Orxon" qitabələri

„Şimali tyqjy“ lara ajiddir. By ajrьlьk jalьnьz iktisadi, sijasi, ictimai səвəвlərə istinad etməqlə вaraвar, вynlara muvazi olarak, inqişaf edən dil ajrьlьklarь oldygyna şuвhə joksa da, əlimizdə Cənyвi „tyqjy“ lara ajid dil numynələri вylynmadьgьndan, вy ajrьlьgьn dildəqi izlərini tə'kiв və tə'jin etməq mumqun dejildir.

Byndan вaşka jenə həmin Orxon qitaвələrində „otyz tatar“, „tokyz ogyz“, „turqəş“, „kьrgьz“, „yjgyr“ qiвi вir çok, өzlərini tyqjylardan ajrь dytan turq xalklarьna rast qəliriz qi, вynlarьn Orxon qitaвələri vasitəsilə вildiqimiz turqcədən ajrь вir dil, daha dogrysy, ajrь вir ləhcə ilə səjləşdiqləri şuвhə kaldьramajacak kədər açьk və davasьz isə də, təəssuf qi, XI əsrə kədər вy şivələrin lisani xusyijjətlərini konkret syrətdə вizə вildirəcəq numynələr jokdyr.

3

Miladi XI əsrdə محمود بن الحسين بن محمد الكاشغرى tərəfindən jazьlmьş „ديوان لغات الترك — Divani-lugatut-turq“ adьndaqь əsər, nihajət вy devrdə mevcyd olan turq-tatar şivə və ləhcələri hakkьnda вizə qafi dərəcədə mə'lymat verir. Mahmydi-Qaşgari—محمود كاشغرى ziqr olynan əsərində XI miladi əsrdə mevcyd olan turq-tatar kəвilələrinin şivələrini вeş вөjuq grypda toplajьr:

a) اويغور

в) بەسمەل، تاتار، يەباقو، قاى

c) جوروق، ايغراق، جيگيل، ياغما، توخسى، اوغوز، قيپچاق، قيرغيز

ç) باشقورت، ياماك

d) بەجەنەك، سوار، بولغار

Məzqyr muəllif, jalьnьz вelə kyry təsniflə kənaətlənməjərəq, ejni zamanda вy gryplarьn вə'z dil xusysijjətlərini də kejd etmişdir qi, azəri ləhcəsinin mənşə' və mevkeini tə'jin etməq uçun Mahmydi-Qaşgarinin verdiji вy mə'lymatla tanьş olmak şərtdir.

4

Səjlədiqimiz xusysijjətlərdən jalьnьz, dogrydan-dogryja, məvzyymyza ajid olanlarьnь ziqr edəlim:

a) Turqcə [1]) də вaşьnda „j“ səsi olan səzləri kьpçak və ogyz xalkь ja „c“ səsinə çevirir və ja вy „j“ səsini tamamilə вyrakьr:

Turqcə	**Ogyz və kьpçakca**
Jelqin	**C**elqin, elqin (musafir, konak)
Jьlьg	**C**ьlьg, ьlьg (isti, sьcak)
Jincy	**C**incy, incy (Inci)

By xusysijjətin, dunənqi və вy qunqu turq-tatar ləhcələrinin tədkiki nөktəji-nəzərindən, oldykca вөjuq əhəmijjəti vardьr. „Mahmydi-Qaşgari“, ziqr olynan əsərində вyny açьkca qөstərməjirsə də, вaşka jerlərdə, qөstərdiqi xusysijjətlərə вakьlacak olyrsa, ogyz ləhcəsilə kьpçak ləhcəsi—əsas e'tiвarilə—вy devrdə вir vəzijjətdə вylynyr; jə'ni вaşka turq-tatar şivələrinə karşь ejni xusysijjətlərə maliq qөrunur.

By sevti və lisani xusysijjətdə azəri ləhcəsinin ən muhum və karakteristiq çizqilə rindən вirisini tapmьş olyryz. Dogrydan da вy qun səz вaşь „c“ səsinə kazak (вy ləhcədə daha dogrysy „Z“ səsini tapьrьk),nogaj, karaçaj, Kazan-tatar... qiвi Şimal grypyna mənsyв şivələrə də rast qəldijimiz qiвi „j“ səsini də kara kьrgьz, kymyk, osmanlь... qiвi şi-

1) Umymijjətlə turq-tatar muəllif və şairləri өz dillərini „turqcə“, „turqi“ adlandьrdьklarь halda вaşka turq-tatar kəвilələrini,„ kьpçak“ „ogyz“, „tatar“, „kanglь“... qiвi өz xusysi adlarь ilə jad etməqdədirlər. Məsələn: Orxon qitaвələrində tyqjylar өzlərinə „turq“ dejirlər. „Kytadgy-Biliq“ sahьвь Jysif Haciв əsərini „Turq lygatь“ndə jazdьgьnь вəjan etdiqi qiвi, Əli-Şir Nəvaji „Muhaqəmətullugətejn-محاكمة اللغتين“ adlь əsərində „sart“ və ja „fars“ dili ilə „çьgatajca“nь dejil, вəlqə „turq tili“ və ja „turqi til“i mukajəsə edir. Ejni syrətlə „Mahmydi-Qaşgari-محمود كاشغرى“ də Xakanijjə və ja Qaşgar şivəsini вyrada „turqcə“ adlandьrarak, вaşka turq-tatar şivələri ilə mukajəsə edir.

və və ləhcələrdə qəruruz. Qiçiq вir cədvəldə вy cihəti daha açьk-ajdьn вir syrətdə qəstərməq mumqundur:

Kazak-kьrgьz.	Karaçaj.	Osmanlь.	Azəri.
Żьldьz	Cьldьz	Jьldьz	Yldyz
Żьl	Cьl	Jьl	Il
Żiqit	Ciqit	Jijit	Ijit
Żьlan	Cьlan	Jьlan	Ilan
. . .	. . .	Juz	Uz (sima, çehrə)
. . .	. .	Jyca	Yca
Żureq	Cureq	Jureq	Urəq
Żyt	Cyt	Jyt	Yd
Żuzuq	Cuzuq	Juzuq	Uzuq

By syrətlə azəri ləhcəsi, Mahmydi-Qaşgarinin XI əsr kьpçak və ogyz ləhcələrində tapdьgь xusysijjəti, jə'ni, Qaşgar və ja şərki turq ləhcələrindəqi „**j**" səsinin ogyz və kьpçakcada duşməsini, zamanamьza kədər saklamьşdьr.

By qunqu osmanlь və ja Anadoly turq ləhcəsində, jykarьdaqь cədvəldə qərdujumuz qiвi „**j**" səsi,XI əsrdəqi Qaşgar ləhcəsində oldygy qiвi, вaki kalmьş və Şimal şivə grypyna mənsyв вir çok şivələrdə „**C**"səsinə çevrilmişdir[1]).

в) Jykarьda вəhs etdijimiz muəllifin əz əsrində mevcyd şivələr arasьnda вyldygy ajьrьcь xusysijjətlər-

1) Azəri ədəвijjatьnda məhəlli ləhcəjə jakьn dil ilə jazan ədiв və muhərrirlərdə вy xusysijjətin əqs etdirildijini qəruruz; məsələn Mirzə Fətəli Axyndof da:

„Baвa dərviş, вir cuz'i junqul işdən ətru sana zəhmət vermişəm. Mətləв вydyr qi, вizim Şahвaz lap jolyndan azьв; вir firənqi konagьmьz var, xьjalьndadьr qi, ona koşylyв Paris şəhrinə qetsin. Mənim вy otyran qul **uzlu** yşagьmь qi, onyn adaxlьsьdьr, **ijirmi** qundən sonra tojy вaşlanacak, aglar, sьzlar kojsyn..."

(„Nəвatat həqimi musjə Żordan ilə cadyqun dərviş Məstəli-şahьn heqajəsi").

və ja:

„ . . . Murrix **yldyzyna** həqm edərəm qi, Musjə-Żordanьn вojnyny vyrsyn qi, Şahвazвəji aparan olmasьn („Məstəli-şah").

Yca dag вaşьnda mədənijjət mərqəzlərindən və dəmir jolyndan yzax, laçьn jyvasьna вənzər xьrdaca вir şəhər duşuвdur".

(Hakverdov „Marallarьm").

dən вirisi də „turqçə" də (jə'ni Qaşgar ləhcəsində) вylynan səz ortasь „**g**" səsinin ogyz və kьpçak ləhcələrində duşməsidir; məsələn:

Turqcə	**Ogyz yə kьpçakca**	
Tam**g**ak	Tamak	„damak"
Cym**g**yk	Cymyk	[illegible]
Bar**g**an	Baran	„varan"
Yr**g**an	Yran	„vyran".

Azəri ləhcəsinin mevke və mənşəini tə'jin etməq uçun вy lisani hadisəni də nəzəri-e'tiвara almak lazьmdyr. Dogrydan da вy qundə turqmən, Anadoly və azəri ləhcələrini qəz ənunə qətirəcəq olyrsak, вynlarьn əzqə ləhcələrdən, məsələn: Volga вojy, Şimali Kafkas, Orta asja və Siвir ləhcəsindən ejni xusysijjətlə ajrьldьklarьnь qəruruz. Necə qi, professor Samojloviç turq-tatar ləhcələrinin təsnifinə ajid mə'lym risalə-sində[1]) вy xusysijjəti вy qun də turq ləhcələri arasьnda ajrьcь əlamətlərdən sajarak, turq-tatar ləhcələrini „kalan - kalgan" gryp adilə iqi вəjuq parçaja ajьrmьşdyr.

c) XI miladi əsr, turq-tatar şivələri ilə azəri ləhcəsinin munasəвətini tə'jin etməq işində, jenə Mahmydi Qaşgarinin qəstərdiqi xusysijjətlərdən вirisini daha xatьrlamalьjьzqi, вy da „turqcə" səzlərdə вylynan „**t**" sə-

Bydyr, neçə **ildir** ha çalьşьram, heç olmasa qedim, qendən də olsa, o qef çəqdiqim mehmanxanalara tamaşa elijim.

„Marallarьm".

Artьrmьş idim məzrəəni, **ьlxьnь**, atь
Rencвər eləmişdim əzumə çəllunu tatь
(Saвir. „Hop-hopnamə").

və ja:

Nə rəva вaxam fəkirə, **urəjim** вylanə, ja rəв!

(„Hop-hopnamə").

Bynynla вaraвar azəri şivəsində: „*jymyry*" qiвi вir çok səzlər tapьrьk qi, вyrada „j" səsi, indijə kədər qəstərdiqimiz misallarda oldygy qiвi duşməmişdir. Diqər tərəfdən azəri ədəвi əsərlərində вy qəstərdiqimiz səzlərdən вir çoky, hətta Hakverdov, Saвir... qiвi jerli şijvəjə jakьn вir dil ilə jazan muhərrirlər вelə „j" işlətməqdədir. Məsələn: „***juzuq, jurəq, jьl***" və sajirə....

1) А. Самойлович, „Некоторые дополнения к классификации турецких яазыков", Петрогад, 1922.

sinə karşılık ogyzcada „**d**“ səsin вylynmasьdyr. Məsələn:

Turqcə	**Ogyzca**	
Tevej	**D**evej	dəvə
O**t**	O**d**	atəş

Təвii, Mahmydi-Qaşgari вyrada вəjuq və qeniş вir lisani hadisənin ancak вir ycyny qərmuş və qəstərə вilmişdir. Həkikət halda вyqun də Anadoly, turqmən, azəri ləhcələrini вaşka Şimal və Şərk ləhcələrindən sevtijjat e'tiвarilə ajьran muhum xusysijjətlərdən вirisi də вydyr.

Umymijjətlə Şimal şivələrində sözlərin xusysən вaşьnda və вə'zən sonynda və ortasьnda вylynan **sağır samitə** (глухие согласные)-lərə karşılık turqmən, Anadoly və azəri şivələrində **sədalь samitə** (звонкие согласные)-lər tarьğьz. Məsələn:

t—d:

Şimal (Kazak, Kazan, karaçaj)	**Cənyb (turqmən, Anadoly. azəri)**
Tav	**D**ag
Taş	**D**aş
Tar	**D**ar
Tup	**D**ip
Teren, tiren	**D**ərən, dərin
Teq. ti	**D**əq, dəj

q q̧:

Qel, qil	**Q̧**əl, q̧il
Qet, qit	**Q̧**et, q̧it
Qəz, quz	**Q̧**əz, q̧uz
Quzel	**Q̧**əzəl, q̧uzəl

Bə'z sözlərdə cənyв şivələrində „**Z**“ səsini tapdьğьmьz halda, Şimal şivələrində "**S**„ qəruruz. By da xusysən feillərin hal sigəsi mənfi şəqillərində qəzə çarpьr:

Bolma**s**	Olma**z**
Qitme**s**	Q̧etmə**z**, q̧itmə**z**
Barma**s**	Varma**z**

Ejni syrətlə feil cəzrlərinin axьrlarьnda вylynan sağьr samitələrdən „**t**“ səsi saitələr arasьna duşduqu zaman Şimal şivələrində dəjişdiqi haida Cənyв şivələrində „**d**“ səsinə çevrilir:

Qi**t**, qi**t**er	Q̧e**d**ər (q̧it, q̧idər)
E**t**, e**t**er	E**d**, e**d**er (edər)
Kaj**t**, kaj**t**ar	Kajь**d**. kajь**d**ar [1]).

ç) Azərвajcan ləhcəsində əsqi turq-tatar şivələrində tapdьğьmьz вaşka вir xusysijjətin daha jaşadьğьnь qəruruz. Q̧ərəq „Divani-lugatut-turq-ديوان الغات الترك“ sahьвь Mahmydi-Kaşgari, qərəqsə, „كتاب حلية الانسان و السيد جمال الدين بن المهنا“ XI və XIII əsr turq-tatar şivələrində iqi cur ismi-fail sigəsi oldygyny kejd edirlər. Mahmydi-Qaşgaridə: ترغان=вargan və برغان=вaragan, ارغان=yrgan və =ارغان=yragan [2]).

By iqinci şəqlin mə'nasьnь Mahmydi - Qaşgari „ذهاب=şiddətlə qedici“, „ضراب=şiddətlə vyrycy“ tərzində tərcumə etməqdədir. Hal вy qi, вirinci, jə'ni „yrgan“ və „вargan“ şəqillərinin mən'nasь „ضارب=vyrycy“, „ذاهب=q̧edici“ olyr.

Ejni syrətlə „ابن المهنا“ jykarьda ziqr olynan əsərində вy şəqli kejd edir: الغان=algan, الاغان=alagan, كولكان=q̧ulq̧ən, كولاكان=q̧uləq̧ən, بركان=вirq̧ən[3]). Iqinci şə-

---

1) Ixtar. Bir neçə xususijjətlərdə oldygy qiвi, вyrada da azəri və turqmən ləhcələri, Anadoly ləhcəsindən ajrьlьr. Çunqu azəri və turqməndə вiz daha zijadə Şimal ləhcələrinin tə'sirlərini tapьrьz; вynlardan, iləridə daha mufəssəl syrətdə вəhs ediləcəqdir. Byrada Cənyв ləhcələrində sədalь samitələr вylynmasь lazьm qələn jerlərdə, azəri ləhcəsində sağьr samitələr tapьldьğьna işarət etməqlə iqtifa edəlim:

Anadoly	**Azəri**
Dəq	**T**əq
Boz	**P**oz
Diq	**T**iq və ilək.

2) „Divani-lugatut-turq“, cild I. səhifə 35.

3) "كتاب حلية الانسان و حلية اللسان„ səhifə 88.

qillərin mə'nasьnь ejnən Mahmydi - Qaşgari qiвi verir; jə'ni: „الاشد اخذاً=kuvvətli syrətdə olan“, „الاضحك=şiddətlə qulən“.... və iləx.

By qunqu turq-tatar şivələrinin ana çizqiləri ilə jerləşmə devri adlandьra вilməjəcəqimiz XI və XIII əsrlərə ajid вy kejdlərin çok вəjuq əhəmijjəti vardьr. By xusysijjət вir çok şivələrdə artьk вylynmadьgь qiвi, вə'zlərində çok zəif olarak kalmьşdьr [1]).

Azəri canlь dilində вy xusysijjəti hələ kuvvətli вir halda tapьrьz; вy ləhcədə; „вilən“, „jazan“, „kaçan“ jerinə: „вiləqən“, „jazagan“, „kaçagan“ qiвi sözlər tapьrьz. By xysysijjət, janьlmajьrsak, Azərвajcan ləhcəsi hakkьnda jazьlan sərf və nəhv əsərlərindən ancak Syitan Məcid Gəni-zadənin „تورکجه گرامر نحو اصطلاح آذربایجان“ ьnda və Azərnəşrin „تورکجه صرف ـ نحو“ində kejd olynmyşdyr [2]). Bynyn səbəвi вy şəqilin ədəвi dildə, ədəвi dililə jazьlmьş əsərlərdə işlədilməməsi olsa qərəqdir.

Byraja kədər verdiqimiz mə'lymat azəri şivəsinin XI əsrdə artьk ajrь вir ləhcə olarak karşьmьza çьkan „ogyz-kьpçak“ ləhcəsindən əmələ qəldiqini çok qəzəl qəstərir.

Okycymyza вy xusysda, daha konkret və açьk вir fiqir verə вilməq uçun 1 və 2-ci paragraflarda вəhs etdijmiz tarixi aвidələrdən вir-iqi sətirliq numynələr alalьm:

a) Orxon qitaвələrindən:

„Өze qəq tenri asra jagьz jer kьlьndykda eqin ara qişi oglь kьlьnmьş. Qişi oglьnda eze eçum apam, Bymьn kagan Istemi kagan olyrmьş. Olyrьpan turq вydynьn elin terusin tyta вermiş, eti вermiş“.

Mə'nasь;

„Jykarьda (ustdə) mai səma; aşagьda (astda) вoz jer jaradьldьkda (kьlьndьkda) iqisi arasьnda (jer ilə qoj arasьnda) qişi ogly jaradьlmьş. Qişi ogłynyn ustundə (də) mənim cəddim (eçum apam) Bymin xakan, Istəmi xakan otyrmyş. Otyrarak (otyryвan) turq xalkьnьn elini və kanyny (təru) dytmyş, saklamьş və tərtiвə salmьş (etmiş)“.

1) Məsələn: osmanlь-Anadoly ləhcəsində „olagan“ qiвi çok az sözlərdə вyldygymyz qiвi, kymyk şivəsində daha canlь syrətdə вy şəqlə rast qəliriz.

2) Султан-Меджид Ганиев: „Грамматика тюркского языка и т. д; издание 6-ое, стр. 7.

Oqəqəq mətnin və qərəqsə tərcumənin tədkikindən anlaşьlacakdьr qi, вy paraçada azəri şivəsində olmajan sözlər „eçum-apam“, „вydyn“, „jagьz“ qiвi вir iqi dənədir.

в) „Kytadgy-Biliq“ dən:

„چین و ماچین عالملری قاموقی اتفاق بولدیلار کیم مشرق ولایتی‌دا، قاموق تورکستان ایلیده، بوقراخان تیلیده، تورك لغاتیدا بو کتابدین یاخشیراق هرکز کیم ارسا تصنیف قیلمای تورور. بو کتاب قایوما پادشاهقا قایوما اقلیم‌قا ته‌گدی ارسا غایت ادکوسیندین اول حکماتکما بیری بیر تورلوك لقب ات اوردیلر. چین‌لیکلر ادب‌الملوك اتادیلر، ماچین‌لیغ امین‌المملکة تیدیلر، مشرق‌لیغ‌لر زینة‌الامرا ات اوردیلار. ارانلیغ‌لار شاهنامه، تورانلق قوتادغو بیلیك تیب ایمیش‌لار“.

Mə'nasь:

„Çin və Maçin alimləri, hamьsь (قاموقی) ittifak oldylar qim Məşrik vilajətində, вutun (قاموق) Turqustan elində, Bygraxan dilində, turq lugatьnda вy qitaвdan jaxşьrak hər qim olyrsa-olsyn, təsnif edəməz. By qitaв hansь (قایوما) padşaha, hansь iklimə dəjdi isə, gajət muвarəq olmasьndan (ادکوسیندین) o huqəmanьn hər вiri (تکما بیری) вir dulu (تورلوك) ləkəв vyrdylar. Çinlilər ədəвulmulyq adlandьrdьlar, maçinlilər əminulməmləqət dedilər, məşriklilər zinətul'uməra ad vyrdylar. Iranlьlar şahnamə, tyranlьlar Kytadgy-Biliq demişlər (تیپ آیمیشلار)“.

Əqər sьkь dil təhlilinə qirişəcəq olyrsak,qəruruz qi, Orxon qitaвələrinin dili daha əsqi olmakla вaraвar azəri ləhcəsinə, „Kytadgy-Biliqin“ dilindən daha çok jakьndьr. Bynyn səbəвi Orxon qitaвələri, azəri və yjgyr ləhcələrini вirləşdirən umymi вir lisan numynəsi oldygy halda „Kytadgy-Biliqin“ daha çok Şimal ləhcələri xusysijjətini daşьmasьdьr.

6

Muxtəsər olmakla вараваr, oldykca kət'i syrətdər azəri ləhcəsinin XI və XIII əsrlərdə mevcyd turq - tata, ləhcələrindən hansьlarь ilə daha çok əlakədar oldygyny tə'jin etdiqdən sonra azəri ləhcəsinin вaşlьca jazьlь авidələrinə qəz qəzdirməq lazьm qəlir. Təəssufqi qiвi "برحسن اسفراینی"، "حیبی"، "فضولی"، "عمادالدین نسیمی" вirinci azəri şairlərinin əsərlərində вy ləhcənin xusysijjətləri hakkьnda tam və kət'i вir fiqir almak mumqun dejildir.

Bynyn səвəвi kismən, professor Qəprulu-zadənin dediqi qiвi, вirinci azəri şairlərinin əsərləri osmanlь və azəri şivələrinin sərhəddində jetişməsi, вy şairlərin həm azəri, həm osmanlь sahəsində məhəlli şairlərdən sajьlmasь olsa вelə [1]), вizcə əsil muhum səвəвi вy şairlərə ajid olan divanlarьn və вaşka ədəвi parçalarьn, kopja edənlər, taвi və naşirlər tərəfindən kəsdi, və ja gejri kəsdi dəjişdirilməsidir.

Byndan вaşka вy şairlərin tamamilə azəri ləhcəsinə jazdьklarьnь fərz etməq uçun də əlimizdə qafi dərəcədə vəsikələr jokdyr. By cihəti də ziqr etdiqimiz şairlərin вə'z parçalarьndan misallar almakla ajdьnlatmaga çalьşalьm:

a) Fizyli:

زمانه ایچره مجربدر انتقام زمان،
همیشه یخشی‌یه یخشی ویریر یمانه یمان.

—

اگرچه غصه دوتر روز و شب گریبانم،
المدن ایلمن امید دامننی رها.

—

کچمسون هیچ کیمسه‌نیك یارب فضولی‌تك گونی،
هپ کیچیر غمله فنا دنیاده ایامم بنم.

—

1) „Azəri ədəвijjatьna ajid tədkiklər", Qəprulu-zadə Məhəmməd Fyad, səhifə 7. Ejni syrətlə azəri ləhcəsinin (təşəqqulundə), Qəprulu-zadənin, daha zijadə sijasi, və idari səвəвləri qəstərməsi (mustəkil xanlьklar, şiəliq Ag kojynly, Kara kojynly və Səfəvi xanədanь..) ilə təвii razь olmak qucdur (səhifə 6).

سکا قالدی مروت سندن اوزگه هیچ کیمسه‌م یوق،
گوزم جانم افندم سودیکم دولتلو سلطانم.

—

تا قربه توجه ایتدیگم چاغ،
آلتم آچیق اوله و یوزم آغ.

—

Butun вy вejtlərdə, azəri şivəsi hesaвьna çьkara вiləcəqimiz unsurlər: *„jaxşь"*, *„ejləmən"*, *„Fuzyli təq"* *„əzqə"*, *„ag"*.. qiвi sözlərdir. Bynlarь da ancak ehtijatla almalьdьr. Çunqu вutun вy şəqil və sözləri Şərki və Gərвi Anadoly turqlərində də tapmak mumqundur.

в) Nəвivi:

سندن اوزگه یاریم اولسا ای پریوش سیمتن،
گوروم اولسون اول قبا اگنیمده پیراهن کفن،
چیقمایا سودای زلفك باشدان ای مه‌گر یوز ایل،
استخوان کلهم ایچره دوتسا عقربلر وطن.
ای کوکل عشق اهلینه هردم کوله‌ردك شمع‌تك،
بن دیمزمیدم که بر گون آغلیه‌سیدر گولن.

By parçada, jykarьda Fuzylinin вejtlərində qərduqumuz xusysi unsurlərdən вaşka *„qərum"*, *„il"*, *„aglajasьdьr"*... qiвi sözlər və şəqillərə rast qəliriz.

7

Bynlardan sonra qələn Azərвajcan şair və muhərrirlərində artьk azəri şivəsi xusysijjətlərinin oldykca açьk вir syrətdə qərulduqunu səjləməq mumqundur: Molla Pənah „Vakif", „Kasьm-вəj Zaqir", „Mirzə Fətəli Axyndov" qiвi şair və ədiвlərin dilini artьk hər cihətdən „azəricə" saja вiliriz.

Azəri şivəsinin, вy ədəвi əsərlərdə əqs edən xusysijjətləri ilə tanьş olmak uçun ziqr etdiqimiz muhərrir və şairlərdən вə'zi numynələr alalьm:

a) Molla Pənah Vakif:

Ej vidadi, qərdişi- devrani-qəc rəftarə вax,
Ryziqarə kьi tamaşa, qarə вax, qirdarə вax!
Suвh səndu, şəв qi, xalka kiвlə idi вir çьrag,
Qecəqi ikвalь qər, qunduzdəqi idвarə вax!

1737

Və ja:

Kajnar qəzlərindən, şyx вахьşьndan
Əcajiв fitnələr, feillər qərunur;
Səf-səf dyran sijəh **qipriqlərindir,**
Joxsa qi, qəzumə millər qərunur.

Çьka sarajьndan canlar alan **təq,**
Xəşmə qələ qəh-qəh kəhri olan təq,
Dal qərdəndə kьvrьm saçь **ilan** təq
Tərpənəndə hər jan вylanmak qərəq.

(Qəçərii. „Azərвajcan ədəвijjatь tarixi matərjallarь". Cild 1, hissə 1, səhifə 120).

в) Mirzə Fətəli Axyndof:

Zuвejdə: —A вalam, xalkьn hiləsindən nə вaş açmak olyr. Hacь-Rəhim arvadьnьn Hacь-Rəhimin devlətində nə hakkь var idi qi, on iqi min tumən pyl, вir hamam onyn ogly Aga-Rizadan alьв, o arvada verdilər. Vəqili hilə iiə вir hibənamə durust ediв qəstərdi qi, Hacь-Rəhim saglьgьnda arvadьna on iqi min tumən вir hamam hibə ediвdir. Beş-altь nəfər də вy xusysda şəhadət elədi. Biçarə Aga-Rizadan çьgьrda.çьgьrda o kədər pyly aldьlar o arvada verdilər; amma tamam Təвrizə mə'lym oldy qi, вy iş məhz hiləlir. Sən məqər Aga-Rizadan zorlysan qi, fərjadь heç вir jerə çatmadь. Təвrizin şejtan fiqir vəqillərinin hiləsindən heç вaş çьxmak olyrmy?

(„Murafəə vəqillərinin heqajəti şəhri -Təвrizdə"' səhifə 223).

c) Ə. Hakverdof:

„Rysjanьn Şimal jerlərinin pajьz ajlarьnь hər qəs вir dəfə qərmuş olsa, вelə quman edirəm iqinci dəfə məcвyr olmasa, pajьz fəslində o jerlərə qetməz. Başьna qələn вaşmakçь olar; Rysja pajьzьndan nə çəqmişəm, ony mən вilirəm. Odyr qi, əqər sentjaвr ajьnda, ja oktjaвrda mənim papagьmь вaşьmdan alьв Şimali Rysjaja atalar dalьnca qetmərəm, вəlqə karadavoj kaвagьna katьв apararlar. Bə'zi vakt jagьş вaşlajanda вir həftə muttəsil jagьr, ta вir qəz açьв iş qərməjə macal vermir; вir də qərursən qəzəl qun çьkьв, qəjun uzundə вir damcь вylyt jok, tez sevinmiş dyryв havaja çьkьrsan; вir saatdan sonra, вilmirsən, jagьş adamьn вaşьna haradan təqulur. Paltosyz, kaloşsyz, вslanmьş, kajьdьrsan evə. Əqər zatulcənвdə dytmasьn, jəkin вir zəqəm dytacaksan; ja-inqi jagьş jagan vakt çok vaciв işin olyr, laвudd kalьв, dyryв paltodan, kaloşdan qejiв çьkьrsan quçəjə; вir də qərursən, jarьm saatdan sonra jagьş qəsdi, вylyt dagьldь, вir isti qun çьkdь, palfonyn, kaloşyn hər вiri вeş pyt olyr, qərəq вir hamвal tapьв, verəsən janьnca qətursun..."

(„Marallarьm", səhifə 49).

8

Azərвajcan ədəвijjatьnda hali-hazьrda вaşlьca uç dil cərəjanь qəruruz:

1) „Molla-Nəsrəddin" məcmyəsi ətrafьnda toplanmьş olan kələm əhllərinin, muhərrir və şairlərinin dili-

dir; вy məcmyə məzahi mahijjətdə olyв, dili də daha çok təsviri oldygyndan, вy cur jazьçьlarьn dilini, heç вir cihətlə вir sistem altьna almak, və вə'zilərinin arzьsьna rəgmən, Azərвajcanьn ədəвi dili olarak, tanьmak mumqun dejildir.

2) Husejn Cavid qiвi вə'z muhərrir və ədiвlərin işlətdiqi dildir qi, daha artьk Istanвyl ədəвi şivəsinə вaglьdьr. Dil e'tiвarilə Azərвajcan ləhcəsinin xusysijjətlərini çok az əqs etdirən və diqər tərəfdən Azərвajcanьn вir neçə juz illiq klasiq ədəвijjatьnьn dili ilə çok zəif вir syrətdə вaglь olan вy iqinci gryp muhərrirlərin dilinin də Azərвajcan ədəвijjatьnьn umymi inqişafьnda əz rolyny ojnajacagьna şuвhə olmamakla вarabar, nihajət Azərвajcanda jeqanə ədəвi dil olarak erləşə вiləcəqini zənn etməq mumqun dejildir.

3) Nihajət, uçuncu gryp jykarьda вə'zlərini ziqr etdiqimiz muhərrirlərdir qi, вynlar, tə'вir cajizsə, orta grypy təşqil etməqdə və вynlarьn əsərləri, dil e'tiвarilə вir tərəfdən canlь, danьşьk dili ilə, o вiri tərəfdən klasiq və ciddi ədəвi dil ilə вaglanmakdadьr. Bу iqi ustunluqə qərə, istikвal, вy dil cərəjanьnьn, olmasь mumqundur.

Bynyn uçun вiz, azəri dilinin, qərəq вy şə'bəmizdə, qərəq əsərmizin ilərigi bəhslərində, karakteristiqini verirqən, вy cur muhərrirlərin əsərlərinə və orada tapa вildiqimiz xusysijjətlərə dajanacagьz. Əsərimizin qeniş muəllim qutləsi uçun hazьrlanmasь вizi ancak вy jol ilə qetməjə icвar edir. Bynynla вarabar lazьm qələn jerlərdə, canlь şivələrin xusysijjətlərini təhlil edəcəjiz.

II. Azəri ləhcəsinin xusysijjətləri.

1

Nə Radlov [1]), nə Qazьmвəj [2]), nə Karl Foj [3]), nə də вaşka lisanijjat nəkteji-nəzərindən azəri ləhcəsini tədkik edən alimlər, indijə kədər, вy ləhcənin tam karakteristiqini verəməmişlərdir. Çunqu вelə вir iş uçun əlimizdə qafi dərəcədə materjal jokdyr.

Bynyn uçun вiz də jalьnьz, ziqr etdiqimiz əsərlərdə rast qələn, вə'z xusysijjətləri kejd etməqdən otəjə qedəməjəcəqiz. Diqər tərəfdən, вutun qəzə çarpan xusysijjətlər, əsərimizin ajrь şə'вələrində də kejd ediləcəqdir.

2

Sevtijjat nəkteji-nəzərindən вakacak olyrsak, sajitələrdə jykarьda kejd etdiqimiz səвəвlərə qərə, jalьnьz əsas olarak, Anadoly ləhcəsinin umymi xusysijjətləri vardьr [4]) deməqlə qifajət edəcəqiz. By da, ərəв və xusysən fars dilindən japьlan iktiвaslarьn çoklygyna rəgmən, „sajitələr yjyşmasь — ***Vocalharmonie***“ kanynynyn вy ləhcədə oldykca kuvvətli və umymi olmasьdьr. Hətta Azərвajcanьn вə'z jerlərində „dodak sajitələri yjyşmasь — ***Labialha rmonie***“ na rast qəliriz. By qiвi jerlərdən, məsələn: Baqьda, Şirvanda damag sajitələrinin ***labijalize*** oldygyny, jə'ni dodak sajitələrinə qeçdiqini qəruruz:

Alsək, versək, qetsək, qelsək.

1) Dr. W Radloff: „Phonetik der nordlichen Turksprachen“, Leipzig, I Heft, s. 12, II Heft, s. 118-19.
2) A. Казембек. Общая грамматика турецко-татарского языка, 2-ое изд. Казань 1848 г.
3) Karl Foy: „Azərвadjanische Studien“, etc. und II.
4) By xusysda əsərmizin sajitələr вəhsinə вakьnьz.

3

Samitələrə qələcəq olyrsak, həmən вutun jykarьda sajdьgьmьz azəri ədiвlərində qərdujumuz вə'zi xusysijjətləri вyrada ziqr etməlijiz:

a) Başka şivələrdə, xusysən Istanвyl ədəвi şivəsində, səzlərin вaşьnda, orta və sonynda вylynan **k** səsi, azəri şivəsində **x** və **g** səslərinə cevrilir; məsələn:

1. *Xaçmaz, axşam, axmax, çox, вax, çьx, ax, (ak)...*

2) *Yşax (g), jymyx (g), ajax (g), kylax (g), atmax (g)...*

4.

Bə'z səzlərdə samitələrin təşdid olyndygyny qəruruz; məsələn:

Jedi=jeddi, dokyz=dokkyz, səqiz=səqqiz, „sakal==sakkal“....

5

Azəri şijvəsinin, xusysən danьşьk dilinin muhum xusysijjətlərindən вirisi də iqinci həcada вylynan **r** və **s** səslərinin вirinci həcaja, və вirinci həcada вylynanьn iqinci həcaja qeçməsidir:

1. *Iləri=irəli, əjrən=ərqən, qəpru=qərpu, Toprak=torpax, təprən=tərpən...*

2. *Tytsak=dystak, jatsь=jastь, tutsu=tustu, əqsiq=əsqiq...*

3. *Bil'əqis: Qirpiq=qipriq (Baqьda)...*

6

Bə'z „təmsil—***assimilation***“ və „təhlil—***dissimilation***“ hadisələri də azəri ləhcəsində muəjjən вir xusysijjət tərədir:

Aldat=allat, işlə=işlə, daşlь=daştь...

Və:

Issi—isti, jassь—jastь.... [1])

1) Hər nə kədər professor Deni ***isti*** şəqlini daha əsqi zənn edirsə də вy dogry dejildir, necə qi, ***„bsьk—qəl“*** tə'вirində və əsqi aвidələrdə вynyn isвatьnь tapьrьz.

Ejni syrətlə:

Alaram jerinə *allam, qələrəm* jerinə *qəllam, salaram* jerinə *svllam....* qiвi şəqillərdə də təmsil hadisəsini qərməq olar.

7.

Jenə səvti xusysijjətlərdən olarak ***qibi*** sɘzunun ***qimi, inci*** və ja sadəcə ***ci*** şəqilçisinin (suffiks –***suffixe***) ***mci*** və ja ***minci*** şəqlində işlənilməsini kejd edə вilәriz

Birinci—вiriminci (əvvəlimci—əvvəliminci), iqinci, iqiminci və ilәx...

Kejd: Şəqilçinin əsli samitə ilə (n' m) вaşladьgь halda, samtə ilə вitən вir damar ilavə olyndyklarь zaman, вy şəqilçilərin вaşьna səsin yjyşmasьna qərə saitə artьrьlьr.

Jeri qəlmişqən, umymijjətlə saitələrdən sonra ***ci*** şəqlində olan fail şəqilçisinin azəri ləhcəsində ***çi*** şəqlində oldygyny da qəstərəlim; məsələn: *jazьcь-jazьçь, arabaçь, olverçi.*

Kejd: Butu şəqilçilər qiвi вynlar da səslər yjyşmasь kanynyna tabe'dir: *inci, uncu, ynçy, unub...* qiвi

8

Azəri ləhcəsini xusysiləşdirən çizqilərdən вirisi də feillərdə hal sigəsi mənfi şəqlində вaşka şivələrdə olan **z** və ja **s** səsi jerinə, azəri şivəsində **r** və ja вə'zi jerlərdə **n** səsinin вylynmasьdьr; məsələn:

„*Kojmaram=kojmanam*“, „*qetmərəm=qetmənəm*“ və ilәx.

9

Bir çok ɵzqə şivələrdə mə'lym oldygy uzrə вy səs вutun-вutunə duşər: *qitməm; kojmam...* qiвi.

Bir neçə sɵz də azəri ləhcəsinin əsqidən kalma izləri, tə'вiri-maxsysy ilə „*aarxaizm*—**archaisme**“ləri hakkьnda səjləməlijiz. Azəri ləhcəsi, вy cihətdən, indijə kədər qərəqi qiвi tədkik edilmiş olmamakla вarabar, əlimizdə olan lisani materjala istinad edərəq, jenə də вə'z nɵktələri kejd edə вilәriz.

Hər şejdən əvvəl, вy ləhcədə nəzəri-dikkəti cəlв edən şej əsas e'tiвarilə, cənyв şivəsinə qirdiqi halda Şimal

gryppyna mənsyв şivələrin вə'z xusysijjətlərini havi olmasьdьr:

a) Belə xusysijjətlərdən вirincisi şuвhəsiz, azəri ləhcəsinin Anadolyja karşь, ***ben*** jerinə ***mən, bin*** jerinə ***min, byna*** jerinə вə'zən ***myna, binməq*** jerinə ***minməq*** və sajirə işlətməsidir.

Cənyв şivələrində rast qəldiqimiz **b** səsi jerinə вyrada qəstərdiqimiz qiвi sɵzlərdə **m** вylynmasьnь nə ilə izah etməli?

Artьk XI əsrdə ogyz və kьpçak ləhcəsində, Qaşgar ləhcəsinə karşьlьk **b** вylyndygyny вiliriz. Qaşgar ləhcəsində ***men, myn*** oldygy halda ogyz və kьpçakda ***ben, byn*** idi [1]).

Byrada вy məsələ ilə вaglь olarak вaşka вir syal karşьmьza çьkьr: əcəвa **ben**mi daha əsqi. **mən** şəqilimi?

Feillərdə və вaşka sɵzlərin axьrьnda mutəqəllim zəmirlərinin şəqlini alacak olyrsak, вyrada daima **m** вylyryz.

Qəldim, alьram, joldaşьm, atam qiвi.

Sonra orxon qitaвələrində və „Timyr Kytlyg“yn **jarlьgь** qiвi; daha sonraqь zamalara ajid tarixi əsərlərdə: *didimiz=dediq, aldьmьz=aldьk* qiвi şəqillərə rast qəliriz [2]). Byndan вaşka turq-tatar ləhcələrinin вəjuq əqsərijjətində „**men**“ və ja „**min**“ şəqlini tapьrьz. Bynynla вarabar вynlara istinad edərəd, „**mən**“ şəqlini daha əsqi sajmak mumqun olamaz. Çunqu **bir qərrə** „**b—m**“ və „**m—b**“ intikalь вir kajdaja alьnmajacak şəqildə вylynyr. Məsələn: jan-jana jaşajan Altaj və Siвir turq-tatar kəвilələrinin вirisində „**b**“ ilə səjlənən sɵz, və ja şəqilçi, diqərində „**m**“ ilə tələffuz olynyr [3]).

Iqinci: umymijjətlə sevti və şəqli cihətdən daha əsqi xusysijjətləri əqs etdirdiqi şuвhəsiz olan „çyvaş“

---

1) „Divani-lugatut-turq. ديوان لغات الترك“ cild I, səhifə 31—32. Orxon qitaвələrində **mana** və **вinip** qiвi karьşьk şəqillərə rast qəliriz.

2) Əqər **„qitaвьmьz“, „evimiz“**.. qiвi şəqilləri alsak, вynlara karşьlьk Kazan, tatar, вaşkyrt, ojrat, karaçaj, kymyk qiвi şivələrdə **„tilibiz“, „atabьz“** (dilimiz-ataмьz) qiвi şəqillər vardьr.

3) *„Phonetik der nordlichen Turksprachen, S.213—214.“* Radlof, вy əsərinin məzqyr səhifələrində mustəkil вir вəhs ajьrarak, ejni məsələni tədkik edərəq, вy nəticəjə qəlir.

ləhcəsində „**mən**“ jerinə *„epe, ep“* sözunu qəruruz qi, bynyn „**ben**“ ilə daha zijadə jakьn oldygy mejdandadьr.

Uçuncu: butun turq-tatar şivələrində rysca „Мы“ ə'ni „**ben**“ və ja „mən“ sözunun cəm'i jerində **„biz“** çyvaş ləhcəsində *„eper, epir“* jakyt ləhcəsində ***„bisi qi*** və ja ***bisi“*** və byna jakьn, hər halda „**b**“ ilə başlajan sözə təsaduf ediriz. Butun by nəktələri qəzdə dytarak, „**mən**“ sözunun daha əsqi bir şəqil oldygyny indiliq kəbyl etməq heç vakt mumqun dejildir. Bynynla barabar, daha çok Şimal şivələrinin xusysyijjəti olan „**mən**“ sözunun qərəq Azərbajcan və qərəqsə turqmən şivələrində Şimaldan qəlmiş unsur oldygyna şubhə jokdyr. Çunqu by şivələrdə *myz, mojyn, myryn, mojnyz myjnyz...* qibi sözlərə rast qəliriz.

Söjlədiqlərimizə byny da ilavə etməq lazьmdьr qi ***varьm, qedim, atam*** qibi sözlərin nihajətindəqi „**m**“ səsi „**mən**“ sözunun başьndaqь „**m**“ ola bildiqi qibi ejni zamanda sonyndaqь „**n**“ səsindən çevrilmiş də ola bilir. Çunqu bir çok jerlərdə *„qedəjim“* jerinə: *„qedəjin“*, *„alajьm“* jerinə *„alajьn“*... şəqillərini qəruruz.

b) Azərbajcan ləhcəsində Şimal şivələrindən qirmişə bənzəjən bə'z sözlərə rast qəliriz. Məsələn: azəri ləhcəsində ***jır, jırıl*** sözu ***cır*** və ***cırıl*** şəqlindədir.

c) Bynlardan başka *dьşkarь, kapьja sarь, Ćadь pitiq, sogat* qibi sözlər də, heç şubhəsiz, by qun artьk bir çok şivə və ləhcələrdən gejb olmyş *karь, sarь* qibi şəqillərə və „hədijjə“ baxşьş mə'nasьna qələn „سوقات“ sözu ilə „tilsim, afsyn qagьzь, jazьsь“ mə'nasьna qələn *pitiq* sözlərinə rast qəliriz.

III. Nəticə.

1

Byraja kədər söjlədiqlərimizdən azəri ləhcəsinin mənşəi və mevkei hakkьnda lazьm qələn kərarь çykara biliriz.

a) Azəri ləhcəsi ogyz və kьpçak şivələrindən ajrьlmьş və zamanьmьza kədər bynlarьn başlьca xusysijjətlərini saklajarak qəlmişdir.

b) By ləhcə cənubi-gərbi və cənub grypy adь ilə bəlli olan turq şivə grypyna qirər.

c) By ləhcə hakkьndaqь tədkikat ilərilərsə, by qun də azəri şivəsində bir çok şimal şivələri xusysijjətlərinin və XI-əsrdən əvvəl turq-tatar şivələrində rast qəldiqimiz bə'zi xuvysijjətlərin iktibas və arxaizm halьndaqazəri şivəsində jaşajьb qəldiqi qəruləcəqdir.

2

Vilhelm Radlof azəri şivəsini Cənub grypyna jer ləşdirmiş və by grypyn oldykca səthi karakteristiqin vermişdir qi, by qunə kəkər əlimizdə olan lisani materjal, mikdarca artmamьş, və daha zijadə, işlənmiş olmadьgьndan, by xusysda daha dərin və muqəmməl nəzərijjə və nəticələrə jol jokdyr [1]).

Professor Samojloviç by ləhcə grypyny cografi tərfdən „cənubi-gərbi“ (юго-западная), lisani cihətdən **„ol“**, kevmi nəktəji-nəzərdən „turqmən“ grypy adlandьrьr [2]).

Jykarьdan bəri söjləjib qəldiqimiz xusysijjətlərdən anlaşьldьgьna qərə, azəri, Anadoly, turqmən ləhcələrinin bir grypda toplanmasьna söz jok isə də, „ol-bol“ xusysijjətinin əsas alьnmasь, professor Samojloviçin

1) W. Radloff: Phonetik: s. 280-291.

2) Проф. Самойлович А. Н.: „Некоторые дополнения к классификации тюркских языков.“., стр. 15.

ɵzunun də e'tiraf etdiqi qiвi [1]) вir çok anlaşьlamamazlьga səвəв ola вilir və вizim fiqrimizcə dogry dejildir. Çunqu turqmənlərdə, вiz daha zijadə həm jazьlь, həm də şifahi ədəвijjatda „ol" şəqlini dejil, „вol" şəqlini qəruruz. Ona qərə turqmən şivəsində olmajan və ja çok zəif вir syrətdə qiçiq rajonlarda ɵzunu qəstərən xusysijjəti вy cənyв grypy uçun əsas olarak alьв, вynyn adь ilə də вutun grypy adlandьrmak, daha fənasь turqmən grypy adьnь verməq, вizcə вir o kədər muvafik sajьlamaz.

Bir səzlə azəri ləhcəsi ogyz-kьpçak grypynyn вir вydagьdьr və turqmәncədən az, anadolycadan zijadə Şimali və ja Şərk şivə gryplarьnьn tə'siri altьnda вylynmyşdyr.

---

1) Там-же: стр. 6.

Sevtijjat.

(Səs вəhsi).

1

Elmi əsas uzərinə jazьlmьş ciddi sərf dersliqlərindən məhrym olan вutun Avropa məqtəвlərində oldygy qiвi, turq-tatar məqtəвlərində də indijə kədər səs ilə hərfin вir-вirindən ajrьlьв təhlil edildijinə çok az rast qəlinir. Heç вir jazь, nə kədər muqəmməl və sevti əsas uzərinə kyrylmyş olyrsa-olsyn, dildə mevcyd olan вutun səsləri əqs etdirəməjəcəqindən, вir səzu işarət etməq uçun jazьlmьş olan hərfləri səs jerinə kəвyl etməqlə, səzun ən вəsit unsurləri olan, səsləri ajьrmak və tapmak imqanьndan məhrym olyryz. By təhluqə xusysən, turq-tatar dillərinin вə'zi əhəmijjətsiz xusysijjətlərindən вaşka-(məsələn: **məq, mak** qiвi) вəlli-вaşlь heç вir ana çizqisini təsвit edəməjən ərəв jazьsь ilə iş qərən turq-tatar məqtəвlərində daha çok artar.

Jeni turq əlifвasь вy xususda çok вəjuq ilərilәmə sajьla вilirsə də, jenə də muəllimlər və sərfçilər hər hansь вir dilin tədkikində jazьdan dejil, dogrydan-dogryja dilin canlь səslərindən hərəqət etməlidir.

2

Insanьn səjləməsində, nьtkьnda вylynan səsləri tədkik edən şə'вəjə **səvtijjat** *(фонетика)* dejilir.

Umymijjətlə səslərin çьkarьlmasь, istehsal edilməsində uç dərəcə vardьr:

a) Cijərlərə qirmiş olan вir mikdar hava, nəfəs вorysy vasitəsilə, dьşarьja вyrakьlьr qi, вyna **zəfir** *(L'expiration)* dejilir.

b) Nəfəs вorysyndan qeçdiqdən sonra hava, hulkym və ja вogaza qəlir qi, вyrada iqi tərəfdən həs-

sas qiçiq əzələciqlər [1]) vardır. Bynlar cijərlərdən qələn havanın tə'sirinə qərə ehtizaz edirlər (təprənirlər), və ja hali-suqynətdə kalırlar. Əqər ehtizaz etməzlərsə, çıkan səslər **sagır** *(sourd=глухой)* ehtizaz edərərsə, **sədalı** *(Sonore=звонкий)* olyrlar. By iqinci dərəcəjə **təsəvvut** *(səslənmə=Fonation)* dejilir; çunqu hava, ancak вy dərəcədən qeçdiqdən sonra səs əmələ qəlir.

c) Cijərlərdən qələn hava, jykarıda ziqr etdiqimiz əzələciqlərdən qeçdiqdən sonra agız boşlygyna qirər qi, вyrada dişlər, dil, dodaklar, ordlar, agızın açıldıgı zaman aldıgı şəqil, istehsal etdiqimiz səslərin təвiəti uzərinə tə'sir edər.

Əqər вutun вy uzvlər səs çıkarqan, səs tellərinin ehtizazından əmələ qələn sədanın karşısında maniə təşqil etməz və вy syrətlə havanın belə maniələrə çarpmasından heç вir qyrylty hasil olmazsa, əldə edilən səslər **sajitə** *(гласный)* olyr. Əqər dil, diş, damag (*небо*), dodak...qiвi uzvlərimizdən вirisi səs jolynda maniə təşqil edərsə, вir qyrylty hasil olyr qi, вy syrətlə mejdana qələn səslər **samitə** *(согласный)* olyr. Byndan, вy sajitələrin sədalı *(звонкий)*, samitələrdən isə, вə'zlərinin sədalı, вə'zlərinin də sədasız və ja sagır *(глухой)* oldygy mejdana çıkar.

Sajitələr.

3

Azəri ləhcəsində вylynan səsləri—вaşka turq-tatar ləhcələrində oldygy qiвi—uç prinsipə qərə ajıra вiləriz:

1. Sajitələr tələffuz əsnasında dilin ufki *(горизонтальный)* cihətdən aldıgı vəzijjətə qərə muxtəlif gryplara ajrılır:

a) Dilin arka tərəfindən, damagın sərt kısmında hasil olan sajitələrə **damag ənu** *(предненебный—prepalatale)* və ja **ən** *(передний)* **sajitələri** dejilir. Bynlarda: **ə, e, i, ө, u** hərfləri ilə qəstərilən səslərdir.

1) By əzələciqlər rysca *„голосовые связки"*, fransızca *„Cordes Vocales"* dejildijindən, turqca: *„səs telləri"* deja вiliriq.

b) Damag arkasında hasil olan sajitələrdir qi, вynlara **damag arkası** *(задненёбный – postpalatal)* və ja sadəcə „**arka**" *(задний)* dejilir. Bynlar da **o, y, a, ı** hərfləri ilə qəstərilən səslərdir.

By ajırma, jykarıda da səjlədiqimiz qiвi, вutun turq-tatar dillərinə ajid olmakla вarabar вy dillərin sevtijjatı uçun çok muhum вir xusysijjətdir.

By səsləri belə вir cədvəldə təsvir etməq mumqundur:

CƏDVƏL-1

Ən damag səsləri	ə, e, i, ө, u
Arka damag səsləri	a, ı, o, y,

Ixtar: вiz, вyrada **ən damag, arka damag** tə'вirlərini işlətmişsəq də, вir çok sərflərdən **jymyşak** *(мягкий)*, **katı** *(твердый)* və ja „**kəvi**" **zəif** tə'вirləri işlənir. Turq sərflərində „**səkil**" və „**xəfif**" sezləri işlədilir.

2. Sajitələrin gryplara ajrılmasındaqi prinsip, dilin вy sajitələrin tələffuzundə **şakyli** *(вертикальный)* cihətdan aldıgı vəzijjətdir. By nəkteji-nəzərdən umymijjətlə sajitələri „aşagı, alçak" *(низкий)*, „orta" *(средний)* və „jykarı, juqsəq" *(высокий)* olmak uzrə uç kısma ajırılar. Turqcədə orta kısım ajırmaga hacət olmajıв, ancak „**alçak**" və „**juqsəq**" və ja „**dar**", „**qeniş**" kısımlarına ajırmak qifajət edər; hər iqi prinsipi вirləşdirdijimiz təkdirdə aşagıdaqı cədvəl mejdana qəlir:

CƏDVƏL-2

Juqsəq, dar	Alçak, qəniş	
i, u	e, ө, ə	Ən damag sajitələri
ı, y	a, o	Arka damag sajitələri

3. Sajitələrin gryplara ajrılmasında uçuncu prinsip, вy sajitələr tələffuz olynyrqan, dodakların açık-

lьk dərəcəsi və şəqlidir. Dikkət ediləcəq olyrsa: **o, ө, y, u** hərfləri ilə işarət olynan səslər tələffuz olynyrqan, dodaklarьn açьklьgь mudəvvər dajirəvi, jyvarlak вir şəqil aldьgь halda, **ə, e, i, a, ь** hərfləri ilə qəstərilən səslər tələffuz olynyrqan, mejdana qələn açьklьk ancak вir yzynca şəqlə maliqdir. Bynlardan вirincilərə **mudəvvər, jyvarlak,** iqincilərə **gejri-mudəvvər** dejilir.

Birincilərə rysca *губные*, fьransьzca *labiales* (*şəfəvi*) iqincilərə: *не губные—illabiales* (*gejri-şəfəvi*) dejilir, **ө, u** səsləri ilə **i, e** səsləri arasьnda jalьnьz вy „dodak açьklьgь" fərki vardьr. Bynyn uçun **ө**=şəfəvi **e**-dir, **u**=şəfəvi **i**-dir.

Indi вy uçuncu prinsipə qərə sajitələrin cədvəlini duzəldəcəq olyrsak, вy nəticəni əldə edəriz:

CƏDVƏL-3

Mudəvvər, şəfəvi.	Gejri-mudəvvər gejri-şəfəvi.	
ө, u	ə, e, i	Ön damag (xəfif).
o, y	a, ь	Arka damag (səkil).

4

Əqər вirinci cədvəl ilə iqinci cədvəli вirləşdirəcəq olyrsak, вy cədvəli əldə edəriz:

CƏDVƏL-4

Mudəvvər, şəfəvi		Gejri-mudəvvər, gejri-şəfəvi.		
Juqsəq	Alçak	Juqsəq	alçak	
u	ө	i	e (ə)	Ön damag (xəfif)
y	o	ь	a	Arka damag (səkil)

Ixtar: Azəri ləhcəsində, **e** səsi ilə **a** səsi arasьnda вir sajitə vardьr qi, jeni turq əlifвasьnda tərsinə çevrilmiş **e** hərfi ilə „**ə**" ilə işarət olynyr. Bу səs şuвhəsiz alçak və ja qeniş səslərdən olmakla вarabar səkil ilə xəfif arasьnda вylynyr.

5

Bу syrətlə azəri ləhcəsində вylynan sajitələrin sevtijjat nəkteji-nəzərindən təsviri ву şəqildə ola вilər:

e— Alçak, xəfif, gejri- şəfəvi вir sajitədir.
i— Juqsəq, xəfif, gejri-şəfəvi „ „
ө— Alçak, xəfif şəfəvi „ „
u— Juqsəq, xəfif, şəfəvi „ „
a— Alçak, səkil, gejri-şəfəvi „ „
ь— Juqsəq, səkil, gejri—şəfəvi „ „
o— Alçak, səkil, şəfəvi „ „
y— Juqsəq, səkil şəfəvi „ „
ə— Alçak, orta, gejri—şəfəvi „ „

Azərвajcan ləhcəsində вylynan вaşlьca dokkyz sajь tənin karakteristiqi, kьsa olarak, вyndan iвarətdir,

Ixtar: Sajit səsləri вir də „**yzyn**" və „**kьsa**" (əsqi tə'вirlə: məmdyd və məksyr) olmalarьna ajьrmak mumqun isə də, вə'z səzlər çьkarьlacak olyrsa, azəri ləhcəsində вyna вir o kədər luzym jokdyr; çunqu yzyn sajitələrə, вir çok вaşka turq şivələrində oldygy qiвi, вyrada da çok az rast qəlinir. Yzyn sajitələr əqsərijjətlə, ərəв və fars səzlərində tapьlьr: عالم=**aləm,** عالم=**alim,** لاله=**lalə.** Bynynla вarabar вə'z turq səzlərində də вy səsə rast qəliriz *sokat, doşan, doga* qiвi.

Samitələr.

6

„**Samitə**" adlandьrьlan səslər, jykarьda səjlədiqimiz qiвi (2-nci paragraf) вogazdan qələn havanьn agьzda hər hansь вir maniəjə təsaduf etməsi ilə istehsal edilir.

a) Əqər вelə səslərin istehsalь zamanьnda вylynan maniə jalьnьz təвii hava kanalьnьn вir az daha darlaşmasьndan iвarət isə, husyla qələn səs, **daimi** və ja **kanali** (*fricative, щелинный*) olyr: **z, v, f, z, s, ş, g,** səsləri вy kəвildəndir.

b) Əqər səs, cijərlərdən və вogazdan qələn havanьn sevti uzvlərimizin mumanəətinə təsaduf edərəq dyrmyş və sonra вy uzvlərin kuvvətlə вir-вirlərindən

ajrılmasь sajəsində hasil olmyş isə, вy syrətlə hasil olan səslərə **ani** (*momentanee*) və ja **indifai (explosive)** dejilir. Çunqu вynlar muəjjən вir patlama nəticəsində mejdana qəlirlər: **q, q, d, t, b, p** səsləri вynlardandьr.

Nihajət, təfsili вyrada mevzyymyzdan xaric olan, вə'zi mahijjətləri e'tiвarilə karьşьk səslər vardьr qi, вynlara **dalgalь** (*плавный—sonant*) dejilir: **j, l, r, m, n, ŋ,** qiвi səslər вynlardandьr. Sonyncy uç səsə, ejni zamanda **byryn səsləri** (*nosales, носовые*) dejilir; çunqu вynlar tələffuz olynyrqan hava вyryndan çьkar.

7

Samitələri, jykarьdaqь təsnifdən вaşka agzьmьzьn harasьnda hasil olmasьna qərə də durlu sьnьflara ajьrьrlar. Samitələrin вy dyraklarьna **məxrəc** (*articulation*) delilir. By syrətlə; **dodak səsləri** (*губные*) vardьr qi, вynlar dodaklarьn вir-вirinə dokynmasьndan hasil olyrlar: *b, p* samitələri вynlardandьr. Alt dodaklarьn ust dişlərə dokynmasьndan hasil olan: *v, f* qiвi samitələrə də **diş-dodak** (*зубно-губные*) **samitələri** dejilir. Bynlardan вaşka **damag samitələri** (*небные*): *l, q, q,* və sajirə вylynyr.

8

Nihajət samitələr, səs tellərinin ehtizazьna, jə'ni **sədalь** (*sonore, звонкий*) **sagьr** (*sourde, глухой*) sьnьflarьna ajrьlьr. «Dalgalь» adьnь verdijimiz *l, n, m, j, r, n,* səsləri, umymijjətlə sajitələr qiвi sədalьdьr, jə'ni səs tellərinin ehtizazilə mejdana qəlir.

„Indifai" səslərə qələcəq olyrsak, вynlarьn вə'ziləri sagьr, вə'ziləri də sədalьdьr.

9

Azəri ləhcəsində, вaşka turq-tatar ləhcələrində də вylynan, iqi murəqqəв samitə daha вylynyr qi, вynlar da: *c=d+z, ç=t+ş* səsləridir.

Ejni zamanda, вogaz səsi sajьlan **ь—h** səsinə də rast qəliriz. Azəricədə həm kalьn, həm də incə **l** səsi vardьr.

10 AZƏRI LƏHCƏSINDƏ TAPILAN SAMITƏLƏRIN CƏDVƏLI.

Samitələr			Sağırlar / Sədalılar — İndifai samitələr	Sağırlar / Sədalılar — Kanal səsləri	Dalgalı səslər.
Dodak səsləri (şəfəvilər)	Iqi dodakla mejdana qələnlər		p / в	—— / ——	m
	Diş-dodak		—— / ——	f / v	
Diş səsləri	Əsil diş səsləri		t / d	s / z	r, n, n,
	Damag-diş		ç / c	ş / ж	j
Damag səsləri	Damag ənu		q / ɢ	—— / ——	l
	Damag arkasь		k / g	x / —	Kalьn l
Bogaz səsi				ч	

11

Bə'zi jeni sərfçilərimiz arasьnda son zamanlar jajьlmьş olan вir fiqrə qərə, qyja turq-tatar dillərində „ث"،„ذ"،„ھ"... qiвi səslər jokdyr. Sərfimizin mevzyy olan azəri ləhcəsində, dogrydan da „**h**" səsindən вaşkasь jok isə də, вaşka turq-tarar ləhcələrində вy səslərə rast qəliriz, Məsələn: Başkyrt ləhcəsincə həm „ذ", həm „ث" səsi вylynyr. Byndan вaşka əsqi turqcədə də „ذ" səsinə rast qəliriz.

12

Azəri ləhcəsində, вaşka cənyв turq-tatar ləhcələrində oldygy qiвi, вə'zi səslər vardьr qi, səz вaşьnda ja heç rast qəlməz, və ja çok az olarak rast qəlir. By cins səslər arasьnda „**m, n, ŋ, l, r, z f**" səslərini qəstərə вilәriz. Təвii təklidi səzlər (*mьrьltь, zьrьltь*... qiвi) və **məи, myna...** qiвi iktiвasi səzlər mustəsnadьr.

13

Jykarьdaqь paragrafda kejd etdijimiz kajdanьn tə'siri altьnda azəri ləhcəsində „**l, r, z,**"... və iləx. ilə вaşlajan əcnəвi səzlər tələffuz edilərqən, əqsərən вirər sajitə ilavə edilir; məsələn:

rys-yrys, rym-yrym , limon-ilimon.

14

Azəri ləhcəsi səzlərinin sonyna qələcəq olyrsak samitələrin səz sonynda daha zijadə sagьr oldygyny qəruruz.

Bələt, ijit, agaç, sumuq, qet, it (itir)...

15

Əcnəвi səzlərin tələffuzundə, umymijjətlə, azəri turqcəsi, вaşka cənyвi grypa mənsyв turq-tatar dillərindən ajrьlmajьr.

Səslərin dəjişmələri.

16

Başka şivələrə qərə azəri ləhcəsində əsərimizin mədxəl kьsmьnda da qəstərdijimiz qiвi samitələrdə ən zijadə qəzə çarpan hallardan вirisi də lisanijjatda metatez (*metathese*) dediqimiz вə'zi samitələrin **(l,r,s)** jər dəjişdirməsidir.

Məsələn: *qirpiq-qipriq, əjrən-ərqən, qəlməq-qəmləq* (qəjnəq), *çəlməq-çəmləq, qulfət-quflət, jatsь-jastь tutsu-tustu...* Şimal turqlərində *qəвələq,* Anadoly turqcəsində *qələвəq,* azəri turqcəsində *qəpənəq*...

17

Səslərin həcalar və səzlər içində вir çok dəjişmələri vardьr qi, aşagьdaqь paragraflarьmьzda вy dəjişmələrin вaşlьcalarьnь kejd ediriz.

Azəri ləhcəsində вə'zi səslər, səzlərin sonynda və ja ortasьnda tamamilə duşər; məsələn: əsqi *açьg,* jerində *acь, kapьk* jerində *kapь, jajlag-jajla, datlьg--dadlь*... Ancak *qiçiq* səzundə вy „**q**" kalmьşdьr.

18

Səz ortasьnda вylynan „**g**" səsi, osmanlь ləhcəsində tamamilə duşduqu halda, azəri ləhcəsində вə'zən **j**, вə'zən də **v** səsinə çevrilmişdir; məsələn:

Sojyk (sovyk) əsqi: *sogyk,* osmanlь: *soyk,*
Tojyk (tovyk) „ : *takyk,* „ : *tayk,*
Joyk (javьk) „ : *jagyk* „ : *jayk*

Bynynla вaraвar, azəri ləhcəsində *damag, tamak* (əsqi-*tamgak*) qiвi səzlərdə səz ortasь **g** duşmuşdur. Ejni syrətlə *kajьr* (*kajgьr*), *kazan* (*kazgan*)...

Ejni syrətlə səz ortasьnda вylynan „**k**" və „**g**" „**q—ɑ**" səslərinin вy ləhcədə duşduqunu qəruruz; məsələn:

Kьsa (*kьska*), *içəri* (*içqəri*), *irəli-ilәri* (*ilqəri*).

Laqin „*dьşkarь*" səzundə əsqi şəqil kalmьşdьr.

19

Səz ortasьnda вylynan „**l**“, „**t**“ qiвi səslərin duşduqu də vake olyr:

Çəjirqə (*çəqirtqə*), *otyrmak* (*oltyrmak*), *qətir* (*qəltir*).

Bə'zən də вir səz də teqrar olynan iqi səsdən вirisi duşər: „*вaxşьş*“—„*вagьşla*“...

20

Iqi sajitə arasьnda çok dəfə sagьr samitələr sədalьja çevrilir. By kajda daha zijadə **k q, ƥ ç** qiвi samitlərə ajiddur:

a) *Dajak-dajagь, вycak-вycagь,*
juqsəq-juqsəƣi, вəjuq-вəjuƣu,
ak (ag)*-agar, çiçəq-çiçəƣi,*
в) *Agaç-agacь, dinç-dincəl,*
c) *Dip-diвi* [1])
ç) *Ijit-ijidi, səjut-səjudu...*

Ixtar: By kajdanьn, xusysən вir həcalь səzlər arasьnda, вir çok mustəsnalarь vardьr: *juq-juqu, qup-qupu, jax-jaxьn* və sajirə...

21

Səzlərin sonlarьna şəqilçilər (*affixe*) ilavə edildiqi zaman, səzlərin damarlarьnda вylynan səslər, xusysən sajitələr, bə'zi dəjişmələrə mə'ryz kalьr. Çok dəfə, ixtisar joly ilə, damarьn son həcasьnda вylynan sajitələrdən вirisi duşər. Məsələn:

Janƫl-janlьş, ajƫrmak-ajrь, ojyn-ojna, devir-devril, çevir-çevril, supur-supruntu, вyra-вyrda, hara-harda („*harada* “*jerinə*), *hanƫ-hansь* (*hənsь jerinə*), (*hasь* dejən də var).

1) *Çok, jok, turq, qurq, вərq...* qiвi səzlərdə azəri ləhcəsində sajitlər arasьnda da sagьr samitlər əz şəqillərini saklajьr; jə'ni: sagьr kalьr. Hal вy qi, mə'lym oldygy uzrə, Cənyв ləhcələrindən bə'zilərində, məsələn: Anadoly ləhcəsində, вynlardan bə'ziləri sajitlər arasьnda sədalьja çevrilir; məsələn: *çok-çogy, jok-jogy...* və iləx...

Bə'zən вir neçə səsin вirdən duşduqu qərulur: *apar=alьp-var* (necə qi, əzqə şivələrdə: *aqel=alьp-qel, aqet=alьp qet*), *kardaş=karƫndaş, вildir=вir ildir, istot = isti-ot...*

22

Umymijjətlə azəri ləhcəsində sajitələr yzadьlmaz. Jalьnьz feillərdə sorgy-istifham jerində, feil səzunun son həcasьndaqь sajitə yzadьlьr. Məsələn: *qedirsən? qimdi? jazƫp?...*

23

Turq səzlərinin вaşьnda və sonynda iqi samitə вir jerdə вylyndygyna çok az rast qəlinir. Əcnəвi dillərdən qirmiş olan səzlərin tələffuzundə dilimizin вy qiвi iqi samitənin вir arada вylynmasьndan kaçьnьlьgь qərulur. Bynyn uçun də əqsərijjən səzun вirinci həcasьna, və ja вaşьna вir *i* sajitəsi ilavə olynyr.

a) *Istəqən-Стакан, Istamвyl-Stamвyl, ismarьş-sipariş-spariş* (*sьfarьş*), *yşkol-школа...*
в) *Ras-rast, axyn-axynd...*

„*Ust*“ qiвi səzlərin, bə'zi turq şivələrində „*us*“ şəqlində işləndiqini вilirsəq də, azəri şivəsində вy şəqillər qərunməjir; jykarьda jazdьgьmьz misallarda daha zijadə danьşьk dilindən alьnmьş olyв jazьda вy səzlər, çok dəfə əcnəвi dillərindəqi şəqillərini saklarlar.

24

Ərəв dilindən qirmiş olan səzlərin вaşьnda, sonynda və ortasьnda вylynan „ع“ səsi turqcədə səjlənəməz: سعادت=*saadət*, علم=*ilim*, جمع=*cəm'*... Bynynla вarabar ərəв jazьsь ilə jazьlan və вasьlan əsərlərdə вy hərf jazьldьgь qiвi, jeni əlifвada вynyn jerinə apastrof (') işarəti konylmyşdyr: *mə'lym, mə'rifət...*

Təmsil və təhlil.

25

Avropa və bu arada rus sərflərində *„assimilation-təmsil“*, *„dissimilation-təhlil“* adlarilə kejd olunan hadisələrə, umumijjətlə turq şivələrində oldugu qibi, azəri ləhcəsində də misallar tapa biliriz.

Təmsilə misal: *aldat-allat, tapmak-tappak, kızlar-kızdar, tanımajan-tanımıjan...*

Bu misalların tədkik edəcəq olsak, təmsil hadisələrinin durlu şəqillərini qəruruz. *Allat* misalında dalgalı səslərdən olan **l** səsinin *diş* səslərindən **d** səsini təmsil etdiqi qərulur. *„Tappak“* misalında dodak səslərindən **p** jenə dodak-burun səslərindən olan **m** səsini təmsil edir. *„Tanımıjan“* misalında sonuncu həcadaqı **j** və iqinci həcadaqı **ı** səslərinin „**a**“ səsi uzərinə tə'sir edərəq, „**ı**“ səsinə çevirdiqi kejd olyna bilir.

Bə'zən belə hadisələr, jalnız bir neçə sözdə qərunərəq, dildə umumi bir şəqil almaz. Bə'zən butun dili ihatə edə bilər qi, bu vaktda, təmsil hadisəsi sajəsində, dilin çok qeniş xusysijjətlərindən birisi mejdana qəlir. Belə təmsil hadisəsi ilə dəjişmiş söz şəqilləri numunə alınarak, *analoji* (***kijas***) joly ilə, başka sözlər də buna yjdyrylyr.

Necəqi, azəri ləhcəsində belə dəjişmələrdən birisi umumi bir mahijjət almış və bu ləhcəjə ajid xusysijjətlərdən birini təşqil etmişdir qi, bu ləhcədə, özqə ləhcələrdə başında, sonunda, ortasında **k** səsi bulynan sözlərə karşılık, **x** səsinə maliq sözlər tapırız. *„Saxla“, „çıx“, „Xaçmaz“, „balıx“, „çox“, „kalxız“* qibi...

Təhlil hadisələri də azəri ləhcəsində az dejildir; burada təmsilin əqsi vake olur; jə'ni: bir-birinə bənzəjən səslərdən birisi başka bir səsə çevrilir. Bunun səbəbi də bir sözdə bir-birinin ejni iqi səsin teqrarını kaldırmakdır:

Şaş-çaş, issi-isti, jassı-jastı, zərər-zərəl, xançar (xəncər) = xançal.

Səslər yjyşması.

(Synharmonisme).

26

Turq-tatar dillərində, umumijjətlə Ural-Altaj dil ajiləsinə qirən dillərdə oldugu qibi, muhum bir kanun vardır qi, bunun adına firənq-Avropa əsərlərində *Vocalharmonie* (***sajitələr ahənqi***), *Synharmonisme* (***səslər yjyması***) denildiqi qibi, bizim bə'z sərf qitablarımızda, „**ahənq**“ adı altında kejd edilməqdədir. „**Ahənq**“ sözu bizcə, bu hadisəni başka mysiki və lisana maxsys hadisələrlə karşdırmaga səbəb olacagından, biz burada „**səslər yjyşması**“ tə'birini işlətməni daha munasib biliriz.

Hər nə kədər, söjlədiqimiz qibi, bu hadisəjə son zamana ajid sərf-nəhv qitablarımızda bə'z işarətlər var isə də, indijə kədər, qərəqi qibi dikkət edilməmişdir.

Bu hadisənin əsası bundan ibarətdir: bir sözdə: jalınız, ja *damag önu* (*prepalatal*) sajitləri (**e, i, ö, u ə**) və ja *damag arkası* (*pospalatal*) sajitələri (**a, ı, o, y**) bulyna bilər. Məsələn:

1. *Tulqu, qərucu, qedən, uzum, uzuq, urəq...*
2. *Yldyz, toprak, kylak, yşak, yfak, Xaçmaz...*

Ixtar: Birinci sırada *jymyşak* **ı**, iqinci sırada *katı* **ı** səsi bulynyr. Başka samitələr də belə.

27

Bu bir neçə sözun tədkikindən də anlaşılacagı uzrə turq **dili** sözlərində iqi cur yjyşma qəruruz: birisi,—*uzum, yldyz, uzuq*,sözlərində oldugu qibi,—sözdə dodak sajitələrinin bir-birini tə'kib etməsidir qi, buna **dodak səsləri yjyşması** (*губная гармония—Labialharmonie*)dejildiqi qibi, iqincisi də *urəq, yşak, toprak* qibi sözlərdə qərduqumuz qibi bir sözdə ön və arka damag səslərinin bir-birini tə'kib etməsidir qi, buna da **damag səslər: yjyşması** (*небная гармония—Palatalharmonie*) dejilir.

By qunqu turq ləhcələrində, kara-kьrgьz və bə'z Altaj şivələri istisna edilirsə, daha zijadə iqinci nev' yjyşma, jə'ni **„damag səsləri yjyşmasь"** vardьr. Necə qi, azəri ləhcəsində də byny qəruruz.

Səslər yjyşmasь, əsas e'tibarilə, təmsil kanynynyn xusysi təzahurlərindən birisidir. Səslər yjyşmasьnьn səbəbi, səslərin bir-biri uzərinə tə'sirindən artьk, dilimizin **iltisaki** (*аглютинативный*) təşəqqulata sahьb olmasьndan iləri qəlir. Necəqi, həmən butun iltisaki dillərdə by kanynyn az-çok kuvvətlə həqum surdujunu qəruruz.

28

Jykarьdaqь iqi paragrafdan (26,27) da anlaşьlacagь uzrə, turq-tatar səzlərində sevti nəkteji-nəzərdən ən muhum unsur birinci həca olyr. Çunqu yjyşma kanyny mycəbincə sonraqь həcalar, birinci həcanьn səsləri tə'siri altьnda bylynyr; başka səzlə dejəcəq olsak, birinci həca tərəfindən təmsil edilir. Byna bakarak turq dillərinin daha əvvəl həcai oldygyny zənn etməq mumqundur.

29

Azəri ləhcəsində, başka turq tatar ləhcələrində oldygy qibi, yjyşma kanyny, jalьnьz bir səzun həcalarьna ajid olmajьb, by səzə ilavə edilən butun şəqilçilərə də tə'sir edər. Byrada jalьnьz bir şərt vardьr qi, o da butun by şəqilçilər ilə barabar səzun bir **vyrgy** (*ударение*) ilə tələffuz edilməsidir. Özunə maxsys vyrgysy olan şəqilçilər, ilavə olyndyklarь damarlarьn, səzlərin tə'siri altьnda bylynmazlar.

Məsələn: *„bilə"* və ja *„ilə"* şəqilçisi belədir: *„adam ilə"*, *„odyn ilə"*, *„top ilə"*.

Laqin **„lə"** şəqlində damara ilavə edildiqi zaman bir vyrgy altьnda səjlənir və damarьn sevti tə'siri altьna qirər: *„adamla"*, *„odynla"*, *„topla"*, *„əllə"*, *„səninlə"*, *„mənimlə"*....

30

Səslər yjyşmasь nəkteji-nəzərindən tədkik edildiqi təkdirdə, azəri ləhcəsinin səzlərində sajitələrin muəjjən tərtibini mejdana çьkarmak mumqundur; bynyn uçun misal olarak, bir neçə səz alalьm:

Korxy, jazь, satьn, jaxьn, dogry, kyllyk, jogyn, junqul, qənul, qərçəq, qəlin, qeri.

By səzləri həcalarьna ajьrdьgьmьz təkdirdə, turqcə səzlərin səs tərtibi sxemasьnь əldə etməq mumqun olyr:

1. Kor-ky, dog-ry, jo-gyn, ol-dy, ja-zь, sa--tьn, ja-kьn, kyl-lyk.
2. Jun-qul, qə-nul, qər-çəq, qər-çəq-dən, qə--lin, qə-lin-liq, qe-ri, i-lə-ri.

31

By həcalarьn sajitələrini tədkik edərsəq, **damag arkasь** və **damag önu** sajitələri uçun by kanyny çьkara bilərik:

1. **„a"** səsi **„a, ь"** səslərindən əvvəl qələ bilər və ja **„a"** dan sonra by səslər bylyna bilir.
2. **„e, ə"** səsi **„e, ə, ө, i, u"** səslərindən sonra qələ bilir.
3. **„i"** „ **„e, ə, i, u"** „ „ „ „
4. **„y"** „ **„o, y"** „ „ „ „
5. **„u"** „ **„ө, u"** „ „ „ „
6. **„ь"** „ **„a, ь"** „ „ „ „

7. **„o"** səsi, azəri ləhcəsindən bə'z məhəlli şivələr və əcnəbi səzlər istisna edilirsə, ancak səzun birinci həcasьnda bylyna bilir. By səsdən sonra **„a, y"** qibi səslər qəlir.

8. **„ө"** səsi də ejni syrətdə by ləhcədə səzlərin ancak birinci həcasьnda bylynyr və özundən sonra **„ə, e, u"** qibi səslər qələ bilir.

32

„Yjyşma" və ja indijə kədər tə'bir edildiqi qibi **„ahənq"** hadisəsi həcalarь bir-birinə, iltisaki olmasьndan dolajь, zəif syrətdə baglanmьş olan səzləri daha

artьk вaglamak məksədini tə'kiв edər. Yjyşma kanyny olmasa, iltisaki dillərin sözlərini tələffuz etməq çok quc olyrdy. Yjyşma kanyny sajəsində, heç turqcə вilməjən вir adam turqcə вir sözun harada вaşlajьв, harada вitdijini tə'jin edə вilir. Bynyn uçun də yjyşma hadisəsi jalьnьz turq-tatar dillərinə maxsys olmajьв, iltisaki təşəqqulat və вunjəjə maliq dillərin həmən cumləsində вylynyr.

33

Yjyşma kanyny, həmən вutun turq tatar dillərində və hər turq ləhcəsinin turq sözlərində olmakla вaraвar, вy kajdanьn вə'z mustəsnalarь vardьr: *inanmak, irak, timyr, tejmyr, ilan*...

34

Indijə kədər qətirdiqimiz misallardan da mə'lym oldygy uzrə yjyşma kanyny jalьnьz sajitələr uzərində tə'sirini qəstərməjiв, **damag arkasь** və **damag önu** samitələrində də öz tə'sirini icra elər, jə'ni вy tə'sir, daha zijadə **q—g**, **k—q**, jymyşak və katь **„l"** səslərində özunu qəstərir. Məsələn:

Agac, bak, korkak, kaldь, dag, junqul, qiçiq, qirli..

Ixtar: Bə'zi lisançьlar arasьnda „yjyşma" hadisəsinin, sajitələrin və ja samitələrin tə'sirindənmi qəldiqi hakkьnda вir para munakəşələr olyв qeçmişdir. Jykarьda (paragraf 32) söjlədiqimiz qiвi, вy hadisənin səвəвi, daha zijadə, dilimizin iltisaki mahijjətində olyв, qərəq samitə və qərəq sajitələrdə öz tə'sirini qəstərməsidir. Ərəв jazьsь turq dilinə tətвik edilirqən yjyşma kanynyny, daha zijadə, samitələrdə qəstərməqə çalьşmьşlar: „س — ص", „ت — ط", „ض — د", „ك — ق", „گ — غ" . . .

35

Əcnəвi sözlərdə umymijjətlə, turq-tatar dilinin a kanynlarь qiвi, yjyşma kanyny da, öz tə'sirini qəstərməjir; məsələn: ***mətanət, səвat, avtomoвil, вuro, telefon, dərja, faвriq.***

Bynynla вaraвar, xusysi xalk tələffuzundə вir çok əcnəвi sözlərə yjyşma kanyny tətвik edilir: حلوا=***halva*** آدم=***adam***.

Yjyşma kanynyna taвe olmajan əcnəвi sözlərinin əqsərijjətində, вy sözlərin sonlarьna ilavə ediləcəq şəqilçinin (ədatьn) xəfif və ja səkil olacagьnь вilməq uçun вy sözlərin son həcalarь nəzəri e'tiвara alьnьr. Əqər sözun son həcasь xəfif isə, xəfif; səkil isə, səkil şəqilçi ilavə olynyr; məsələn:

Fəzilət-lə mətanət-dən, səвat-la, Ictimaijjat-da, ədəвijjat-ьn....

By kajda, dejil вutun turq-tatar ləhcələrində, iltisaki dillərin həmən cumləsində caridir [1]).

Ilavə: Mə'lym oldygy uzrə, insirafi dillərdə—məsələn, Hind və Avropa—damar səslərinin dəjişməsinin şəqli (morfoloziq) əhəmijjəti var. Məsələn: ryscada „*стекло*" sözunun cəmi „*Стекла*", „*окно*" sözunun cəmi „*окна*" dьr.

Turq-tatar dillərində damardaqь sajitələr, samitələrin dəjişməsi, umymijjətlə heç вir durlu şəqil, mə'naji nəticə verməz. Bynyn qiвi sözlər ancak şivə, jaxyd tələffuz вaşkalьklarьnь qəstərir; məsələn: *qimi, qiвi, qiвiq, imiq*; jaxyd: *qəz, quz, koz, çəz*.... qiвi sözlər hər nə kədər вaşka-вaşka səs tərqiвlərinə maliq isələr də, mə'na e'tiвarilə ejni sözlərdir. Diqər tərəfdən ejni samitələrlə вaraвar, вaşka-вaşka sajitələri havi olan damarlar öz aralarьnda heç вir durlu munasəвətə maliq dejildirlər: *ət, it, ot, ət, at*...qiвi sözlərin вir-вirlərinə heç вir durlu munasəвət və raвitəsi jokdyr.

---

1) Əcnəвi sözlərin tələffuzu və вynlarda yjyşma kanynynyn alacagь şəqillər hakkьnda, oldykca mufəssəl tədkiklər vardьr; məsələn: A. Fişerin (A. Fiseher).

„Die Vocalharmonie der Endungen an den Fremdwortern des Turkischen", Leipzig-1920 namь ilə jazdьgь əsərində *və Radlov „Phonetik"*-inin 39-50 səhifələrində вy məsələjə daha mufəssəl вir tərzdə janaşьlmьşdьr.

Bynynla вараваr вə'zi damarlarda xəfif və səkil sajitələrin вə'zi mə'na fərkləri dogyrdygyny da fərk etməməq mumqun dejildir: *вecər-вaşar, вyr-вuru, jəşər* (Anadolyda) *jaşar.*

Qləzəlcə tədkik olyndygy təkdirdə, hər ləhcədə вelə misallarьn daha çok вylynacagь şuвhəsizdir. Əqər вy qiвi misallar zijadəcə вylynув, iləridə umymi вir kajda altьna alьna вilirsə, səs yjyşmasь kanynynyn dilimizdə morfoloжiq-şəqli, səz tərədici roly da oldygyny ilərі surməq mumqun olacakdьr [1]).

Metodiq təhlil numynələri.

Biz sərfimizdə səslərdən вaşladьk; laqin muəllim вy tərtiвi pedagoжi usyllarьnьn istəqinə qərə poza вilir. Məsələn; nəhvdən вaşlaja вilər. Diqər tərəfdən ejni usyllara taвe olarak, səslərin вəllənməsində musahəвə, rəsim qiвi dərs planlarь çьza вilər. Biz вyrada jalьnьz вə'z ədəвi və xalk ədəвijjatьna ajid mətinlər alarak, onlarьn lisanь—вyrada sevti—nəkteji-nəzərdən nə syrətlə təhlil və tədkik edilə вiləcəqini qəstərməq istəjiriz. By mə'lymat, dogrydan-dogryja muəllimin ezunə maxsys olyв, dərs əsnasьnda tələbələrə nə verə вiləcəqini, nə syrətlə verəcəqini, təqrar ediriz, usyli mənвə'lərə, əsərlərə muracəət etməqlə qəsdirəcəqdir.

1). *Qəzən ajaga daş dəjər.* 2). *Daldan atьlan daş topyga dəjər.* 3). *Ajь вir вəd canavardь, jymyrtdasa da, jymyrtdar.* 4). *It ittiqindən əl çəqər, sumsuqluqundən əl çəqməz.* 5) *Atlar өluв , itdərin вajramьdь.* (*H. Zejnallь „Azərвajcan atalar səzu“*).

Azərвajcan xalk dilindən вy parçalarь вy plana qərə təhlil etməlidir:

1. Səslərin məxrəcləri (*dil, diş, dodak, damak, вyryn...və iləx.*).

2. Səslərin juqsəq-alçak olmalarь (sajitələrdə).

3 Xəfif-səkil olmalarьna qərə (*q-k, i-ь, q-g* və iləx).

1) By xusysda professor „Bogoroditsqi“nin *„Звуки спиармонизма втopских языках“* adlь mə'kaləsinə вəkьnьz. (*„Вестник эдтарoведения“,№6*).

4. Səslər yjyşmasьna (ahənqə) qərə (dodak və damag səsləri yjyşmasь).

5. Təmsil və təhlil hadisələri (*jymyrtdar, atdar, itdər...*).

6. Səslərin вə'z jerdə kuvvətli, вə'z jerdə xəfif tələffuz edilmələri (təвii və məntiki vyrgy).

Ixtar: Butun вy tədkikat muəllimin və tələвələrin canlь tələffuzu uzərində, daha jaxşьsь tələвələrin өzləri tərəfindən veriləcəq dil numynələrinə dajanьlarak icra edilməlidir.

Şəqlijjat—morfolozi.

DAMARLAR VƏ ŞƏQILÇILƏR.

I. Damarlar.

1

Dildə səslərin tərqiвində **həcalar** və həcalardan **sözlər** mejdana qəlir. Sözlərin вaşlьca iqi unsuru vardьr: **damar** və **şəqilçi**.

Sərfin, вy iqi unsurdən вəhs edən kьsьmьna **şəqlijjat (morfolozi)** dejilir. Butun iltisaki dillərdə əsas, damar oldygyndan, вiz də вy вəhsimizdə əvvəl **damar** (*Корень, racine*)dan вəhs etməlijiz.

2

Damarlar, sözdə вylynan şəqilçilər çkarьldьkdan, atьldьkdan sonra kalan kьsьmdьr. Turq dilinin damarlarь uç cur ola вilir: 1) **bəsit,** 2) **japma,** 3) **koşma (muraqqəb)** (1-*первообразный*, 2-*производный*, 3-*сложный*).

3

Bəsit damarlar, heç вir durlu şəqilçi və ja вaşka вir sözdən təşəqqul etmiş olmajan, parçalara ajrьlmajan sözlərdir. Bьrada, jə'ni sözləri parçalara ajьrmakda əsas me'jarьmьz **„sözun mə'nasь"dьr,** daha dogrysy, şuyrymyzda muəjjən вir fiqir və ja təsəvvur canlandьrьв-canlandьrmamasьdьr. Əqər parçalarь çkarьldьkdan sonra da, söz вelə mustəkil вir təsəvvur ojandьra вilirsə, o sözu parçalara ajьrmak mumqundur, joksa, söz вəsit damar olarak alьnьr, məsələn: *Daşlьk, joldaş, Agdım, istot, dilmaç* . . . sözlərini alsak, вynlarь *„daş+lьk"*, *„jol+daş"*, *„Ag+dam"*, *„isti+ot"*, *„dil+maç"* ... parçalarьna ajьra вiləriz, çunqu вy ajьrmadan sonra kalan: *daş, jol, ag, isti, dil*)... sözləri dilimizdə вy qun də muəjjən, вəlli, mustəkil mə'nalar ifadə etməqdədirlər. Hal вy qi, *kylak, uzuq, вiləziq, kaja, kardaş, altmьş, jetmiş, toprak, pişiq*... sözlərini вy jolda parçalara ajьrmak mumqun dejildir:

Ky+lak, uz+uq, вiləz+iq, kar+daş, alt+mьş, jet+miş, top+rak, piş+iq.

By syrətlə ajrьlan damarlar heç вir muəjjən mə'na və təsəvvur ifadə edəməzlər: etsələr вelə, təəlluk etdiqləri şejləri və mevzylarь ilə munasəвətləri olmaz, *„jol"* sözunun *„joldaş"*, *„daş"* *„daşlьk"* sözu ilə əlaqəsi qiвi.

By syrətdə: *daş, вiləziq, kardaş*... qiвi sözlər **„bəsit damar"** lardan sajьlьr.

Ixtar: Bir söz damar sajьla вilməq uçun dildə вylynan вutun şəqilçiləri ala вilməlidir.

4

Bə'z damarlar da вir вəsit damarla вir şəqilçidən mejdana qəlir qi, вynlara da **„japma damar"** (*производный*) adьnь veririz; məsələn:

Donlyk, kyllyk, çalgь, kapь, çəqi, jazь, akьm, ojna, danьşьk, вaşla... qiвi sözlər вelə japma damarlardьr; çunqu вy sözlər вelə parçalardan murəqqəвdir:

don+lyk, kyl+lyk, çal+gь, kap(a)+ь

çəq+i, jaz+ь, ak+ьm, danьş+ьk,

вaş+la, oj(y)n+a.

Bə'z japma damarlardan, вəsit damarlarь əldə etməq uçun şəqilçiləri ajьrьrqan, jykarьda, sevtijjat вəhsində ziqr etdiqimiz kajdanь qəz ənundə dytmalьdьr (paragraf 21). Orada da səjlədiqimiz qiвi, вəsit damarlara şəqilçilər ilavə olynyrqan, вy damarlarda вə'zən sevti dəjişmələr mejdana qəlir. Bə'zən *ojyn-ojyna* misalьnda oldygy qiвi son həcanьn вirinci səsi, və ja *kapa,kapь* misalьnda oldygy qiвi, jenə son həcanьn iqinci səsi duşər.

By cur japma damarlardan şəqilçilər вəhsində daha muffəssəl syrətdə вəhs ediləcəqdir.

5

Damarlarьn çokysy turq- tatar dillərində japma oldygy halda, bu qun bəsit şəqlinə qirmişlərdir, jə'ni: bu qun bu dildə səjləjənlər bunlarь, umymijjətlə japma damarlarda oldygy qibi, bəsit damarla şəqilçijə ajьramazlar. Bynyn səbəbi, əvvəlcə bu şəqilçi ilə birləşən damarьn və ja damara ilavə olynan şəqilçinin artьk dildən gejb olmasь, xusysi tə'bir ilə **„cansьz"** lanmasьdьr.

Məsələn: *hara, durlu, ocak, uzrə, jakьn, sonra, qimi...* qibi sözləri alalьm. Bunlarь bu qunqu lisani şuyrymyzla şəqilçi və bəsit damara ajьrmak mumqun dejildir; çunqu belə bir ajьrmadan sonra, kalacak şəqilçi və ja damarlar bu qunqu azəri dilində canlь olarak jokdyr. Laqin dilimizin tarixinə ajid mə'lymatьmьza dajanarak, jə'ni turq-tatar dillərinin qeçmiş devrlərindən zamanьmьza kədər qəlmiş olan lisani abidələri təftiş edərəq, bu sözləri həkikətə az-çok jakьn bir syrətdə belə parçalara ajьrьr və izah da edə biliriz:

Ha+ra, dur+lu, ot, od+cak, uz, uz+rə, jak+ +ьn, son+ra, qim+i... Bu sözləri birər-birər muxtəsər syrətdə qəzdən qeçirəlim:

Ha+ra, sözündəqi *ha* parçasь əsqi *kaj* sözündən muştəkkdir. Necə qi, şimal ləhcələrinin bə'zilərində, məsələn: Kьrьm, Kazanda, bu söz *kaj+da=harada, kaj+a=haraja, kaj qişi=hansь qişi* şəqillərində bu qun də işlədilir. *Hansь* sözündəqi *han* sözu də *kan* sözündən qəlir qi, əsas e'tibarilə *kan* və *kaj* sözlərinin bir oldygyny əsərimizin mukəddəməsində, özündən bəhs elədiqimiz Mahmydi -Qaşgari „ديوان لغات الترك" ndə „ارغو=ergy" turqlərində bu sözun sonynda **n** ilə, başka turq xalklarьnda **j** ilə tələffuz olyndygyny söjləjir.

Deməq ergylarda **kanь** şəqlində olan söz, Mahmydi-Qaşgarijə mə'lym olan başka turq xalklarьnda **kajy** şəqlində bulunur. Bu qun də osmanlь turqlərində bu söz **hanь** (əsqidən **kani**) şəqlində, Şimali Kьrьmda *kajsь* şəqlindədir. Azərbajcanda isə, *hara* və *hansь* sözlərində həm *kaj*, həm də *kan* şəqlinin bulunduğunu qəruruz qi, bu da qitabьmьzьn mukəddəməsində kejd etdiqimiz azəri ləhcəsinin Şimal və Cənub ləhcələrinin hudydynda hər iqisindən, az və ja çok nisbətdə, lisani xusysijjətlər iktibas edərəq təşəqqul etdiqini bir daha qöstərir.

Ra şəqilçisinə qələcəq olyrsak, şəqilçilər bəhsində daha mufəssəl syrətdə qərulə biləcəqi vəch ilə, bu qundə azəri ləhcəsində bir çok sözlərə ilavə olynmakla barabar, artьk qeçmişdəqi vəzijjətinə qərə cansьzlanmьş və ja cansьz şəqilçilər sьrasьna qeçmişdir: *„qe+ru, ri, ilə* (ilik)*+ri, son+ra, jyk+ +arь"*... sözlərində bu şəqilçijə rast qəliriz. Əsqi abidələrdə qərulduqunə qərə bu şəqilçinin əvvəlqi şəqli *kary—qeru, gary—qeru* idi. *Içqəru* (*içəri*), *jykygary—*(*jykary*), *ilqəru* (*iləru*), *dьşkary* (*dьşary*)...

Necə qi azəri ləhcəsində *dьşkarь* sözu, arxaizm olarak bu əsqi şəqli saklamьşdьr.

Ejni syrətlə *durlu* sözu də *dur* və *lu* parçalarьndan murəqqəbdir. *Dur* – cins, nev' deməqdir. *Ocak, otag,* sözlərində bulunan *ot* jaxyd *od* sözu bu qun artьk, söjləjənlərin şuyrynda bir-birindən ajrьlamajьr. *Uzrə* sözu də əsqi *ust, rə* dən qəlir. *Jakьn* sözu, *jak* və *ьn* parçalarьndan murəqqəbdir. *Jak—tərəf, cihət* deməqdir qi, daha *jaka* sözündə mevcyddyr. *Qimi* sözunun əsli *qibiq* dir və *qib, iq* parçalarьndan murəqqəbdir. *Qib* sözu *kalьb, şəqil* mə'nasьna qəlir qi, bu şəqildə və bu mə'na ilə bə'zi şivələrdə bu qun də bulunyr. Necə qi, *qibiq* sözu də Şimal şivələrinin çokynda bulunyr. Azəri ləhcəsində **b** səsi **m** səsinə çevrilmiş oldygy qibi, **iq** şəqilçisinin axьrьndaqь **q** səsi də duşmuşdur.

Əsas e'tibarilə dilin tarixi təqamulu ilə məşgyl olan tarixi sərfə maxsys bu təhlilləri burada yzatmaga hacət jokdyr. Bu kədər misaldan da okycy bir çok bəsit zənn etdiqimiz damarlarьn həkikətdə, mənşə'ləri və tarixləri aranьlacak olyrsa, „japma" oldygy mejdana çьkarьla biləcəjinə kənaət edə bilir.

6

Koşma—murəqqəb damarlar, iqi bəsit və ja iqi japma damarьn bir jerə, şəqilçisiz olarak baglanmasьn-

dan mejdana qəlir. Byrada sözlərin hansь mə'naja dəlalət etdiqinin əhəmijjəti jokdyr; jə'ni əsqi sərf tə'вirləri ilə dejəcəq olsak, feil feil ilə; isim isim ilə; isim, feil ilə..... вirləşə вilir:

Ataвala, Hakverdi, apar, istot, Agdam, koşakylak....

Iqi sözun, daha dogrysy damarьn, вirləşiв, вir damar, вir söz mejdana qətirmələrinə əlamət, вynlarьn вir **vyrgy** (*удареnие*) ilə səjlənmələridir; вynyn uçun də jazьda вirliqdə jazьlmalьdьrlar.

7

Turq ləhcələrində və вy nev'dən azəri ləhcəsində damar təşqil etməq xusysynda muəjjən вə'zi kanynlar daha vardьr qi, indijə kədər sərflərimiz вy hadisədən, mə'nanь nəzəri-e'tiвara alarak, sifət вəhsində вir neçə sözlə вəhs ediв qeçmişlərdir. By kanynyn dilimizdə вir neçə cur təcəllisi vardьr.

1. Bəsit və ja japma damarьn вaşьna вir **m** səsi ilavə edilərəq, teqrar olynyr və, sözun вaşьnda samitə вylyndygy təkdirdə, вy samitə atьlьr.

Yşak-myşak, az-maz, çərəq-mərəq, xijal-mijal...

Byndan вaşka azəri ləhcəsində, xusysən danьşьkda—söjləşmədə, hər sözun sonyna „zad" sözu ilavə olynarak teqrar olynyr və mə'na e'tiвarilə ejni nəticəni verir: *çərəq-zad, pyl-zad...*

2. Sözun, damarьn səscə jakьn вir kyşagь japьlarak teqrar edilir:

Tartan - partan
Əjri - mujru
Ala - вyla
Aвyr - çyвyr...

3. Bəsit damarьn вaş səsi alьnarak ona, sözun təвiətinə qərə, kalьn və ja incə (damag enu, damag arkasь) вir sajitə ilə вaglь **ρ, m, r, s**, səsləri vasitəsilə вir kyşak japьlьr, və вy syrətlə вir nev' murəqqəв damar mejdana qəlir qi, вy jolla əmələ qələn murəqqəв damarьn mə'nasь, вəsit damarьn mə'nasьna musavi dejildir:

1) *Butun: вus-вutun,*
Bəlli: вəs-вəlli,
Bəjaz: вəm-вəjaz,
Boş: вom-вoş,
2) *Kьzьl: kьp-kьzьl,*
Kьrmьzь: kьp-kьrmьzь,
Kara: kap-kara,
Katь: kas-katь,
Kyry: kyp-kyry,
Karşь: kapa-karşь,
3) *Yzyn: yp-yzyn,*
Ak: ap-ak (ag-ap-ag),
Açьk: ap-açьk.
4) *Dogry: dos-dogry,*
Duz: dum-duz,
Diq: dim-diq,
5) *Jastь: jam jastь,*
Jyvarlak: jos-jyvarlak,
Jaşьl: jam-jaşьl,
6) *Sijah: sim-sijah,*
Sarь: sap-sarь,
7) *Çьplak: çьr-çьplak.*

Indijə kədər jazьlan sərf qitaвlarьnda вy xusysijjət jalьnьz rənq ifadə edən sifətlərə maxsys olarak qəstərilməqdədir. Jykarьda qətirdiqimiz misallar вy fiqrin janlьşlьgьnь mejdana çьkarьr. Ədəвi dildə, nisвətən az işlədilən вy sözlər, söjləşmə-danьşьk dilində daha zijadə canlь və daha вoldyr.

4. Byndan вaşka dilimizdə mə'na və şəqilcə вirвirinə jakьn sözlərdə вir arada işlədilərəq koşma damarlar mejdana qətirirlər və вelə koşma sözlər, özunu tərqiв edən unsurlərin mə'nasьndan вaşka, ajrь вir mə'na ifadə edərlər:

Çьgьr-вagьr, jalan-janlьş, saçma-sapan....

Bynlarьn içində elə murəqqəв damarlara rast qəlinir qi, вir parçalarь zaman ilə artьk mustəkil mə'nalarьnь gejв etmişlərdir:

Konym-konşy, çolyk-çocyk...

Bynlarda *konşy—konak çolyk—xidmətqar* əsqi mə'nalarьnь gejв etmişlərdir.

5. Umymijjətlə turq dillərində, ifadənin kuvvətlənməsi uçun olsa qərəq, sözləri cut işlətməq adəti qəzə çarpьr:

Bag-вostan, al-ver, qəldi-qetdi, dөş-вaş, mal-mulq, jazь-pozy, zevk-safa, fagьr-fygara...

Bə'zən də ərəв, fars, əcnəвi sözlərilə turq sözlər вirləşdirilir:

Dərja-dəniz, jazьk-fagьr...

8

Murəqqəв sözlər və ja damarlarьn şəqli əlamətlərindən вirisi **vyrgy** olsa, diqəri də вelə damarlarьn jalьnьz son вəsit sözun sonyna ilavə olynan şəqilçilərlə qifajətlənив iqi вəsit damar qiвi iqi şəqilçi alamamasьdьr. Əqər hər iqi unsurə ajrь şəqilçilər ilavə edilirsə, damarьn murəqqəв olmajьв, вəlqə iqi вəsit damarla işimiz oldygy anlaşьlьr. Məsələn:

Al-ver+çi, xoş-вeş+dən sonra, konym-konşy+ja.

Laqin *xoş+tan, вeş+dən, alьcь, verici...* deməq mumqun isə, вy damarьn ajrь-ajrь вəsit olyв tərəqquв etməmiş oldygyna həqm edilir.

9

Byndan вaşka, sərflərdə də kejd olyna вildiqi qiвi, turq dili damarlarьnьn ifadə etdiqi mə'nalar çok muxtəlif və çok qenişdir. Əcnəвi dillərdə jazьlan turq dili sərflərində вy fiqir вelə ifadə olynmakdadьr: „Turq dillərində, Hind-Avropa dillərində oldygy qiвi, feil ilə isim arasьnda muhum fərk jokdyr"[1]). By sözləri өz usylymyza—şəqli usyla—qərə anlamak istəsəq, turq damarlarь mə'naca həm maddələri tə'jin, həm də onlarьn hərəqətlərini вildirməqə xidmət edərlər, mə'nasь çьkar, məsələn: *jemiş* sözunu alalьm. By sözu həm *mejvə*, həm ***jemiз adam***, həm də *pişiq çөrəqi* ***jemiз*** məkamlarьnda işlədə вiləriz. By syrətlə ejni söz, mə'naca həm isim, həm sifət, həm də feil olyr.

1) H. Ашмарин „Материалы для исследования чуваш. яз". части I и II,103.

Byna həmən вutun isim mə'nasь ifadə edən sözlərdən sifətlər və feillər təşqil edilə вiləcəqi də ilavə olynyrsa, вy fiqrin az-çok kət'ijjətlə, həmən вutun turq-tatar dillərinə tətвik edilə вiləcəji mejdana çьkar:

Baş-вaşla-вaşlangьç, qөz-qөzəl, qөzlə, jol-jolla-(Zolak)-jolçy...

By cur məsələlər, əsərimizin mə'na tədkiklərinə ajid xusysi вəhsində daha zijadə təfsil ediləcəqdir.

10

Bir sьra sözlər daha vardьr qi, dildə ifa etdiqləri vəzifəjə qərə damar, jə'ni mustəkil sözlə şəqilçi arasьnda вylynyrlar; indijə kədər alьşьlmьş tə'вirlə dejəcəq olyrsak, mustəkil mə'nalarь jokdyr; laqin вynynla вaraвar, şəqilçilər qiвi damarlara ilavə ediləməzlər, jaxyd ilavə edilsələr вelə, вynlar damarlara vyrgy və yjyşma e'tiвarilə taвe olmazlar. By qiвi sözlərə şəqilçilər вəhsində вir daha dənməqə məcвyr olacagьmьzdan, вyrada jalьnьz вaşlьca tiplərini вildirməqlə qifajətlənəlim:

Pəq, ancak, qimi (qiвi, qiвi), laqin, dəxi, daha, вəlqə, qi...

By sözlər, tə'вir cajizsə, uzvi syrətdə damara japьşmadьklarь qiвi, вynlara da şəqilçi ilavə ediləməz. Bynlara вə'zən **jarьm söz,** вə'zən də **cuz'lər** (*частицы*) adь verilir qi, вizcə вirinci tə'вir daha zijadə ajdьn və yjgyndyr.

Vyrgy.

11.

Azəri ləhcəsində, umymijjətlə turq-tatar dillərində oldygy qiвi, sözlərin son həcasь,o вirilərinə qərə daha kuvvətli tələffuz olynyr qi. вy hala **vyrgy** (*ударение*) və вelə həcaja da **vyrgyly** dejilir.Bəsit və murəqqəв damarlarda vyrgy sözun son həcasьnda вylynmakla вaraвar, şəqilçili damrlarda, jykarьdaqь tə'вirimizə qərə, japma damarlarda şəqilçilərin axьrьna qeçər.

Turq sözlərində **baş vyrgy** (*главное ударение*) dan başka bir də iqinci dərəcədə vyrgy bylynyr qi, by da sözun başında dyjylyr.

***

Mənfi feillərdən əmr sigəsinin, bir sözlə nəhji-hazır mə'nasını verən **ma,mə** şəqilçisi ilavə olynarak əldə edilən japma damarlarda vyrgy bəsit cəzirdə kaldığı halda, məsdəri-təxfifi mə'nasını verən **ma, mə** şəqilçiləri ilavə olynarak mejdana qələn japma damarlarda isə, vyrgy by şəqilçilərdə bylynyr. Məsələn:

Nəhji-hazır: *var-ma, bil-mə, qəzlə-mə;*

Məsdəri-təxfifi: *var-ma, bil-mə, qəzlə-mə* [1]).

Jalınız nəhji-hazır şəqlində dejil, *madı,mədi, majır, məjir* və *mamış, məmiş* qibi iş sözləri, feillər axırına ilavə olynan şəqilçilərdə də vyrgy bylynmaz, belə hallarda vyrgy, by şəqilçilərin ilavə olyndyqları damarın son həcasında bylynyr:

Qəlmədi, qetmədi, qərunmədi, bişməmiş...

By vyrgydan başka bir də **məntiki vyrgy** (*логическое ударение*) vardyr qi, belə vyrgyja qərə bir cumlədə hər hansı bir söz, və ja bir sözdə hər hansı bir həca, əvvəlqilərinə qərə daha kuvvətli söjlənə bilir. By syrətlə söjləjən by həcada söz uzərinə dinləjənin nəzəri-dikkətini cəlb etməq məksədini tə'kib edər.

Vyrgy məsələsi, turq-tatar dillərində indijə kədər çok az tədkik olynmyşdyr; jalınız avropalılardan bir neçə turqoloqyn by muhum məsələjə dajir bir-iqi yfak məkalələri vardyr.

12

Turqcə damarların sonynda əqsərijja sagır samitə bylynyr. By kajda, şubhəsiz, daha çok bəsit damarlara ajiddir. Sonynda saitələr bylynan damarlar, çok dəfə **japma**dır:

Kaja, jara, koşa, jazı, japı, dadlı, qecə . . . .

1) Mətbəəmizdə jeni əlifba ilə vyrgy işarəsi olmadığından, byrada haman vyrgyly hərfləri **kara hərflərlə** əvəz etdiq.

Idarə.

qibi sözlər bir tərəfdən japmadır, jə'ni bynlarda bylynan bəsit damarlar da sagır samitələr ilə bitir; məsələn:

Kaj+a (kajmak və ja kat?), *jar+a* (jarmak), *koş+a* (koş), *jaz+ı* (jaz), *jap+ı* (japmak), *dat+lı* (dat), *qec+ə* (qec)...

Diqər tərəfdən by qun sajitə ilə bitən sözlər, vaktilə samitə ilə bitərdi.

Hamı, isti, acı, qəpru və ja *qərpu, kyjy, sy...* qibi sözlərin əsillərini araşdıracak olsak, bynların əsqidən by şəqillərdə bylyndygyny qəruruz:

Kamık və ja *kamığ, ıssığ* (ıssığ qəl), *açığ, qəpruq, kyjyg, syв* və ja *syp...*

Okyjycynyn nəzəri-dikkətini by hadisəjə cəlb etməqlə barabar ejni zamanda, sajitə ilə bitən sözlərin də turqcədə qafi mikdarda bylyndygyny da kejd etməlijiz:

Kara, altı, jeddi, qişi, iqi, eju və ja *eii, ana, вава, вala, ara...*

Dilimizin tarixi tədkik olynsa, qetdiqcə, sajitə ilə bitən damarların artmakda oldygy qərunər.

By paragrafa ajid olarak, mumqun olan kət'ijjətlə jalınız byny deməq olar qi, samitə ilə bitən sözlərin axırında azəri ləhcəsində daha zijadə sagır samitə bylyna bilir. By kajda xusysən **b, ρ** və **t, d,** samitələrinə ajiddir. Turqcə sözlərin sonynda sədalı **b** samitəsi, həmən heç bylynmaz, dejərsəq, mubaləgə və janlış olmaz:

1. *Dip, ip, qəвap, qitap, qedip, qəlip, jap, sap;*
2. *At* (ad), *at* (آت!) *jat* (jtmak), *ot, sat, ət, et* (etməq).

Əsqi ərəb əlifbasın ilə by sözlər, təbii tələffuzunə dikkət edilməjərəq, bə'zən **t , ρ** bə'zən də **b , d** səsi ilə jazılırdı. Məsələn:

آد—آت، یات—یاد، اوت—اود və iləx...

Jeni əlifba ilə jazıldıkda by ajırmaja dikkət etməli və ja etməməli məsələsi jenə, əsərimizin xususi, imlaja ajid bəhsinə daxil edilmişdir.

Damarlar uzərində təhlil.

Butun bu bəhsimizdən qərulduqu qibi, dilimiz—əsas e'tibarilə—öz sevti tərqiblərinə maliq həcalardan və bu həcaların birləşərəq mejdana qətirdiqləri damarlardan əmələ qəldiqindən, şəqilçilər bəhsinə qeçmədən əvvəl, **muraqqab, bəsit, koşma** və **japma** damarların, bunların təşqilindəqi usylların mumqun oldygy kədər mufəssəl syrətdə təhlili, dil uzərində muşahədə işini asanlaşdıracagı cihətlə ajrıca tevsijə olynyr.

Xusysən dilimizdə koşma damarlar (*kıp - kırmızı, sap - sarı, əqri - mujru...*), oldykca muhum bir xususijjət təşqil etdiqindən, bu cihətə ajrıca əhəmijjət verilməlidir. Butun bu məsələlər şifahi nıtkın inqişafı və bu xusysdaqı canlı musahəbələrlə baglana bilir.

II. Şəqilçilər.

(*Affixes*).

13

Butun dunjada söjlənilən dilləri qəzdən qeçirəcəq olyrsak, bunların iqi böjuq parçaja ajrıldıgını qəruruz. Bə'z dillərdə damardan başka söz bylynmaz. Sözlərin mə'naları, mə'nalarındaqı fərklər, biri-birləri ilə olan munasəbətləri cumlə içərisindəqi vəzijjətlə anlaşılır. Bu soj dillərə **cəzri, damar dili** və ja **şəqilsiz dillər** dejilir.

Çin dili bu kəbildəndir. Məsələn: „Tijan -Şan dagı nın şimal qeçidi" mə'nasını verən „*Tijan Şan-pe-bu*" söz grypyny alalım. Byrada dört bəsit damar jan - jana duzulmuşdur: „*Tijan-Şan-şimal-qeçid*". Bu tərqibdəqi sözlərin sırasını dəjişdirirsəq, təbii, mə'na başka olyr. Byndan başka sözlər öz aralarında heç bir durlu şəqilçi ilə, ədatla baglanmamışdır. Deməq qi, Çin dilində damardan başka söz unsuru jokdyr.

Iqinci gryp dillər, damarların sərfi şəqillərini, mə'nalarındaqı və cumlə içərisində ograd.kları dəjişmələri ifadə etməq uçun muxtəlif durlu söz cuz'lərinə maliq olan dillərdir qi, bunlara da **şəqilli dillər** dejilir. Başlıca Hind - Avropa, sami və Yral - Altaj ajilələrinə mənsub olan dillər, məsələn: Fransız - rys, ərəb-jəhydi, turq-fin dilləri bu nev'dəndir.

14

Şəqilli dillərdə şəqilsiz dillərdən ajrılma nöktəsi, jykarıda söjlədiqimiz qibi sözlərə ilavə olynan şəqilçilərdir.

Damarın şəqilçi ilə birliqdəqi halına o **sözun şəqli** dejilir. Damara şəqli verən, ona ilavə edilən ədatlar, cuz'lər oldygyndan, bunlara da **şəqilçi** (*affuxe*) dejilir.

15

Bu şəqilçilər sözlərin ja başında, ja ortasında və ja sonynda olyr; söz başında bylynanlara **baş şəqilçi** (*prefixe*), ortasındaqılara **orta şəqilçi** (*infixe*), sonyndaqılara da **son şəqilçi** (*suffixe*) dejilir. Baş və orta şəqilçi sami (ərəb-jəhydi qibi) və Hind-Avropa (fransız, rys...) dillərində bylynub Yral-Altaj dillərində və bu cumlədən turq-tatar dillərində jokdyr. Okycyja az-çok mə'lum olan ərəb və rys dillərindən bir-iqi sözlə məksədimizi daha konkret, açıq syrətdə izah edə bilərik: məsələn: ərəbcə „نقل - nakl" sözunu alalım; bu sözdən „انتقال = i - n - t - i - k - a - l" sözunu təşqil etməq mumqundur qi, byrada **nakl** damarına **i, ti** və **a** unsurləri ilavə edilmişdur. Bunlardan **i** baş şəqilçi xidmətini, **ti** və **a** da orta şəqilçi vəzifəsini qərur.

Muharrir-muharrirə, alim-yləma. məqtub-məqtubat və iləx....

Ejni syrətlə rysca *xod* sözunu alsak, byndan: *хождение, ухаживать*.... qibi sözlərin təşəqqul etdiqini qəruruz qi, byrada dikkət edilirsə, həm baş, həm orta, həm də son şəqilçi vasitəsilə sözun şəqli dəjişdirilmişdir.

16

Turq-tatar dillərində jalınız son şəqilçi vardır; başka cur dejəcəq olyrsak, şəqilçilər sözun jalınız sonyna ilavə olyna bilər. Həmin bu hadisəjə qərə dilimiz, şəqli nökteji nəzərdən **iltisaki dillər grypyna** daxildir.

17

Şəqilçilər sözlərdə japdıqları dəjişmələrə qörə iqi kısma ajrılır. Birinci kısım, **söz japıcı şəqilçi** (*словообразующий*)lərdir qi, bunlar bəsit damarlardan japma damarlar mejdana qətirirlər; başka tə'birlə dejəcəq olyrsak, sözun mə'nasını dəjişdirirlər. Məsələn:

Aç,aç+ık, kaj, kaj+ık, büç, büç+ak, jap, jap+ı, kapa, kapa+k, jol, jol+çu...

Bu sözləri şəqilçili və şəqilçisiz hallarında bir-birilə mukajəsə edərsəq, mə'nalarındaqı fərk mejdana çıkar.

Iqinci kısım şəqilçilərə **söz dəjişdirici şəqilçi** (*словоизменяющий*)lər dejilir qi, bunlar bəsit sözlərdən japma damarlar mejdana qətirməz və bu syrətlə sözlərin mə'nalarını dəjişdirməz, jalnız sözləri bir-birinə rəbt edər. Bunun uçun bunlara **nəhvi şəqilçilər** dejildiqi qibi, birincilərə də **sərfi şəqilçilər** dejilir. Birincilər dar mə'nasında alınan sərfdə, ajrı-ajrı sözlərdə rol ojnadıqları halda, iqincilərin roly, daha çok, cumlə təşqilindədir. Bə'z şəqilçilər, həm **söz japıcı**, həm də **söz dəjişdirici** xidmətini qörurlər. Məsələn: *Ключ* mə'nasına *aç+ar* sözundəqi **ar** şəqilçisi sözjapıcı xidmətini qörduqu halda, *Капын sizə yşak açar* cumləsindəqi *açar* sözu söz dəjişdiric rolyndadır.

Ixtar: Söz japıcı şəqilçilər, indijə kədər jazılmış olan sərf qitablarımızda sifət bəhsi içində gejb olyb qetmişdir.

18

Söz dəjişdirici şəqilçilər, sözləri bir-birinə baglamaga xidmət edərlər, demişdiq. Bunun uçun bunlar qərəq **japma**, qərəqsə **bəsit** və **murəqqəb** damarların sonynda bulynyrlar; jə'ni damara söz japıcı şəqilçilərdən sonra ilavə olynyrlar.

Ərəb lisanijjatının tə'siri altında olsa qərəq, turq-tatar sərflərində ən çok mufəssəl və ətraflı syrətdə tədkik olynan şəqilçilər bu söz dəjişdiricilər ola qəlmişlərdir. Isimlərin, sifətlərin və feillərin təsrifi bundan başka bir şej dejildir.

Söz dəjişdirici şəqilçilər ilavə olynmadan əvvəl bəsit, japma və ja murəqqəb damarların bulyndygy hala **əsas** (*основа—баş*) dejilir. Söz dəjişdiricilərin ilavəsilə bu **əsas** təsrif edilmiş olyr.

Professor Žan Deni bu hadisəni belə tə'rif edir:

„Söz dəjişdirici şəqilçilər(*desinence*)„əsas"a ilavə olynmakla isimlərdən **mucərrəd** (*nominatif*) halını, feillərdən **əmri-hazır** halını jok edər" [1]).

Təbii, bizim uçun sözlərin mə'nasının nəzəri e'tibara alan (mucərrəd, əmri-hazır) bu tə'rif bir o kədər açık və muvəffəkijjətli dejildir. Biz, şəqilçilər xusysynda indijə kədər söjlədiqlərimizi nəzəri-e'tibara alarak, bu şəqilçilərin tə'rifini, tə'kib etdiqimiz prinsipə daha çok yjgyn olmak uzrə bu jolda veririz:

Söz japıcı şəqilçilər,japma damarlar (*производи. корни*) təşqil edən, söz dəjişdiricilər isə, sözləri bir-birinə baglajan şəqilçilərdir.

Bu tə'rifin daha zijadə əlverişli və yjgyn olması, dilimizin və dilimizdəqi şəqilçilərin xarici, şəqli xusysijjətlərini tamamilə ihatə etməsindən ibarətdir.

19.

Turqcə sözlərin tərqibində, jykarıda da işarət etdiqimiz qibi, söz japıcı dəjişdiricilərin muəjjən sıraları vardır qi, başka şəqilli dillərdən(məsələn: Hind-Avropa, səmi) heç birinə bənzəməz. Dilimizdə dəjişdirici və japıcı butun şəqilçilər sözun sonyna qəlir. Umymijjətlə damara əvvələn söz japıcılar, sonra söz dəjişdiricilər ilavə olynyr; bu syrətlə turq sözunun tərtibi belədir:

Damar+söz japıcı şəqilçi+söz dəjişdirici.

Damarla söz japıcı şəqilçidən ibarət kısma **əsas** (*основа*) dejildiqini bir daha kejd edəlim.

Butun turq-tatar dilləri uçun bu kajda, bu tərtib zəryridir. Turq-tatar dilinin heç bir abidəsində, heç bir şivəsində bu kajdanın pozyldygyna təsaduf ediləməz. Bunun uçun kanyna turq sərfinin təməl kanynlarından birisi qibi bakmak pəq dogrydyr; çunqu hər zaman və hər jerdə turq sözunə bu tərtibdə rast qəliriz.

1) „Gramm. de la langue turque" p. 103.

Iş+çi+dən, iş+ləq+liq –lər–i, kaj+ьk+çь+ +lьk+lar+ьn+dan;

Hər nə kədər jykarьda verdiqimiz mə'lymatdan çok qəzəl anlaşьlьrsa da, okycymyzyn ilq dəfə вy məsələlərlə və вy usyla rast qəlməsi ehtimalьnь qəz ənundə dytarak ixtar edəlim qi,bəsit damarlardan japma damarlar mejdana qətirə вilən bə'zi feil şəqilçiləri вynqan mustəsnadьr: **lə-la, iş-ьş, dir-dьr**...şəqilçiləri вynlardandьr.

Baş+la+maz+dan, ver+dir+mə+də, al+ьş+ +ma+mak+dan...

Butun вy şəqilçilərin sьra və tərtiвini kyllanьş tə'jin edər. By tərtiв az-çok kətijjətlə nəhvdə tədkik olyna вilər.

20

Şəqilçilərin mənşəi məsələsi, вy qun daha lisanijjatda qərəqi qiвi ajdьnlaşmьş dejildir; jalьnьz dildə вylynan вir çok şəqilçilərin əsqi şəqillərinə вakarak, вynlarьn vaktilə mustəkil sözlər, jə'ni damarlar oldygy hakkьnda fiqir vardьr.

Turq dilində вylynan əsqi jazma əsərlərdə вy qunqu şəqilçilər, əsas e'tiвarilə, вylyndygyndan вynlarьn tarixdən əvvəlqi turq dilində nə şəqildə oldyklarь hakkьnda kət'i fiqir jurutməq mumqun dejildir.

Bynynla вaraвar *qiвi-qimi, ancak, pəq...* qiвi вə'z jarьm sözləri və ja *qəldim, atam...* sözlərdəqi **m, n** qiвi *вən* və *sən* qiвi mustəkil sözlərlə əlakədar olan şəqilçiləri nəzəri-e'tiвara alarak turq-tatar dillərinin şəqilçiləri hakkьnda da вy nəzərijjəni kəвyl etməq mumqun olyr. Tarixi və mukajəsəli lisanijjat ilərilədiqcə, вy xusysdaqь materjal daha da artacakdьr [1]

21

Hər halda вyrasь вəllidir qi, şəqilçilər psikolоziq, ryhi tədai(*association*)nin nəticəsidir. Insan, zehnində sözləri şəqillərinə qərə təsnif edir. Hər hansь вir şəqlə maliq sözün zehnimizdə canlanmasь ilə ona

1) Məsələn: Çyvaşcada *san* (sajь, ədəd) sözu вy qun artьk cəm ədatь jerini dytmyşdyr.

şəqilcə jakьn və şəqli cihətdən вaglь вylynan вutun diqər sözlər hərəqətə qəlir. By xusysijjətin dil tədrisi nəkteji-nəzərindən fevkəl'adə вəjuq əhəmijjəti vardьr. By da qəstərir qi, dili əjrənirqən, diqər tə'вirlə, onyn sərfini qeçərqən, sözun şəqli uzərində tədkiklər japmak səjəsində dejil, jalьnьz dilin saвit və muəjjən kanynlara вaglь olan xarici cihətini, ejni zamanda вy dili səjləjən xalkьn, sьnьfьn, ictimai təвəkənin ryhy, həjəcanь, məntiki, вir sözlə, mədənijjətin və cəmijjətin ən qizli və ən daxili mexanizm və hadisələrini də əjrənmiş olyryz.

Psikolоzi nəkteji-nəzərindən alьndьkda, damar və ja əsas zehni tədaidə вiri-вirinə вənzəməjən parçalar oldygy qiвi, şəqilçi də вiri-вirinə вənzəjən parçalar, söz cuz'ləridir. Canlь dildə və onyn sərfində damarь və şəqilçini ajьrmak uçun вaşlьca əsas вydyr. Laqin вyrada iqi şərt vardьr:

1. Damardan ajrьlan şəqilçilərin вaşka damarlara da japьşa вilməsi.
2. Ejni damarьn вaşka şəqilçiləri ala вilməsi.

Məsələn: *jatak, вьçak, dajak...* sözləri damarla şəqilçijə ajrьla вilir: *jat+ak, вьç+ak, daj+ak...* Çunqu вy sözlərdən əldə edilən *jat, вьç, daj* jaxyd *daj* damarlarь **ar** şəqilçisini kəвyl edərəq *jatar, вiçər, dajar*; *mьş* şəqilcisini kəвyl edərəq: *jatmьş, вiçmiş...* qiвi şəqillərdə вylyna вilir. Ejni syrətlə, **ak** şəqilçisi də вaşka damarlara, məsələn: *dyr dyt* və ja *tyt* damarlarьna japьşarak: *dyrak, dodak* və ja *tytak* sözləri mejdana qəlir.

Laqin *irak, kylak, dyzak, yfak, yşak...* sözlərini вelə parçalara ajьrmak kaвil dejildur. Çunuq *ir,kyl, dyz, yf, yş* damarlarь azəri ləhcəsində işlənməz. Byrada səjləjənin şuyry, ən вəjuq ryhi, mikjasdьr. Joksa *tyz (dyz),yf* sözlərinə, mə'nasьna вakmajarak, hər halda məcвyri syrətdə вə'zi şəqilçilər yjdyrmak mumqundur.

22

Bir dili səjləjən adamьn zehnində вelə damardan ajrьla вilən şəqilçilərə **canlь,** ajrьlmajanlara **cansьz,**

olu dejilir. Bə'z səzlərdə cansьz вylynan şəqilçilər, diqərlərində canlь вylyna вilir və вil'əqis. Məsələn: jykarьda (21-ci paragrafda) qətirdiqmiz misallardan *jatak, dajak, вьçak* səzlərində **ak** şəqilçisi canlь вylyndygy halda, *yşak, yfak, dyzak* səzlərində cansьzdьr; jə'ni damardan ajrьlamaz. By hallar daha mufəssəl syrətdə ilәridəqi bəhsimizdə izah olynmakdadьr.

23

Bir az da, şəqli nəkteji-nəzərdən, azəri ləhcəsində вylynan səzlərdən bəhs etməlijiz; вy nəkteji-nəzərdən вy ləhcənin səzlərində вy kategorjalarь tapьrьz:

1. Nə səz japьcь, nə də səz dəjişdirici şəqilçiləri almajan səzlər: nida səzləri (*ax, vaj, haj, hej*.... qiвi) *və, ancak, qimi, nasьl* (*necə*), *laqin, amma, daha, dəxi, jenə, вəli* (*əvət*)... qiвi səzlər.

2. Həm səz japьcь, həm də səz dəjişdirici şəqilçiləri olanlar (Kalan səzlər).

Hind-Avropa dillərində, məsələn ryscada bə'z səzlər jalьnьz səz japьcь şəqilçiləri, bə'ziləri də, jalьnьz səz dəjişdiriciləri alьr. Birincilərə misal: *сильно, хорошо*... qiвi, rys sərfində *наречие* adlandьrьlan səzlərdir. Bynlarьn jerini dytan turqcələri hər iqi durlu şəqilçiləri ala вilirlər: *jaxşь, jaxşьlьk*,(ejidən) *ejiləşməq* qiвi səzlər japьla вilər. Iqincilərə misal: *я, ты, он* qiвi **zəmir** səzləridir qi, вynlara ryscada, mə'lym oldygy uzrə, jalьnьz səz dəjişdiricilər ilavə olyna вilir. Rys sərfi tə'вirilə dejəcəq olsak, *склонять* edilə вilir, Hal вy qi, turq-tatar dillərində *вən+cə, sən+cə, on+ca, вən+liq, sən+liq*... və ilәx. вaşka şəqilçiləri də ala вilər. Bynyn uçun вiz „Krьm tatar elmi sərfi"-ndə verdiqimiz tə'rifi təshih edərəq, вyrada səz kategorijalarьnь—sьnьflarьnь—iqijə ixtisar etdiq.

III. Səz japьcь şəqilçilər.

AZƏRI LƏHCƏSINDƏ CANLЬ BYLYNANLAR.

24

Azəri ləhcəsində вylynan вaşlьca canlь şəqilçilərdən вə'zilərini, damara verdiqləri mə'na ilə вirliqdə

qəzdən qeçirməlijiz. Belə həcimcə qərəqi kədər qeniş olmajan вir əsərdə вutun şəqilçilər uzərində mufəssəl syrətdə dyrmak mumqun dejildir; okycy şəqilçiləri вylmakdaqь usyl və вə'z numynələrlə aşna oldykdan sonra əlində вylynan materjalь вy syrətlə işlətməqdə çətinliq çəqməz.

25

Jakyt və çyvaşdan вaşlajarak, həmən вutun turqtatar ləhcələrində çok вol və canlь вir syrətdə işlədilməqdə olan səz japьcь şəqilçilərdən вirisi, ziqr etdiqimiz ləhcələrdə durlu sevti tərqiвdə вylynmakla вarabar Anadoly ləhcəsində **ci, çi,...** şəqillərində, azəri ləhcəsində daha zijadə **çi** və ja **çь** şəqlində вylynan şəqilçidur.

Lenin+çi, iş+çi, araвa+çь, kalaj+çь əqin+çi, qənt+çi, alver+çi, jalan+çь, tənkid+çi, ədəвijjat+çь.

Jykarьda qətirdiqmiz misallardan da qərulduqu vəch ilə вy şəqilçi səzlərə ilavə olyndykda, sənət (*araвaçь, kalajçь*), adət (*iftiraçь, jalançь*), əkidə (*leninçi, inkilaвçь*), nadirən də mənsyвijjət (*qəntçi—qəntli* jerinə) ifadə elər.

26

Jenə də ejni dərəcədə canlь və qeniş syrətdə jajьlmьş olan şəqilçilərdən вirisi də **liq, lьk** dьr.

Daş+lьk, dag+lьk, paltar+lьk, kьş+lьk, qəz+luq, agьz+lьk, qun+luq, dogry+lyk, eji+liq, turq+luq, rys+lyk, az+lьk, çok+lyk, sənə+liq.

By misallardan da qərunduqu qiвi вy şəqilçi, ilavə olyndygy damarlarьn son həcasьna qərə **lyk, luq, lьk, liq** şəqillərini alьr. Şəqilçinin damara verdiqi jeni mə'nalar o kədər muxtəlifdur qi, вynlarь hesaвa almak çok çətindur. By mə'nalarьn вaşlьcalarь:

a) Məhəl, mevke (*daglьk, daşlьk*). By səziəri *daşlь jer, daglь jer* dəjə tərcumə etməq mumqundur.

в) Məksəd və gajə (*agьzlьk, qəzluq, paltarlьk, donlyk* qəstərir qi, вy səzləri də *qəz uçun, don uçun* dəjə kəвyl etməq mumqundur).

c) Muddət, məsafə və mikdar (*qunluq, əmurluq, sənəliq, həftəliq, qirvənqəliq, arşьnlьk* qəstərir qi, *вir*

qirvənqə çəqisiolan, вir qun surən... dejə anlamak lazьmdьr)

ç) Mucərrəd sifət və xassələri вildirir: *dogrylyk, ejiliq, jamanlьk, ijitliq, saglьk, qəzəlliq...*

d) Qoma, qutlə və jyrd məfhymlarьnь ifadə edər: *ryslyk, turqluq, xristijanlьk, ləzqiliq, muəllimliq, qəncliq...* By mə'nasьnda şəqilçinin roly, turq-tatar ləhcələrinin Cənyв grypynda daha zijada işlənilən fars **stan** və ja **istan** şəqilçisinin jerini dytyr (*Turqustan, Əfganьstan, Hindistan.*.).

Bə'zən də mə'naca zajid olyr: *ipliq*, mə'nasь: *ip*.

e) Əvəz, вir şejin jerini dytan məfhymyny verir: *analьk, atalьk, kardaşlьk, evladlьk, karşьlьk...* By sözlər də ifadə olynan mə'na və məfhym (**b**) nəktəsində izah olynan ifadəjə jakьn isə də, вy nəktədə qəstərdiqimiz mə'nada şəqilçi əqsərijja ajiləvi adlara ilavə olynyr.

27

Li, lu, lь, ly. By şəqilçi əsqidən həmən вutun turq-tatar ləhcələrində, вy qun də Şimal ləhcələrinin вir çokynda, **liq, lьk** şəqlində вylynyr. Cənyв və Şimal şivələrinin вə'zlərində **liq** və ja **lьk**-ьn sonyndaqь **k, q** duşərəq, jeni вir şəqilçi mejdana qəlmişdir: **li, lu...**

Daglь, вaglь, kapalь, qirli, jaralь, qəncəli, qəntli.

Məsələn: өzвəjcədə ejni mə'na ilə вy sözlər вy şəqildə olyr:

Daglьk, вaglьk, kapalьk, qirliq, jaralьk, qəncəliq, qəntliq...

Turq dillərində, umymijjətlə çok artьk işləq olan вy şəqilçi, azəri ləhcəsində də çok canlьdьr. Işlənməsində вaşlьca iqi mə'nasь vardьr:

a) Bir jerə, вir şejə mənsyвijjət ifadə edər: *osmanlь, daglь, вagьlь, kafkaslь, karakojynly, agkojynly.*

в) Bir şejə maliqijjət mə'nasьnь verir: *вaşlь, devlətli, varlь, agьllь, вaxtlь.*

Qiz-li, də-li, вəl-li... qiвi sözlərdə **li** şəqilçisi damardan ajrьlamaz.

28

Lak, ləq şəqilçiləri azəri ləhcəsində çok az sözlərdə qərulur. Birincisi **məhəl, məqan** mə'nasьnь verdiqi halda, iqincisi **fail, hərəqətçi** mə'nasьnь ifadə edər.

Hər zaman jykarьdaqь misalda oldygy qiвi, hər iqi təsəvvur вir səzlə ifadə olynmaz; вə'zən вirisi, вə'zən də hər iqisi вir neçə səzlə ifadə olynyr. By hal, təsəvvurlərin вəsit olmajьв, murəqqəв oldygy zamanlarda vake olyr. By təkdirdə murəqqəв təsəvvuru təşqil edən вəsit təsəvvurlərin hər вiri səzlə ifadə olyna вilir, məsələn: „**daş**" hakkьndaqь təsəvvuru jalьnьz „daş" səzu ilə ifadə etməq mumqun oldygy qiвi, ejni zamanda, „*dərt qyşə qəsilmiş, ustu cilalь kara daş*" deməq də mumqundur. Byrada daşdan вaşka onyn şəqli, ustu, rənqi... hakkьndaqь təsəvvurlər də „**daş**" təsəvvurunə karьşmьşdьr. By вəsit təsəvvurlərdən murəqqəв вir təsəvvur mejdana qəlmişdir.

Səzlə ifadə olynan murəqqəв təsəvvurlər, dildə səz gryplarь mejdana qətirir qi, cumlənin вaşlьca kanyn və çizqilərini tədkikə qeçmədən əvvəl, вyndan вəhs etməlijiz.

A) Səz gryplarь.

4.

Jykarьdaqь paragrafda verdiqimiz mə'lymatdan səz gryplarь və ja səz tərqiвlərinin tə'rifini əldə etməq mumqundur. Bynlar ryhi, məntiki nəkteji-nəzərdən oldygy qiвi, şəqli nəkteji-nəzərdən də вir вutun, вir вirliq təşqil edərlər. Hər səz tərqiвini mejdana qətirən parçalar, unsurlər qərəq ryhi və qərəqsə şəqli nəkteji-nəzərdən вir-вirinə вaglьdьr. Ryhi, məntiki tərəfdən вelə murəqqəв təsəvvurlər, hej'əti-umymisi ilə, вir səz qiвi **xəbər** və ja **mubtəda** ola вildiqləri qiвi вir təq səz qiвi şəqilçilər ala вilir.

1) *Dərt qyşə qəsilmiş, ustu cilalь kara daş* (*lara rast qəldiq*)

2) *Dərt qyşə qəsilmiş, ustu cilalь kara daş* (*lardan вin коку, çьkьrdь*) *və iləx.*

By səz grypyny təşqil edən səzlərin mə'na e'tiвarilə həp **daş** səzunə вaglь oldygy qiвi, şəqilçiləri ilə də вir-вirinə вaglь вylyndygy aşqar syrətdə qərulməqdədir.

5.

Turq dilində, səz gryplarьnьn taвe oldygy umymi kanynlar vardьr:

Birinci kanyn: вir səz grypy, şəqilçi aldьgь zaman вy şəqilçi səz grypynyn sonyna ilavə olynyr; вy grypa qirən вaşka səzlərdə вy şəqilçini teqrar etməq lazьm qəlməz:

1) *Atamьn evi, atamьn evində..*

2) *Atamьn ijirmi il вyndan* (*myndan*) *əvvəl tiqilmiş evi, evində, evi ilə, evinə....*

6.

Iqinci kanyn: вir səz grypy içində əsasi səz sonda və iqinci dərəcədəqilər ondan əvvəl вylynyr; вaşka

səzlə, bir səzun mə'nasьnь tamamlajan səzlər ondan əvvəl qəlir. By kajdanьn bir neçə cur təzahuru vardьr:

a) Sifət mevsyfdan, jə'ni sifətin ajid oldygy isimdən əvvəl qəlir; daha yjgyn tə'birlərlə səjləməq istərsəq, tə'jin edici səz (*Le determinant, определение*), tə'jin olynan (*Le determine, определяемое*) sozdən əvvəl bylynyr.

Kьzьl bajrak, basma qitab, boş ev, çalьşkan yşak, atamьn məqtybы, sy başь, cyma ertəsi.

b) Mutəmmim xidmətini qərən səz (*Le complement, дополнение*), tamamlanan səzdən (*дополняемый*) əvvəl qəlir:

Byndan (myndan) sonra, byndan (myndan) başka, başa duşməq, dalьnca qetməq, başa salmak, bir ev kajьrmak..

c) Mubtəda (*Le sujet, подлежащее*), xəbərdən (*le predicat-сказуемое*) əvvəl qəlir:

Əli qetdi, Əhməd jazdь, by qun şənbə, atam xəstə.

Ixtar: By kanynlardan, bə'zi turq dili sərfi jazmьş olan muəlliflər, fe'lin həmişə cumlənin və ja səz grypynyn sonynda bylynacagьnь istixrac etməqdədirlər. Hal by qi, belə iddiada bylynmak turq dilinin kyrylyşyny və iste'malьnь nəzəri-e'tibara almamak deməqdir. Turqcədə feillər mubtəda oldygy qibi, isimlər də xəbər ola bilir, ona qərə feillər, səz grypynyn başьnda bylyndygy qibi, isimlər sonynda jerləşə bilir.

7.

Uçuncu kanyn. Bir səz grypynda butun iqinci dərəcədəqi unsurlər, əsasi unsurlərin ənundə bylynyr. Byna qərə tamamlajьcь cumlələr də əsli cumlələrin ənundə bylynyr.

8.

Səz gryplarьnьn, mə'na e'tibarilə də, bə'zi nev'ləri qəstərilməqdədir. Indijə kədər jazьlan sərflərimizdə isim və sifət bəhsləri adi ilə ancaq by nev'lərdən bəhs edilmişdir. Cumləni—ejni zamanda şəqli xusysijətləri olmasь dolajьsilə ajrь bəhs japarsak, başlьca iqi gryp vardьr:

1) Tə'jini gryp *(groupe determinatif)*,
2) Isimlər grypy (*groupe appositionnel*).

9.

Tə'jini gryp, bir „tə'jin edici", bir də həmişə byndan sonra qələn, „tə'jin olynan" unsurdən təşəqqul edər; məsələn: *juqsəq ev, yzyn jol, səzun dogrysy, malьn ycyzy...*

10.

By grypda iqi kьsьm vardьr:

1) bə'zən sifət ifadə edən bir səz iqincisini tə'jin edər: (juqsəq ev, yzyn jol...)

2) birinci səz iqincinin mutəmmimi xidmətini qərur (səzun dogrysy, malьn ycyzy, atamьn evi)

Bynlardan birincisinə sərf qitablarьmьzьda **tərqibi-tevsifi**, iqincisinə **tərqibi-izafi** və ja sadəcə **izafət** dejilir.

11.

Sifət xidmətini turqcədə muxtəlif səzlər qərə bilir:

a) *Bşьk otak, qəsqin bьçak, kьzьl bajrak, agьllь adam.*

b) *Qələn musafir, ytanan tələbə, çalьşkan yşak, pişmiş mejvə.*

c) *Kara dag, sarp jer, Ag dəniz, qəzəl kьz, cavan adam.*

ç) *By qişi, o qitab.*

d) *Bir qecə, bir az pyl, bir neçə adam, juz nəfər, min manat.*

By misallarьn tədkikindən də anlaşьlacagь uzrə isimlər belə jerdə işlədilməzlər.

12.

Hər nə kədər, jykarьdaqь paragraflarьmьzda qəstərdiqimiz qibi, səz gryplarь təşqil edən səzlərə ilavə

olynan şəqilçilər jalьnьz son sözə ilavə olyna вilirlərsə də, tə'jin olynan sözdən kaвakca qələn tə'jin edici sözlər şəqilçisi də ola вilirlər, вaşka cur dejəcəq olsak, söz japьcь şəqilçilərə maliq sözlərdən „tə'jin edici ola" вildiqi qiвi (qəsqin, çalьşkan..), söz dəjişdirici şəqilçilərə maliq sözlərdən də ola вilir:

Dəmirdən вir kaşьk, daşdan uräq, altьndan вiläziq, daş вasmasь qitaв, mində вir adam, üçu ag, dördü kara, jeddi top kумaş (çyxa).

Laqin вy söz gryplarьna şəqilçi ilavə olyndygy, jə'ni təsrif olyndygy zaman jalьnьz son söz, „tə'jin olynan" dəjişiв, grypyn вaşka unsurləri dəjişilməjir.

13.

Izafət halь, jykarьda da dediqimiz qiвi, iqi sözun вir вirini tamamlamak uçun „muiq zəmiri" şəqilçiləri ilə вir вirinə вaglanmasь və вy syrətlə вir gryp təşqilidir. Əsasən izafət halь mulqijjət əlakəsindən вaşka вir şej dejildir:

Əhmədin qitaвь, işin qedişi, вrmagьn syjy, dənizin qənarь, ətin kokysy.

Ојərəq **in,ьn**, qərəqsə **i, ь, ji, jь....** şəqilçilərinin zəmir şəqilçiləri oldygyny şəqilçilər вəhsində qərmuşduq.

By şəqil, ən çok tam və murəqqəв olmakla вaraвar. hər zaman işləməz. Jakyt ləhcəsindən Anadoly ləhcəsinə kədər həmən вutun ləhcələrdə daha muxtəsər вir şəqilçili gryplar təşəqqul edə вilər:

1) *dəniz qənarь, dag вaşь, cənq mejdanь, ət kokysy....*

2) *Bizim ata, sizın konşy...*

Misallarьmьzdan qərulduqu qiвi вirinci unsurun şəqilçisi həmən вutun sözlərdə duşə вilir. By təkdirdə söz grypynyn mə'na və şəqli вir dərəcəjə kədər dəjişmiş olyr. Şəqilcə fərk вydyr: hər iqi unsur və ja kьsьm, şəqilçi aldьgь zaman həm вirinci, həm də iqincisi cəm' ola вilir; hal вy qi, jalьnьz iqinci unsur şəqilçi aldьgь zaman cəm' şəqılçisini iqisi вirdən alamaz:

1) *Ьrmagьn syjy, dənizin qənarь, ьrmaklarьn sylarь, dənizlərin qənarlarь.*

2) *Dəniz qənarь—dəniz qənarlarь, dənizlər qənarь:*

Iqinci halda grypyn ifadə etdiqi mə'na daha çok qenişdir. Iqinci unsurun şəqilçisi jalьnьz zəmir sözlərindən sonra duşə вilir.

14.

Iqi və ja daha çok isimdən murəqqəв olan grvpa **isimlər grypy** dejilir.

By ne'v söz gryplarьnьn əzunə qərə xusysijjətləri vardьr:

a) isimlərin gryp içindəqi tərtiвi вə'zi hallarda ixtijaridir;

b) вy isimlərin arasьna şəqilçilər daha çok asanlьkla daxil olyna вilir;

c) вy gryplar, həmişə вir şəxs və ja onyn hər hansь вir xassəsini вəjan edərlər.

15.

Isimlər grypy turqcədə ən azь, iqi sözdən mejdana qəlir qi, вynlardan вirisi **ismi-xas** oldygy, diqəri onyn ictimai, rəsmi вir sifətini вəjan edər; məsələn:

Joldaş Əhməd
Syltan Səlim
Məarif komisarь Əlijef
Muəllim Əfəndi-zadə

Ejni syrətlə:

Əhməd joldaş
Səlim Syltan
Nəsrəddin şah

ola вilir.

B) Mubtəda, xəвər və ilavələr.

16.

Cumlə təşqil edən söz grypy həmişə вir **həqm** ifadə edər. By syrətlə həqumdə iqi təsəvvur вylyndygy qiвi, cumlədə də **mubtəda** (*Sujet, подлежащее*), xəвər (*predicat, сказуемое*) вylynmak lazьm qəlir. Laqin

heqmu təşqil edən hər iqi təsəvvurun ifadə olynmasь şərt olmadьgь qibi, bə'zən bir sözlə də cumlə təşəqqul edə bilir

17.

Cumlənin iqi muhum unsuru var, deməqdir: **mubtəda** və **xəbər**. Xəbər həm feillərdən, həm də isimlərdən japьlьr. Birinci halda cumləjə **feil cumləsi**, iqinci halda **isim cumləsi** dejilir. Xəbər daima cumlənin sonynda bylynyr.

Mubtəda, isimlərdən və feildən muştəkk, zaman ifadə etməjən sözlərdən japьlьr. Mubtəda, ja cumlənin başьnda və ja başьna jakьn bir jerdə, bylynyr. By kəjda jə'ni mubtədanin əvvəl, xəbərin sonra qəlməsi çok az hallarda nəsirdə, laqin xusysən şeirdə pozylyr.

„Şirvanьn jastь joly,
Sy qəldi basdь joly,
Qedirdim dost qərməqə
Zalьmlar qəsti joly"

18.

Jykarьda səjlədiqimiz qibi cumlədə hər zaman həm mubtəda, həm də xəbər bylynmaz. Əqər mubtəda ilə xəbər hər iqisi cumlədə sözlə ifadə edilmiş olyrsa, belə cumlələrə **tam cumlə** (*полное предложение*) dejilir.

Əqər xəbər, və ja mubtədadan birisi ifadə edilmiş isə, by nev' cumlələrədə **nakis** və ja **əqsiq cumlə** (*неполное предложение*) dejilir.

Məsələn *„jangьn"*, *„ilan!"*, *„javaş!"*, *„çabьk!"*... qibi çok dəfə canlь dildə işlənən sözlər həp nakis cumlələrdir. Nakis cumlələrə, çok dəfə ədəbijjatьn pijes, və şeir nev'lərində rast qəlinir.

19.

Cumlələri, byndan başka, bir də **əsli** və ja **bas cumlə** (*proposition independante, главное предложение*) və **tabe cumlə** (*proposition subordonnée, придаточное*

предложение) dejə iqi kьsma ajrьlьz qi, bynlar hakkьnda aşagьdaqь paragraflarьmьzda pejdərpej mə'lymat veriləcəqdir.

20.

Turqcədə, cumlədə bylynan unsurlər bynlardan ibarətdir.

1) Xəbər, 2) mubtəda, 3) ilavələr (mustəkim, gejri mustəkim), 4) tə'jini unsurlər.

Bynlarьn hansь sözlərdən ola biləcəqlərini qəstərə biliriz:

1. Xəbər: fe'lin şəxsləri havi şəqilləri və isim və bə'zən fe'lin ismi olan şəqilləri, isim cumlələri uçun.

2. Mubtəda: isim və fe'lin isim jerində işlənən şəqilləri.

3 Ilavələr: mustəkim və gejri-mustəkim ilavələr (isimlər, feillərin ismi şəqli), zərflər, isimlər, feillərin ismi şəqli, feillərin zərfi şəqli.

4. Tə'jini unsurlər: ismlər, və feillərin ismi şəqilləri.

Ixtar: Xəbər və mubtədanьn, daha muəjjən və açьk olan əcnəbi karşьlьklarьnь jykarьda mə'tərizə içində qəstərdiq. „Ilavə" sözunu, rysca *„дополнение"*, fransьzca *„Complement"* jerində, „tə'jini" unsurlər sözunu də rysca *„определение"* fransьzca *„determinatif"* jerində işlədiriz.

21.

Xəbər şəxsli feillərdən birisi oldygy zaman, cumlə fe'li, isim oldygy zaman da „ismi" tə'bir olyndygyny söjləmişdiq. Ismi cumlələrdə xəbər, ja bir isim, sifət, və ja fe'lin ismi şəqillərindən birisi ola bilir:

a) Sifət olyr:

Karьna qedən kazancdь. Danьşmak qumuş olsa danьşmamak kьzьldьr. Əl-əldən ətqundur, ustundur. Dil sumuqsuz olyr.

b) Isim olyr:

Hər kyş öz jyvasьnьn agasьdьr.
El ilə kara qun bajramdьr.
Əvvə oldaş, sonra jol.

Kəssaв jag dərdində, qeçi can dərdində.
Əli evdəmi? Xəstəmisən?

c) Zəmir olyr:

By yşak mənimdir.
Hamьsь sizin uçun.
Byny japan mənəm.

22.

Cumlə fe'li oldygy zaman, xəвər həmişə şəxsli вir feildən ibarətdur. By feil, murəqqəв, və ja вəsit ola вilir:

Məqtyвy jazdь, postaja saldь.
Bizə kalmamьzь təqlif etdilər.

Umymijjətlə feil mufrəd halьnda вylynyr. Laqin muвtəda gejri- muəjjən oldygy zaman cəm' halьnda вylyna вilir.

23.

Muвtəda jerini cumlədə, umymijjətlə hal şəqilçiləri ala вilən sözlər dytarlar.

a) Əsil isimlər və isim qiвi işlənən sifət sözləri:

Yşak qərduqunu qəturər.
Qloz qərməz, uz ytanmaz.
Qor qory tapar, sy çyxyry.
Korky daglarь aşьrьr,
Acьn karnь dojar, qəzu dojmaz.
Zor ojyny pozar.

b) Feil şəqillərindən hal şəqilçiləri ala вilənləri:

Jeməq jaşamak uçundur, jaşamak jeməq uçun dejil.

Ələn canьnь kyrtarьr, jazьk kalanьn canьna.
Itqi itirən sorak edər.

24.

Bə'zi hallarda cumlədə muвtəda ajrьca ifadə edilməmiş olar; вy da şəxsi zəmirləri olan feillərlə cumlələr təşəqqul etdiqi zaman vake olyr: *qedirəm, qetdim, jazacagam...*

Ifadə kuvvətli və açьk olmasь uçun, вə'zən zəmir təqrar olynyr: *mən qetdim, sən demişsən!*

Bə'zi fe'illər, turqcədə uçuncu şəxslə işlədiqləri zaman ajrь sözlə muвtəda almazlar:

Olmadь, olar, olmaz; вitdi-qetdi, qeçər, jetişər, jetər, istəməz...

25.

Jykarьda (pargraf 20) cumlədə вylynan unsurləri qəstərmişdiq. By unsurlərin az-çok kət'ijjətlə taвe oldygy вir tərtiв vardьr:

a) Umymijjətlə cumlədə вylynan ilavələr xəвərə təəlluk edər. Bynyn uçun cumləni iqi gejri-musavi grypa ajьrmak mumqundur. By grypda вir hədd, вir tərəf „muвtəda" diqər tərətdə ilavələr ilə вaraвar „xəвər" dir. Byna qərə turqcədə cumlələrdəqi mumqun olan tərtiвi вy sxema ilə qəstərməq mumqundur:

Xəвər grypy.

Muвtəda + Ilavələr + Xəвər.

b) Ilavələrə qəlcəq olyrsak, вynlarьn da özlərinə maxsys sьrasь vardьr:

1) Vakt və zamar raвitə və ja zərfləri.
2) Gejri-mustəkim ilavə,
3) Mustəkim ilavə.

Deməq qi, вutun cumlə вy tərtiвdə olyr:

Xəвər grypy.

Muвtəda + vakt və zaman ilavələri + gejri-mustəkim ilavə + mustəkim ilavə + xəвər.

c) Canlь danьşьkda, səjləşmə əsnasьnda вy tərtiв вy şəqli də ala вilir:

Vakt zaman ilavələri + muвtəda + başka zaman və məqan ilavələr + gejri-mustəkim ilavə + mustəkim ilavə + xəвər.

Misallar:

1. *Məqtəbimiz dərt ajlıq tə'tildən sonra, bу qun açıldı.*

Babam, iqi aja istirahətə qetdi.

Mən sizə jarın qitabı qəndərərəm.

2. *Posta, qeçən şənbə qunu bizə çok kijmətli xəbərlər qətirdi.*

Şair, həssas bir dimaga, kuvvətli xəjala maliq olan adamdır.

Konşymyz, mumqun oldygy təkdirdə, evini dəjiş-dirməq nijjətindədir.

3. *Qeçən həftə, sijasət aləmində bəjuq vək'ələr olyb qeçdi.*

Dun qecə şiddətlə jagan jagmırdan əqinlər çok zərər qərdu.

Byrada, vaqtilə kijmətli əsərlər jazmış koca bir ədib jaşajır.

Ixtar: turq dilində dikkət cəlb edilməq istənilən ilavələr, xəbərə jakın işlənir.

ç) Tabe cumlələr (*придаточное предложение, proposition subordonnees*).

26.

Turqcədə, dilin əsas kyrylyşy nəzəri e'tibara alınacak olyrsa, tabe cumlələr az bylynyr. Cumlənin tali kəsimlarını, dajima feil, muştəkkləri [1]) baş cumləjə baglar; məsələn:

Qişi əqdiqini biçər.

*Jagış **jakdıqca** jer qəjərir.*

*Sabahları açıq havada **qəzinməqdən** çok xoşlanıram.*

Saatda juz qilometro sur'ətlə jurujən trenlər japıldıqdan sonra dunjanın muxtəlif parçaları bir-birinə daha zijadə jakınlaşacakdır.

*Jol **qetdiqcə** yzanır.*

By nev' cumlələri, Hind-Avropa, və ja sami dillərinə tərcumə etdiqimiz zaman, byrada luzymyna qərə iqi uç, dərt, hətta beş tabe və əsli cumlə mejdana qələcəqdir. By misallardan da qərulduqu uzrə turqcədə rabitə şəqilləri tabe cumlələr jerinə adi tamamlıqlar, ilavələr mejdana qətirir.

[1]) Professor Deni bу şəqildəqi tabe cumləni *„quasi propositions"* adlandırırsa da, bizcə bу xusysi və ajrı bir sifəti tə'min etməqdən başka bir şej dejildir.

27.

Tabe cumlələr, ejni zamanda, **sa, sə** şəqilçiləri ilə japılan fe'il şəqilləri ilə də mejdana qetirilir:

Mən qetsəm, sən kalırsan.

Nə desəm, jalan olyr.

Sozunu dinləməzsə israr etmə!

Şərt mə'nası ilə baglanan cumlələr **mi-mı**... ilə də jazılır: *aldınmı qet! bir söz söjlədinmi kızır.*

28.

Əcnəbi dillərdə — fars, rys-səjləşən xalklara konşy olarak jaşajan turq ləhcələrində bу dillərin nəhvi tə'sirlərini muşahədə ediriz: bу şəqillərdən bir çoky danışıq dilində, canlı dildə özunu qəstərirsə də, **qi** baglamasilə bir-birinə baglanan tabe və əsli cumlələr şəqli əvəldən bəri ədəbi dilimizdə işlədilir.

*Qəsilsin iqi əl **qi**, bir baş saxlamır.*

*Bir zad dedi **qi**, ona cavab verəq.*

*Mənim əlimdən nə qəlir **qi**, sənə qöməq verəm.*

*Iqi ildir **qi**, mənimlə dostlıq binası kojyblar.*

*Mənə bir uz qəstərdilər **qi**, dedim bynlar mənim jolymda canlarından da qeçərlər.*

„Hanqısı, hansı qi" („Şimalda" **kajsı, kangı**) qibi baglamalar ilə japılan murəqqəb cumlələr, dediqmiz qibi jalınız danışıq, söjləşmə dilində işlənir.

29.

Jenə Hind və Avropa dillərində oldygy qibi, birbirinə baglı bylynan cumlələr arasında cins və qəmijjət e'tibarilə mutabəkət bylynmaz. Jalınız hallarda yjgynlyk vardır. Byndan başka şəqilçilərin ixtisarı qərulur; məsələn:

Byrakır qedirsin. Jazar kyrtylyrsyn.

Qəlsə, qörsə idin. Varar, qərurum.

Bir qun qedər, iqi qun qedər, uçuncu qunu jorylar, xəstələnirsən. Kaрьnьn ənundə вəjuq вir gələвəliq toplanmьş, qimi вagьrьr, qimisi quluşur, qimisi də lakejdana dyryrdy.

Bу misallarь qəzdən qeçirəcəq olyrsak, вyrada zəmir şəqilçilərinin (**sin,-sən**... **im,-əm**...) iqi və daha zijadə xəвərçidən jalьnьz sonyncysynda вylyndygyny qəruruz. Ejni syrətlə feil—zaman şəqilçiləri də вelədir (*di*).

30.

Turqcə səzlərdə cins (erqəqliq, dişiliq) qəstərilmədiqindən cumlədəqi səzlər arasьnda cinsi mutaвəkət вylynmaz. Jalьnьz ərəв və fars kajdasь uzrə japьlan tərqiвlərdə вyna dikkət olynyr:

Facieji-muəllimə, umyri-carijə, məsə'əleji-muhummə, əhvali-gəriвə.

Bу cur tərqiвlərin ədəвi dilimizdən son zamanlarda çьkarьlmasь nəticəsində, artьk, вir az sonra, turqcə səjləjən və ja jazan, вy tərqiвlərə rast qəlməjəcəqdir.

31.

Hind və Avropa dillərində sifət ilə mevsyfyn (və ja вizim tə'вirimizcə tə'jin edici ilə tə'jin olynanьn) əvvəl və sonra qəlməsi mumqundur. Çunqu muəjjən şəqilçilər vasitəsilə hansьnьn tə'jinçi, hansьnьn tə'jin olynan səz oldygyny çok qəzəl qəstərməq mumqundur. Hal вy qi, turqcə muhəkkək sifət, mevsyfdan; tə'jinçi, tə'jin olynandan... iləx. əvvəl qəlməlidur, Çunqu вynlar arasьndaqь raвitə ajrь şəqilçi ilə (məsələn ryscada *прилoжительн.* şəqilçiləri) ifadə olynmadьgьndan və cinsi, qəmmi yjgynlyk, mutaвəkət вylynmadьgьndan, tərqiвdə, səz gryplarьnda, cumlələrdə səzlərin jerlərini dəjişdirməq mumqun dejildir; məsələn:

Pis hava, dərin çykyr, akar sy, çalьşkan tələвə, hazьr jeməq...

Səz gryplarьnь, ja tərqiвlərini çevirərəq:

Hava pis, çykyr dərin, sy akar, tələвə çalьşkan, jeməq hazьr... syrətlərinə çevirərsəq, вynlar arasьndaqь

munasəвət tamamilə вaşka cur olyr, jə'ni mustəkil cumlələr mejdana qəlir.

Qəmijjət (cəm və mufrəd) cihətincə də çok dəfə muвtəda ilə xəвər вir-вiri ilə mutaвəkət etməz:

Jagmьrlar jagdь, nicə вaharlar olyв qeçdi, onlar вir daha qəruşmədi.

Hadisələr qetdiqcə, tərsinə inqişaf edir.
Bу şejlər ona xoş qəlmədi.
Aglь вaşьnda olanlar вy cur iş qərməz.

C. Hal şəqillərinin cumlədə işlənməsi.

32.

Mucərrəd (*nominatif*) halьndaqь səzlər, cumlədə muвtəda və xəвər ola вilirlər; вyndan вaşka (şəqilçisiz məf'yl halьnda) cumlədə tə'jinçi ilavə də təşqil edə вilərlər. Ejni syrətlə şəxsi zəmirləri də, şəqilsiz olarak işləndiqi zaman, jalьnьz muвtəda və xəвər ola вilirlər:

At ølur mejdan kalьr; ijit ølur, şan kalьr.
Mən xəstəjim, sən korkaksan.
Duşmənin qimdir?
Byrada вostan məhsyly çok olyr.
Atьn ølumu, itin вajramьdьr.

33.

Muzafun ilejh (*genetif*) halь cumlədə həm xəвər, həm də tə'jinçi ilavə olarak işlənir:

Bу ev konşymyz Əhmədindir.
Bу jazь qimindir. Bу hədijjə sənin uçundur.
Malьn jijəsi, yşagьn atasь.
Çajьn daşь, çølun kyşy.
Aganьn malь qedir, nøqərin canь.

34.

Şəqilçili və ja şəqilçisiz, məf'ylun вih (*accusatif*) halь, cumlədə, umymijjətlə mustəkim və gejri-mustəkim ilavəni təşqil edər.

Onlar xьrsьzь qərmədilər,
Hər sakkallьnь atan sanma.

Əhməd, avçılarь çagьr, qəlsinlər.
Syjy qərmədən, papьçьnь çьxartma.

Ixtar: Qlərəq muzafun ilejh, qərəq məf'ylun вih hallarь həm şəqilçili, həm də şəqilçisiz ola вilirlər:

1. *Çokdan вəri вaş agrьsь çəqirəm.*
Jeni devr muəllimi iş məqtəвi əsaslarь ilə aşna olmalьdьr.
2. *Qlөzəl вir qəzinti japdьk.*
Olacaga çarə olmaz.
Əhməd atasьna yzyn вir məqtyв jazdь.

Hər iqi sьrada qəstərilmiş misallarda şəqilçisiz muzafun ilejh (*вaş agrьsь, iş məqtəвi, jeni dəvr muəllimi, iş məqtəвi əsaslarь*) və məf'ylun вih (*qəzinti, çarə, məqtyв,*) hallarьnь qəruruz. Şəqilçili və şəqilçisiz işlənən вy hallarda, təвii, səzun ifadə etdiqi mə'nalarda fərk vardьr. Şəqilçisiz muzafun ilejh, daimiliq və umymiliq mə'nasьnь verdiqi qiвi, şəqilçisiz məf'ylun вih, gejri-muəjjən' ilavə' (*неопределенное допол.*) təşqil etdiqi halda şəqilçili məf'ylun вih muəjjən ilavə təşqil edər; məsələn: *Əhməd atasьna məqtyвy jazdь* cumləsindəqi *məqtyв* səzu ilə *Əhməd atasьna məqtyвy jazdь* cumləsindəqi *məqtyвy* səzlərini mukajəsə ediniz! By nev' kyllanьlьş, ərəв ərin **mə'rifə** və **nəqrə** ajьrmalarьna karşьlьk qəlir.

35.

Məf'ylun ilejh (*datif-дательн.*) halь, cumlədə gejri mustəkim ilavələr mejdana qətirir:

Jarьn jara sokatь, вir dəstə вylak oty.
Pişıqə ojyn, sьçana өlum.
Evə qedirəm.
Byrada çok kalmaga qəlməz.
Kazan daşanda çөmçənin вiri вir altьna dəjər. Neçəjə aldьnьz? Haraja qedirsiniz? Qimə dedin? Nəjə qetdi?
Tənвələ iş вyjyr, sənə agьl өjrətsin.

36.

Məf'ylun fih (*Locatif—Местн.*) halьnda вylynan sözlər, zaman və məqana ajid gejri-mustəkim ilavələr mejdana qətirirlər.

„Jatma tulqu daldasьnda, koj jesin arslan səni!"
Qlətirəndə el qətirər, jel qətirər, sel qətirər,
Aparanda el aparar, jel aparar sel aparar.
„Cucəni pajьzda sajarlar."
Majьsьn on вeşində havalar isti olmaga вaşladь.
Jeddi il dokyma jaвrikasьnaa fəhləliq etmiş.
O vaktlarda вiz daha yşak idiq.
By өlqə xalkьnьn juzdə doksanь xəstədir.

37.

Məf'ylun ənh (*exessif-исход.*) halь da cumlədə gejri-mustəkim ilavə olarak işlənir. By şəqildə вylynan ilavələr, məhəl—məqan, səвəв, ajidijjət, mənsyвijjət... qiвi durlu mə'nalar ifadə edər. Bynyn uçun turqcədə əcnəвi dillərdə və ja вil'əqis, əcnəвi dillərdən turqcəjə tərcumə edərqən, вy şəqilçinin haralarda işlənə вiləcəqini qəsdirəmq ajrь вir təcriвə və вilqijə вaglьdьr.

Əhməd, вizim kohymlardandьr, вizim şəhərdəndir.
Pəncşənвənin qəlişi, çaharşənвədən вəlli olyr.
Çajdan-zaddan qөturun, için; вir az acьgьnьz sojysyn.
Başdan aşagьja jalan sөjləjir.
Onyn qəliв qəlmijəcəqından xəвər dyt.
By iş məndən asьlь dejil.
Birinci səhifədən вeşincijə kədər okydym.
Bir-вirindən qөzəl iqi at вagьşladь.

Ixtar: Mukajəsə dərəcəsi (*сравнительн. степень*) вy şəqilçi ilə (dan-dən) japьlьr:

Өfqə вaldan dadlь. Agьl agьldan ustun. Əhməd Həsəndən cəsyr.

Ç. Feildən japma şəqillərin işlənməsi

38.

Raвitə adi ilə ziqr etdiqimiz feil da.:arlarьndan təşqil edilən şəqillərin turq nəhvində çok вəjuq roly

vardır və bynyn uçun də qeniş syrətdə işlənir. By şəqillərin erində Hind və Avropa və sami dillərdə, jykarıda da səjlədiqimiz qibi, çok dəfə mutəmmim və iqinci dərəcədə cum ələr işlənir.

39.

By şəqillərdən bə'ziləri zaman ilə muəjjən və mufid hərəqətləri bəjan edərlər. By nev' şəqillər iqidir: 1) mazi və 2) istikbal mə'nasını verən feil şəqilləri.

Birincisi **diq, dık**... şəqilçiləri ilə mejdana qətirilir. Butun hal və zəmir şəqilçilərini kəbyl edə bilir.

Dogdygyna paşiman.
Qəldiqimi xəbər etməjiniz.
Jazmadıgını bilirəm.
Sizdə qeçirdiqimiz bajram məndə ynydylmaz xatirələr byrakdı.

Iqincisi **acak-əcəq** şəqilçiləri vasitəsilə japılır; ejni syrətlə həm hal, həm də zəmir şəqilçilərini alır.

Boş-boşyna qəzəcəqimə qitab okyr, istifadə ejlərim.
Sizə səjlənəcəq bir şej jok.
Indi sizə bəhs edəcəqim məsələ çok muhumdur.

Byndan başka hər iqi şəqilçi, ejni zamanda tə'jinçi xidmətini qərurlər.

Varmadık jer, səjləmədiq söz, qəruləcəq bir şej, jazılacak bir mevzy'...
Qəzlədiqmiz nəticə, qələcəq il.

40.

Qlərəq **acak, əcəq**, qərəqsə **diq-dık**... şəqilçiləri ilə mejdana qələn şəqillərin cumlə içərisində alacagı butun vəzijjətləri byrada təfsil etməq mumqun dejildir. *Etdiqi qibi, edəcəqi qibi, etdiqdən sonra* şəqillərdə biz bəjuq bir xusysijjət qərmədiqimizdən, ajrıca bəhs etməqə hacət qərməjiriz.

41.

Mə-ma şəqilçiləri ilə mejdana qətirilən feil sözləri cumlədə, zəmir və hal şəqilçilərini kəbyl edər. Jalınız

zəmir şəqilçiləri ilə bylyndygy zaman xəbər, mubtəda oldygy qibi, hal şəqilçilərini alarak „ilavə" jerini dytar.

Xəbər: 1) *Məni ən çok təəccubə salan onyn by kədər qeciqməsidir.*

Mubtəda: 2) *Qlirməsi asan, çıkması çətindir. Ljidin ytanması, ölməsi.*

Ilavə: 3) *Hərəqət etməq uçun onyn qəlib çıkmasını qözlədiq.*

42.

Mak, məq hal şəqilçiləri almadıgı zaman, mubtəda və xəbər ola bildiqi qibi, hal şəqilçiləri ilə barabar **ilavələr** mejdana qətirir.

Mubtəda: 1) *Söjləməq asan, japmak çətindir.*
Xəbər: 2) *Məksədimiz, qulməq əjlənməqdir.*
Ilavə: 3) *Bir dəkikə belə həkikəti söjləməqdən qeri dyrmadık.*

43.

Bynlardan başka bə'zi rabitələr daha vardır qi, murəqqəb cumllələr mejdana qətirirlər və ja muxtəlif bəsit cumlələri bir-birinə baglamaga xidmət edərlər:

a) Yp-up, jyp-jup...

Məsələnin əslini bilməjip səzə karışmak xəfif məşrəbliqdir.

Oglyny bazara qəndərip özü evdə kaldı.

b) „Arak-ərəq", "jarak-jərəq":

Avropada icra etdiqi yzyn və elmi sijahətlər əsnasında daimi işyrətdə tədkiklərdə bylynarak, jeni və muhum nəticələr əldə etməqə muvəffək olmyşdyr.

c) qən, qan:

Evdən çıkıb məqtəbə qedərqəu jolda muəllimimizə rast qəldim.

ç) Madan-mədən, maksızın-məqsizin.

Məsələni ətraflı syrətdə bilmədən, by xusysda kət'i bir fiqir bəjan etməq kabil dejildir.

Insan, sənajein son zamanlarda qəstərdiqi xarikələri өz qəzu ilə qərməqsizin, nə kədər qeridə kaldьgьmьzь qəsdirəməjir.

d) ьnca-incə, „ьncaja kədər" „incəjə kədər", dьkca-diqcə...

Kara kьz вəzənincəjə kədər toj əldən qedər.
Agьllь fiqir edincəje kədər, dəlinin ogly olar.
Musafiriniz qedincə, вizə xəвər eləjiniz, qələriq.
Illər qeçdiqcə,, kocaldьgьmь dyjyram.
By yşak вəjuduqcə, tənвəl olyr.

44.

Sa-sə şəqilçiləri ilə mejdana qətirilən feil sözləri, jerinə qərə вir çok vəzifələr qərur. Biz вy paragrafьmьzda вy vəzifələrin jalьnьz вaşlьcalarьnь misallarla işarət edəcəjiz,

1) *Heç olmazsa, jyrdyma dənsə idim də, kohym kardaşьmь qərə вilsə idim.*

2. *Sy olmazsa hejvan. insan, otlar jaşajamaz.*

3. *Əqər вizə karşь zərrə kədər hərməti olsa idi вir qərrə xatьrьmьzь sorardь.*

4. *Daima fəkirliqlərindən şiqajət edirlərsə də, zevku-safa içində vakt qeçirirlər.*

5. *Mən вy jerləri nə vakt qərəcəq olsam qeçmiş-өmrum jadьma qəlir.*

45.

Cumlələri „cumleji-əslijjə və ja вaş cumlə" **„cumleji-mutəmmimə**—tamamlajьcь cumlə" qiвi kьsьmlara ajьrmak, indijə kədər qərdrqumuz qiвi şəqil cihətindən çok təвii isə də, „cumleji-səвəвijjə" „cumleji şərtijjə" **„cumleji-mə'tərizə**"qiвi nevlər daha çok mə'na və təfərruat uzərinə kyrylmyş təsniflərdir. Turq dilinin nəhvi əsaslarь qərəqi qiвi işlənincəjə kədər, şuвhəsiz вy təksimə daha riajət etməq məcвyrijjətindəjiz. Necə qi, rys və sajir xalklarьn nəhvlərində də вy cihətlər, вy qiвi təsnif hələ kalmakdadьr.

Nəhvi təhlil.

Tələвələri, ən jeni dil tədrisi usyllarьna qərə nəhvdən işə вaşlatmak lazьm qəldiqindən, nəhvi təhlilin duzqun, jə'ni вir tərəfdən pedagoзi usyllarьna, diqər tərəfdən lisanijjat kajdalarьna yjgyn syrətdə qəturulməsinin вejuq вir əhəmijjəti vardьr.

Indijə kədər məqtəвlərdə işlənən nəhvi təhlil usyly **nə?, nəji?** ... qiвi syallara cavaв araşdьrmakdan iвarətdir. Hal вy qi, вy qiвi syallara veriləcəq cavaвlar, cumlələr və ja cumlənin cuz'iləri arasьndaqь вagь mejdana çьkarmajьв, jalьnьz sözlərin вir-вirinə mə'naca nə syrətlə вaglandьgьnь qestərir.

By şə'вəmizin вaşьnda söjlədiqimiz qiвi, nəhvi təhlildə uç cihəti qəz onundə dytmak lazьm qəlir:

1) ryhi, 2) məntiki, 3)lisani.

Ryhi nəkteji-nəzərdən alьndьkda, çok dəfə, вir təq söz də cumlə təşqil edə вilir: *„Jangьn!"*, *„Vaj!"*, *„Ox!"*. *„Qəlir!"* və iləx...

Məntiki nəkteji-nəzərdən alьndьkda sərfi və şəqli xusysijjətlərinin вaşkalьgьna вakmajarak, muxtəlif söz gryplarь, cumlələr вir-вirinə musavi ola вilir; çunqu məntiki nəkteji-nəzərdən вakьldьkda ən muhum cihət mundəricə, fiqirdir; məsələn:

Qəldiqini qərdum=qərdum qi, qəldi=qəldi, qərdum=qərdum, qəldi dir. Hal вy qi, lisani nəkteji-nəzərdən вynlar вaşka-вaşka söz tərqiвləridır.

Byna qərə cumlələrin təhlilinə, вaşlьca, lisani nəkteji-nəzərdən janaşmalьdьr; вynynla вaraвar ryhi və məntiki cihətdən də cumlələri təhlil etməqi ihmal etməq kaвil dejildir; çunqu вynyn,təhriri və şifahi nьtkь inqişaf etdirməq nəkteji-nəzərindən, oldykca вejuq əhəmijjəti vardьr.

XII. LUGƏT VƏ MƏ'NA DƏJIŞMƏIƏRI.

(*Lexicon Semaciologie*).

1.

Sevtijjat, şəqlijjat və nəhvin өjrənilməsi ilə вir dil, tamamilə tədkik edilmiş sajьlmaz. Bу uç şөвədə

jalьnьz dilin taвe oldygy kanynlarь (sevti, şəqli, nəhvi) əjrəniriz. By kanynlarьn tə'siri altьnda вylynyв, dilin maddə və mevzyyny təşqil edən sözlərin nə syrətlə, haradan mejdana qəldiqlərini də вilməq lazьmdьr. Bynyn uçun dildə вylynan hər sözu ajrь-ajrь tədkik etməq lazьmdьr. Hər sözu, ajrь-ajrь mənşəi və əsli e'tiвarilə tədkik eləjən elmə *etimoloзi* (*L'etymologie*) dejilir. Laqin indijə kədər, jalьnьz sözlərin əsilləri ilə məşgyl olan etimoloзi, вy sözlərin muasir, canlь kijmətlərini вylmakda вəjuq вir fajda verməmişdir. Çunqu sözlərin tarixlərini вilməq, o sözlərin вy qunqu vəzijjətlərini izah etməqə jaramaz.

2.

Sözlərin hər dəfə işlədilməsində muəjjən və xusysi вir vəzifəsi vardьr qi, вyny o sözun tarixi ilə dejil, вəlqə o sözu işlədənin вylyndygy ictimai, cografi muhit və maliq oldygy zehni və uzvi mələqələr və xasijjətlərlə izah etməq mumqundur. Byna qərə вir dilin söz xəzinəsini təftiş və tədkik eləjə вilməq uçun „etimoloзi—iştikak" məsələlərindən zijadə canlь lugətlərə və вy lugətlərin jaşadьgь muhitə əhəmijjət verməlidir.

3.

„Lugət—*словарь*—*lexicon*" ilə „grammer" (sevt ijjat, şəqlijjat, nəhv)arasьnda вəjuq вir raвitə və вag jokdyr. Bə'zi dillərin lugətləri dəjişdiqi halda grammerləri saвit, dəjişiqsiz kalar. Ədəвi yrdy dilində grammer jerli Hind, sanskrit oldygy halda, cumlələr вaşdan-вaşa farscadьr. Ermənistanda saqin olan çinqənələr erməni sərfi kajdalarьnь işlətdiqləri halda sözləri — çinqənə lugətindən olmak e'tiвarilə ermənicəjə tamamilə jaвancьdьr. Ejni syrətlə вizim ədəвi dilimizdə də ərəв və fars lugəti, turq sərfi əsasьnda tərtiв edilmiş cumlələrə, hətta вəjuq, mufəssəl əsərlərə az təsaduf edilməz.

4.

Bynyn uçun XIX əsrin sonlarьna kədər lisançьlar tərəfindən ihmal edilə qələn lugət məsələləri son illərdə çok вəjuq əhəmijjət kazanmьşdьr. Canlь lugət-

lərin tədkiki və вy məşələ ətrafьnda japьlan munakəşələr lisanijjatda вir tərəfdən jeni вir elm şe'вəsi jaratmьş, diqər tərəfdən jeni usyli nəzərijjələrin dogmasьna səвəв olmyşdyr.

Almanja, Fransa ... qiвi Avropa məmləqətlərində məhəlli, canlь lugətlər muqəmməl syrətdə tədkik olynmaga вaşlamьşdьr. By tədkiklər əsnasьnda kyry sözləri zəвt və kejd etmənin məksədə çatdьrmajacagь anlaşьlmьşdьr. Bəjuq fransьz lisançьlarьndan Ž. Žijjeron (*J. Gilleron*) yn da dediqi qiвi, hər sözun özunə maxsys həjatь, aləmi vardьr. By həjat və aləmi tədkik etmədiqcə, lugət tədkikatьnь muvəffəkijjətlə japmak кавil olamaz.

By həjat, sözlərə haradan qəlir? Diqər fransьz lisanijjat alimi Ž. Vandrjes (*Vendryes*)in mufəssəl вir syrətdə izah etdiqi qiвi, вy həjat, sözlərdə onlarьn ictimai və iktisadi həjatьmьzьn nəticə və amillərindən вirisi olmalarь sajəsində вylynyr. (1) Sözləri вynyn uçun muhitdən ajьrmak, o sözlərin işləndiqləri ictimai, cografi, iktisadi şərtləri tədkik etmədən, kyrydan-kyryja çьplak səsləri вəlləməq, jьgmak heç вir syrətlə fajdalь elmi вir iş sajьlamaz.

Byradan çьkan nəticə вydyr qi, sözləri şejlər ilə вirliqdə almalьdьr; вyna qərə вir dilin lugətini tədkik etməq deməq, ejni zamanda o dili, o lugəti işlədən xalklarьn həjatьnь öjrənməq və öjrətməqdir.

5.

Hər sözun kijmәti, o sözun mə'nasьndan, fiqir və dyjgylarь, şejləri və hadisələri kejd və təsвit etməq uçun qərduqu xidmətdən iвarətdir.

Məqtəвlərdə dili tədris edərqən, sozlərin xarici, şəqli cihətdən nə syrətlə mejdana qəldiqlərini jaxşь mənimsəməqlə вaraвar вy sözlərin daxili cihətinə, mə'nasьna da nufyz etməqə çalьşmalьdьr. Bynsyz dilin ictimai və psikoloзiq kijməti anlaşьlmamьş olyr.

Lugət uzərində tədkik və muşahədə, o halda вaşlьca, sözlərin mə'nalarь uzərində japьlacak muşahədə (*наблюдение*) deməqdir.

1) J. Vandryes: Le langage, 1921 p. 203—271.

Bу muşahədədə iqi muhum cihət vardьr: 1) sözlərin əsas, əsli və tali, iqinci dərəcədəqi mə'nalarьnь bəlləməq, əldə etməq; 2) mə'nalarьn dəjişmələrindəqi kanynlarь вylyв çьkarmak.

6.

Sözlərin mə'nalarьnь tədkik etməqlə insan, o sözləri işlətməq, o lugətdə danьşa вilməq, səjləməq iktidarьnь əldə edər; diqər tərəfdən вy mə'nalarьn nə syrətlə və hansь kanynlar tə'siri altьnda dəjişdiqləri-ni muşahədədə вylynmakla lisanьn şuyrly syrətdə вilinməsini tamamlamьş olyr.

Lisanijjatьn mə'na və onyn həjati kanynlarь ilə məşgyl olan şө'вəsinə **semasiolozi** (*Semaciologie*) və ja **semantiq** (*Semantique*) dejilir.

7.

Umymijjətlə mə'nalar, dilin səslərinə; şəqillərinə və cumlə kyrylyşyna qərə, daha tez dəjişirlər. By dəjişmələr, səs və şəqildə oldygyndan daha karьşьk amillərin tə'siri altьnda mejdana qəlir. Bynyn uçun lisanijjatьn semasiolozi şө'вəsi çok agьr syrətdə inqişaf edir. Mə'nalarьn вy kədər tez edjişməsini—səscə, şəqilcə... dilə heç вir dəjişiqliq verməjən—iqi вir-вirinə jakьn rajony və ja tarixi devrəni alьв, onlarьn səzlərə japьşdьrdьklarь mə'nalar arasьndaqь fərki mukajəsə edəcəq olsak,çok açьk qərməq mumqundur. Lisanda və uslyвijjatda (*Stylistique*), **idiotizm** (*idiotisme*) dejilən tərqiв və cumlələrin mevcydijjəti, вy mə'na fərklərindən вaşka вir şej dejildir.

Məsələn: **qөz, sy, sən, iç** sözləri həmən вir çok turq ləhcələrində вylyndygy halda, farscadan alьnmasь məhtəməl olan: *„qөzum səndən sy içmir“* (sənə əmnijjət edəməjirəm) cumləsini azərвajcanlьdan вaşka qim anlaja вilir? Ejni syrətlə: *„вaşa salmak, вaşa duşməq, daldan qəlməq*..„qiвi tərqiвlərdə вylynan sözlər, səs və şəqil e'tiвarilə heç вir cur dəjişməjə mə'ryz kalmadьgь halda, mə'nalarь cihətindən azəri ləhcəsini вilməjənlər uçun anlaşьlamaz. Jalьnьz tərqiвlər və

cumlələrdə dejil, ajrь-ajrь sözlərdə də вy halь qərə вiliriz:

„Çөl, вajьr, saвah, səhər, saxla, kajьrmak, danьşmak, dolanmak“... qiвi sözlər həmən вutun ləhcələrdə вylynyr. Laqin вynlarьn azəri ləhcəsində xusysi mə'nalarь vardьr: *çөl* (өzqə ləhcələrdə *„istep“* azəri ləhcəsində „dьşarь“, *вajьr* (өzqə ləhcələrdə „təpə“, azəri ləhcəsində: „dьşarь“), *saвah* (өzqə ləhcələrdə: „qunun вaşь“, azəridə: „jarьn“), *səhər* (өzqə ləhcələrdə: "dan, qunun çьkmak uzrə вylyndygy vakt“, azəridə: „saвah, qunun вaşlangьcь“), *„saxla“* (өzqə ləhcələrdə: „qizləməq, muhafəzə etməq“, azəridə: „dyrdyrmak„), *kajьrmak* (əsli „kajgьrmak“ өzqə ləhcələrdə: „kejdini çəqməq, qədərlənməq“. azəridə: „japmak“); *danьşmak* (өzqə ləhcələrdə: „aşna olmak, tanьş olmak“, azəridə: „səjləşməq, səjləməq“), *dolanmak* (өzqə ləhcələrdə: „çevrilməq, qezinməq, sarьlmak“, azəridə: „qeçinməq, jaşamak“).

8.

By nev' sözləri a.ьk, mustəkil, ajrь sөzlər sajmak lazьm qəlir. Jykarьda qəstərdiqimiz mə'nada işləndiqi təkdirdə вy sözlər, şuвhəsiz, mustəkil, azəri ləhcəsinə maxsys sözlərdir: вyndan вaşka hər söz muxtəlif cumlə və tərqiвlərdə muxtəlif mə'nalar ifadə edər; məsələn: *вaş* sözunu вy tərqiвlərdə вir-вiri ilə mukajəsə ediniz.

1) *Başa* kakmak, 2) *вaşa* vyrmak, 3) *вaşdan* jazmak, 4) jeni *вaşdan* jazmak, 5) *вaşьndan* çok hallar qeçməq, 6) juz *вaş* kojyn, 7) *вaş*lamak, 8) söz *вaşь*, 9) sətir *вaşь*, 10) *вaş* qatiв...

Bir də *qөz* sözunu alalьm:

1) *Qөz*ləməq, 2) өz *qөzu* ilə qərməq, 3) *qөzdən* yzak, 4) *qөzə* qərunən adam, 5) *qөz* salmak, 6) *qөzu* kalmak, 7) *qөz* вatьrmak, 8) *qөzə* almak, 9) *qөz*ləşdirməq, 10) *qөzunu* korkytmak, 11) *qөz* vyrmak, 12) *qөz* eləməq, 13) *qөz* dəjməq.. ..

Byradan qəruiur qi. cumlədə və tərqiвdəqi jerinə qərə sözlərin durlu-durlu mə'nalarь ola вilər. Bynyn uçun də mə'na tədkiklərini ancak cumlə içərisində japmalьdьr.

9.

Sözlərin mə'na dəjişdirmələrində psikoloziq, ryhi, zehni mələqə və xasijjətləri qəz ənundə dytmak lazьm qəlir. Zehnimizdə sözlər mə'nalarьna qərə də вir neçə gryplara ajrьlьr. By gryplara qirmiş olan sözlər, daimi syrətdə zehnimiz işlədiqindən вir-вirlərinə jakьnlaşьr, yzaklaşьrlar. Başka sözlərlə dejəcəq olsak, sözlər dyrmadan, вir grypdan diqərinə qeçərlər. By syrətlə də mə'nalarь dəjişir.

By dəjişmələri, semasjolozi elminin qərəqi qiвi ilərilәməməsindən dolajь, sevti dəjişmələrdə oldygy qiвi muəjjən və kət'i kanynlarla tə'rif etməq mumqun dejildir. Indijə kədər ancak uç cur mə'na dejişməsi kejd olynmyşdyr: 1) mə'nanьn qenişlənməsi, 2) mə'nanьn darlaşmasь, 3) mə'nanьn intikalь.

10.

Mə'nanьn qenişləməsi, вir sözun əsli mevzy'dan daha qeniş mevzy'da işlənməsidir. Məsələn: *„Fir'on"*, *„Jəzid"*, *„franmason"* *„trest"*... qiвi xusysi isimlərin вy qunqu iste'mallarь (xajьn, dinsiz, вirləşmiş tuccari və sinai təşqilat) вy sözlərin mə'naca qenişildiqini qəstərir.

Ejni syrətlə:

Arslan, eşşəq, odyn, daş. вatmak (aj və qunəş hakkьnda), *tulqu, surundurmə, məqtəв, qitaв* ... qiвi sözlərin вə'zi dəfə mə'nalarь qenişlər: *arslan* („cəsyr" jerində), *eşşəq, odyn* („ahmaklьk, вydalalьk"), *tulqu* („hiləqarlьk") *surundurmə* („вurokratizm" karşьlьgь olarak вə'zi gəzetlərdə işlənir), *məqtəв* (əsas mə'nasь „jazь jazьlan jer" oldygy halda, вy qun hər durlu fənlərin „tədris və tə'lim məhəlli"), *qitaв* (ejni syrətlə „jazma" oldygy halda вy qun „вasmalara" da qitaв denilir).

11.

Mə'nanьn darlaşmasь, sözun adi mevzyynyn, adi, syrətdə verdiqi ifadə dajirəsinin qiçilməsi deməqdir:

Kьzьl (altьn), *kara* (jer), *qəj* (səma), *tanrь* (əsqidən „səma", indi „allah"), *darulfunyn* (əsli mə'nasь „fənlər jeri, evi", indiqi iste'mali „uçuncu dərəcəli, ali məqtəв")... qiвi sözlərin mə'nalarь darlaşmьş oldygy qiвi, umymijjətlə ismi-cinslər ismi-xas jerində işləndiqi zaman da mə'nalarь darlaşьr:

Tejnyr, Karaвag, Karadag, Karasy, Kьzьl Ьrmak, Qəjçaj, Qəj Qəl, Hacь Qənt, Xaçmaz, Agdam... qiвi sözlər, şəxslərin, sylarьn, ьrmaklarьn, xusysi məhəllərin unvanlarь olarak işləndiqi təkdirdə mə'nalarь darlaşmьş olyr.

12.

Mə'nalarьn intikalь, вir sözun вir mevzy'dan diqərinə qeçirilməsi deməqdir. Hər sözun вir çok mə'nasь vardьr. Xusysən ədəвi dillərdə mə'na çoklygy —*polysemie* denilən hadisəjə rast qəliriz. Byrada çok işlədilmə sajəsində sözlərin adətindən zijadə mə'nasь olyr. Həmən hər şajir və ja muhərrir, alim вir çok sözləri өz uslyв və mizacьna qərə xusysi mə'nalarda işlədir. By halь, ədəвi lisanьn muəjjən xəstəliqlərindən вirisi adlandьrmak mumqundur. Hal вy qi, xalk dilindəqi sözlərdə, вil'əqis, „mə'na fəkirliqi" qərulur; вyrada şivələrin çoklygy sajəsində вir mə'nanьn вir neçə cur sevti ifadəsi, işarəti ola вilər, jə'ni вir neçə sözu olar.

Turq ədəвi dilində daha çok mə'na fəkirliqinə, söz вollygyna rast qəliriz. Bynyn da səвəвi ərəв və fars dillərindən luzymly-luzymsyz alьnmьş olan sözlərdir; məsələn: *dərja—dəniz—вəhr, əncum—əxtər—yldyz, qişi—insan—adam, ərz—jer, səma—asman—qəj, sijah—kara, вəjaz—ag*..

Təвii, dikkətlə вakьlьrsa, вynlardan, jə'ni əcnəвi dillərdən qeçmiş olan sözlərdən вə'zilərinin işlənməsində fərklər вylyndygy qəruləcəqdir:

Qişi (erqəq), *adəm* (umymi), *insan* (jaxşь adam), *sijah pərdə, kara uzlu, вəjaz əqməq, ag sakkal*... (Bir neçə turq ləhcələrində *ag, kara* mə'nəvi, *sijah, вəjaz* maddi mevzy'larda işlənir).

Hər halda, təвii halda hər mə'nanьn вir karşьlьgь olmak lazьm isə də, вy vəzijjətdə вylynan heç вir dil

jokdyr; dedioqimiz qibi, hər dildə bir sözun bir neçə və ja bir çok mə'nasь olyr. Bynlardan birisi baş mə'na (*главное значение*) olyв, kalanlarь iqinci dərəcə mə'na (*второстепенное значение*), dir. Baş mə'na ilə iqinci mə'nalar arasьnda daima bir mucadələ vardьr. Iqinci mə'nalardan hər biri baş mə'nanьn jerini dytmaga çalьşьrlar; çok dəfə muvəffək də olyrlar. By təkdirdə sözun mə'nasь intikal etmiş olyr.

Qəçəri, *ocak* (əsqi „otcak"), *otak* (od+ak), kapь (əsqi „kapьk, kapak"), *qəlir* (irad, kazanc), *kaçak*, *dytsak*, *istot*... sözləri bу syrətlə mejdana qəlmişdir.

Sözun birinci baş mə'nasьna **əsli,** iqinci mə'nalarьna **məcazi** dejilir.

13.

Əsasən butun dillərdə bу qun işlədilməqdə olan sözlərin mə'nalarь, kət'i syrətdə dejə biliriz qi, „məcazidir". Zaman ilə bу sözlərin əsli mə'nalarь gejв olyв, onlarьn məcazi mə'nalarь jerlərini dytmyş, bynlarьn da, jə'ni əsqi məcazi mə'nalarьn da jerini jenilәri almьşdьr. Mə'nalarьn həjatь dyrmadan əslidən məcazijə qeçməqdən ibarətdur. Daha dogrysy, sözlər, şejlər və hadisələrin jalьnьz işarətlərindən ibarət oldyklarьndan əsli və məcazi mə'nalarь kət'i syrətdə bir-birindən ajьrmak mumqun dejildir; jə'ni məcazi olsyn, əsli olsyn, sözə verilən hər cur mə'na e'tibari, daxilidir; xaricdə onyn karşьlьgь jokdyr. Byrada əsli və məcazi tə'birlərindən, daha zijadə sözlərin birinci və iqinci nevbədəqi mə'nalarьnь anlamak daha dogry olyr.

14.

Mə'nalarьn canlь syrətdə, jə'ni şejlər və hadisələrlə muvazi olarak nьtьk, cumlə içərisində tədkikinin mədənijjət tarixi nəkteji-nəzərindən də bəjuq əhəmijjəti vardьr. Bə'zən bir sözun mədlyl və mevzyy gejв oldygy halda, ejni söz jeni bir şejə ad olyr. Sözun əsli mə'nasь tədkik olyndygy təkdirdə dildə əsqi maddi mədənijjətin izləri çok zamanlar silinmədən kaldьgьnь qərməq mumqundur. Məsələn: jykarьda ziqr etdioqi-

miz *otak* və ja *oda* sözunun *od*, atəş sözu ilə əlakədar olmasь əsqi ibtidai jyrtlarьmьzь xatьrlatmajьrmь? By qun artьk od jakьlsьn, jakьlmasьn, hər durlu məsqənə, otyrylacak, jaşanьlacak ev bəlməsinə *otak oda* dejiriz. *Kyrşyn* atmak, *qullə atmak*, *kazan asmak* tə'birlərində, professor Bogoroditsqi çok dogry olarak, əsqi ok atmakla olan muharəbələrin, zəncirə baglanьв asьlan kazanьn xatirəsini qərur.

Bə'zən əsqi e'tikadlar gejв oldygy halda, onyn tə'birləri jeni mə'nalarda işlənir:

Qjun batdь, *aj dogdy*, *kan dytdy*, *zamanь qəldь*, *dəniz kydyrdy*, *mərhym salam*... qibi tə'birlərdə animizm (şejləri və hadisələri canlandьrmak), islam əkidələrinin izləri qərulur. Hələ şeirlərdə bynlara, bу qibi tə'birlərə çok rast qəlinir.

15.

Əcnəbi sözlərdə, çok dəfə bə'zən darlaşmak, bə'zən qenişləməq syrətində mə'na dəjişmələri qərulur. Xalk analoзisi və jalançь etimoloзi tə'bir olynan hadisələr bу kəbildəndir.

Təhlil.

Mə'na cihətindən dil materjalьnьn təhlili, şəqli əsas uzərində kyrylmyş bir sərfdə, bу bəhsdə qəstərdiqimiz əsaslar uzərinə kyryldygy təkdirdə, heç fajdasьz olmaz. Əsqi sərflərimizin əsas bunjəsini təşqil edən, sözlərin mə'nalarьna qərə təsnifi, byrada mumqun oldygy kədər tətbik olyna bilər. Sözləri, mə'nalarьna qərə: sifət, umymi isim, xusysi isim, zəmir, feil parçalarьna ajьrmak mumqun oldygy qibi, başka cur incə mə'na fərklərini də qəstərməq kabildir. By xusysda, xusysən, ədəbi materjal işlənə bilər.

XIII. BIBLOGRAFIJA.

Azəri ləhcəsi ətrafında indijə kədər japılan tədkiklər.

Azəri ləhcəsi hakkında, indijə kədər japılan tədkiklər çok az oldygy qibi, çok az da ciddidir. Lisançь turqologlar Şimalda, daha zijadə Sibir və Orta Asja ləhcələri ilə (Məsələn; Radlof, Botling, Katanof...), Cənubda osmanlь-Anadoly şivələri ilə (həmən butun Avropa turqologlarь) məşgyl olmyşlar, turqmən və azəri şivələrini iqi ortada byrakmьşlardьr. Azəri ləhcəsi barəsində mustəkil və elmi bir sərf və ja lisani tədkikə ajid əsər—professor Aşmarininqindən başka—mejdana çьkmamьşdьr. Bizim byrada, gajət muxtəsər izahatla sajьb qeçəcəqimiz əsərlər, jalьnьz mukajəsə xatiri uçun azəri ləhcəsindən bəhs ejləjən və ja dogrydan-dogryja (Azərbajcanda nəşr edilən bir-iqi sərf qitabçasь qibi) əməli məksəd tə'kib eləjən lisani əsərlərdir. Bynynla barabar, indijə kədər, azəri ləhcəsini tədkik jolynda ortaja çьkan əsərlərlə muəllim, umymijjətlə lisançь aşna olmalьdьr. Çunqu, ancak by sajədə by muhum ləhcənin tədkikatьnda iştiraq edə bilər. Muəllimin, by ləhcəni, ana ləhcəsi olarak, bilənlərin iştiraqь olmadan əlbəttə ciddi və muqəmməl əsərlər tə'lif etməq çətin olar. By fiqirlərə dajanarak, az çok karakteristiqi ilə birliqdə azəri ləhcəsinə ajid lisanijjat tədkikatьnь qəstəririz:

1. Мирза А. Казембек: Общая грамматика турецко-татарского языка, 2-ое издание,казань, 1848.

Əsli, mənşəi e'tibarilə Azərbajcan turqlərindən olan Mirzə Qazьm-bəjin by əsəri, azəri ləhcəsini, həmən ilq dəfə elmi, lisani nəkteji-nəzərdən tədkik elejən əsərlərin birincisidur. Qazьm-bəj by əsərinin heç bir kьsmьnda, jykarьda da işarət etdiqimiz uzrə, ajrьca azəri ləhcəsi uzərində dyrmamьşdьr. Jalьnьz hər hansь bir lisani hadisəni izah edərqən, azəri ləhcəsindən də numynə və misallar qətirməqdədir. Sərfinin mundəricəsinə bakьldьkda, Qazьm-bəj, by əsərini iləridə mukajəsəli sərf uçun bir əsas olmak uzrə tə'lif eləmişdir; çunqu by sərfdə çok dəfə bir neçə turq-tatar ləhcələrindən, hətta moqolcadan belə misallar qətirildiqini qəruruz. Azəri ləhcəsindən qətirdiqi misallar canlь dildən alьnmьşdьr və muhərririn by ləhcəjə oldykca aşna oldygyny qəstərir.

2. Лазарев—Будагов: Практическое руководство турецко-татарскаго, азербайджанского наречия, Москва, 1857.

Mirzə Qazьm-bəjin sərfindən sonra iqinci mevkei işgal edən by əsər, by dəkikədə əlimizdə bylynmadьgьndan, hakkında daha mufəssəl mə'lymat verməq imqanьndan məhrymyz; jalьnьz bynyn da dogrydan-dogryja azəri ləhcəsinə ajid olmajьb, ancak mukajəsə unsurlərindən birisi olarak alьndьgьnь kejd edə biliriz.

3. "تورك آذربايجان ديلى‌نڭ مختصر صرف‌ـنحوى„ 1899ـباكو

47 qiçiq səhifədən ibarət olan by sərf qitabçasь, mərhym Nəriman Nərimanofyn birinci fəalijjət dəvrinə ajiddir. Əsərdə gajət muxtəsər syrətdə azəri dilinin sərfi və nəhvi xusysijjətlərindən bəhs olynyr. Nərimanof sərfində əsas olarak, azəri ləhcəsini almьşdьr. Lisani nəkteji-nəzərdən, muəllif bir tərəfdən turq, diqər tərəfdən rys sərflərini qəz ənundə dytmasь sajəsində o vaktdaqь sərf qitablarьnda qərulməjən bir neçə xusysijjəti əz qitabçasьnda kejd ejləjə bilmişdir. Byndan başka əsqi ərəb terminolozisi ilə muvazi olarak rys sərfi terminolozisini işlətmişdir. Qitabçanьn sonyna dyrgy işarələri və xalk, jazьlь ədəbijjatdan bə'zi numynələr ilavə edilmişdir. Məqtəb sərfi və başlanğьç olarak kijmətdən ari olmajan by əsər, nədənsə, sonraqь illərdə əz tə'sirini qəstərəməmiş və by əsas uzərinə kyrylmyş mufəssəl bir azəri sərfinin mejdana qəlməsinə səbəb olmamьşdьr.

